RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 162 (10182) 8 sentyabr 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Vladimir Putin İlham Əliyevə zəng edib

Sentyabrın 7-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı zamanı dövlət başçıları iqtisadi-ticari və humanitar əməkdaşlığın bir sıra aktual məsələlərini müzakirə ediblər.

İkitərəfli əlaqələrin müxtəlif səviyyələrdə intensivləşdirilməsi barədə razılıq əldə olunub.

***Prezidentin Mətbuat Xidmətinin məlumatı***

# XƏZƏRDƏ YENİ GÜC



## Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi donanmamızı gələcəyin silahları ilə gücləndirir

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hərbi Dəniz Qüvvələrində olublar.

AZƏRTAC xəbər verir ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

2

## Prezident İlham Əliyevin sosial şəbəkə hesablarında Hərbi Dəniz Qüvvələrində olması ilə bağlı videoçarx paylaşılıb



https://www.facebook.com/reel/1474838417782571

## Praqmatik və çoxşaxəli diplomatiya

### Prezident İlham Əliyevin xarici ölkələrə hər bir səfəri Azərbaycanın yüksək beynəlxalq nüfuzundan xəbər verir



Prezident İlham Əliyev xarici ölkələrdə keçirdiyi rəsmi görüşlərdə, qatıldığı mötəbər sammitlərdə və mətbuat konfranslarında hər zaman prinsipial siyasi mesajlar verir. Dövlətimizin başçısı bütün platformalardan istifadə edərək bəşəriyyəti narahat edən qlobal problemlərin həlli yollarını göstərir, beynəlxalq hüququn aliliyini, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət olunmasının vacibliyini qətiyyətlə müdafiə edir. Cənubi Qafqazda davamlı sülhün və sabitliyin bərqərar olunması ilə bağlı Azərbaycan Prezidentinin səsləndirdiyi bəyanatlar, irəli sürdüyü konstruktiv təşəbbüslər beynəlxalq ictimaiyyət tərəfindən regionda sülhün əsas zəmanəti kimi qəbul edilir.

Azərbaycan Prezidentinin xarici ölkələrə intensiv səfərləri, o cümlədən tərəfdaşlıq, enerji təhlükəsizliyi və nəqliyyat dəhlizlərinin inkişafı ilə bağlı verdiyi mesajlar göstərir ki, Azərbaycan geniş coğrafiyada sabitliyin, təhlükəsizliyin və tərəqqinin əsas təşəbbüskarı kimi çıxış edir.

5

## Sülh Azərbaycanın öz gücü ilə təmin olundu

### Bu reallığı ATƏT də etiraf etdi




Cənubi Qafqazda gerçəkləşdirilən və onu qlobal maraq dairəsinə salan əsas layihələrdən biri də Vaşinqton Zirvəsində razılaşdırılmış Zəngəzur dəhlizidir (TRIPP).

Orta dəhlizin vacib tərkib hissəsi olan bu nəqliyyat dəhlizi Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirməklə yanaşı, bütün regionun logistik xəritəsini dəyişəcəkdir. Azərbaycan öz ərazisində bu marşrut üzrə demək olar ki, bütün dəmir yolu və avtomobil infrastrukturu işlərini yekunlaşdırıb. Ermənistan tərəfində də tikinti və mühəndislik işlərinin başlaması TRIPP-ın tezliklə reallaşmasını təmin edəcək. Bu dəhliz təkcə iki ölkəni deyil, Orta dəhliz vasitəsilə Şərqlə Qərbi, ABŞ və Avropa bazarlarını Mərkəzi Asiya ilə bağlayan qlobal iqtisadi körpüyə çevriləcək.

Azərbaycan Ermənistana qarşı tətbiq edilən bütün tranzit məhdudiyyətlərini aradan qaldırıb. İndi ölkəmizin ərazisindən tranzit keçməklə Ermənistana taxıl, gübrə daşınır. Hətta enerjiyə ehtiyacı olan bu ölkəyə birbaşa Azərbaycandan yanacaq - benzin və dizel göndərilir. Bu, Azərbaycanın timsalında qalib tərəfin bölgədə sabitlik və rifah yaratmaq niyyətinin ən humanist və əyani göstəricisidir.

6

## Azərbaycan-Tacikistan strateji əməkdaşlığı uğurlu gələcəyə hesablanıb



Azərbaycanın nəqliyyat-logistika imkanlarından (o cümlədən Orta dəhliz çərçivəsində) Tacikistanın istifadə etməsi ikitərəfli strateji tərəfdaşlığın geoiqtisadi əhəmiyyətini daha da artırır. Tacikistan Orta dəhlizi öz xarici iqtisadi və nəqliyyat siyasətinin əsas prioritetlərindən biri hesab edir. Ölkə bu marşrut çərçivəsində Azərbaycanın nəqliyyat-logistika infrastrukturu, o cümlədən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə əməkdaşlığı fəal şəkildə genişləndirir. Ölkələr Mərkəzi Asiya və Cənubi Qafqazı birləşdirən nəqliyyat-logistika qovşaqlarından səmərəli istifadəni genişləndiriblər.

Hazırda Azərbaycan və Tacikistan arasında nəqliyyat və tranzit sahəsində fəal ikitərəfli əməkdaşlıq mövcuddur və bu əlaqələr ildən-ilə daha da genişlənir. Tərəflər beynəlxalq avtomobil daşımaları üçün elektron icazələrin tətbiqi, məlumat mübadiləsi platformalarının qurulması, "bir pəncərə" mexanizmləri və yüklərin real vaxt rejimində izlənilməsi sistemləri istiqamətində addımlar atırlar.

Azərbaycan Tacikistana əsasən şəkər və şəkər məmulatları, yanacaq-energetika məhsulları (o cümlədən reaktiv mühərriklər üçün kerosin yanacağı), qənnadı məmulatları (şokolad və şokoladdan hazırlanan məhsullar), müxtəlif növ sənaye və ərzaq malları ixrac edir. Tacikistandan Azərbaycana ixrac edilən məhsullar isə bunlardır: pambıq ipliyi, kənd təsərrüfatı və qida məhsulları (məsələn, yerfındığı (araxis), qurudulmuş meyvələr, o cümlədən qurudulmuş ərik), quş yumurtası və digər ərzaq malları.

5

## COP29-un "miras"ı - "Bakı İqlim Həftəsi 2026"

BAKU CLIMATE ACTION WEEK

"Bakı İqlim Həftəsi" yalnız rəsmi şəxslərin deyil, cəmiyyətin bütün təbəqələrinin iqlim prosesinə cəlb edildiyi çoxyönlü bir forumdur. Tədbir bir sıra istiqamətləri əhatə edir və bu da onun əsas mahiyyətini açır. Əvvəla, bu tədbir qlobal dialoq və əməkdaşlıq məkanına çevrilib. Yəni müxtəlif ölkələrin dövlət rəsmilərini, beynəlxalq təşkilatları, biznes liderlərini, investorları, alimləri, vətəndaş cəmiyyətini və gəncləri bir araya gətirir. Yəni bu, bir icra forumudur, iqlim sammitlərində (məsələn, COP29-da) qəbul edilmiş qərarların və Paris Sazişinin maddələrinin kağız üzərindən real həyata necə keçiriləcəyini müzakirə edir.

Tədbir eləcə də əsas mövzuları ilə seçilir. Sessiyalarda, adətən, enerji keçidi, metan emissiyalarının azaldılması, bərpaolunan enerji sertifikatları, iqlim maliyyələşdirilməsi, karbon bazarları və innovativ "yaşıl texnologiya"lar diqqət mərkəzində olur.

Həftə inklüzivliyi və keçirdiyi tədbirlərlə də yaddaqalan olur. Belə ki, həftə çərçivəsində təkcə elmi və siyasi panellər deyil, həm də iqlim mövzusunda sərgilər, şəhər turları, incəsənət və mədəniyyət layihələri də reallaşdırılır.

Budəfəki tədbirin məkanı Bakı Konqres Mərkəzidir. Burada təqribən 2500-dək nümayəndə - dövlət və hökumət rəsmiləri, beynəlxalq təşkilatlar, biznes liderləri, investorlar və gənclər bir araya gəliblər. Onların əsas məqsədi iqlim öhdəliklərinin kağız üzərində qalmayaraq praktiki icrasına nail olmaq, "yaşıl enerji" keçidini sürətləndirmək və gələcək COP konfransları (COP31) ərəfəsində beynəlxalq əməkdaşlığı gücləndirməkdir.

8

# XƏZƏRDƏ YENİ GÜC

## Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi donanmamızı gələcəyin silahları ilə gücləndirir











*Əvvəli 1-ci səh.*

Dövlətimizin başçısı və birinci xanım Hərbi Dəniz Qüvvələrinin qərargahının qarşısında Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, Ulu Öndərin xatirəsinə ehtiramlarını bildirdilər.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Müdafiə Nazirliyinin tabeliyində fəaliyyət göstərən "MİRAS Hərbi-Sənaye Şirkəti" MMC-nin və "DEARSAN Gəmi İnşaat Sənaye" AŞ-nin birgə istehsalat sahəsində qabaqcıl texnoloji innovasiyaların tətbiqi ilə hazırlanan SALVO (SİDV) silahlı insansız dəniz vasitələri, KAYRA (KİDV) kamikadze insansız dəniz vasitələrinin təyinatı və taktiki-texniki xüsusiyyətləri barədə məlumat verildi.

Sonra dövlətimizin başçısı və birinci xanım istehsalat sahəsində görülən işlərlə tanış oldular.

Daha sonra burada istehsal olunan insansız dəniz vasitələri praktiki sınaqdan keçirildi.

Sonda Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sədrliyi ilə hərbi quruculuq məsələlərinə dair operativ müşavirə keçirildi.



## Esvatininin Kralı Əlahəzrət III Msvatiyə

Əlahəzrət!

Esvatini Krallığının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Hazırda Azərbaycan ilə Esvatini arasında münasibətlərin inkişaf etdirilməsi üçün yaxşı şərait formalaşmışdır. Cari ilin may ayında WUF13-də iştirak etmək üçün Bakıya səfəriniz Azərbaycan-Esvatini əlaqələrinin tarixində xüsusi yer tutur. Mən Sizinlə səmimiyyət şəraitində keçən görüşümüzü və apardığımız fikir mübadiləsini ən xoş təəssüratlarla xatırlayıram.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında dostluq münasibətlərini möhkəmləndirmək, əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 sentyabr 2026-cı il*

## Əziz Səncərin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının beynəlxalq elmi və humanitar əməkdaşlığının möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Əziz Səncər "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 sentyabr 2026-cı il*

## F.X.Kazımovun Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondu İdarə Heyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fəxri Xanhüseyn oğlu Kazımov Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondu İdarə Heyətinin sədri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 sentyabr 2026-cı il*

## O.İ.Xaliyevin Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondu İdarə Heyətinin sədri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Osman İsmayıl oğlu Xaliyev Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondu İdarə Heyətinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri,7 sentyabr 2026-cı il*

## Azərbaycanın və İranın həyata keçirdikləri birgə layihələrin icra vəziyyəti müzakirə edilib

**Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədrləri - Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və İran İslam Respublikasının yol və şəhərsalma naziri Fərzanə Sadiq arasında telefon danışığı olub.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı Dövlət Komissiyasının cari ilin fevralında Bakıda keçirilmiş 17-ci iclasının yekunlarına dair Anlaşma Memorandumunda əksini tapmış məsələlərin icra vəziyyəti nəzərdən keçirilib.

Tərəflər iqtisadi-ticari, nəqliyyat-tranzit, energetika, su və digər sahələrdə uğurlu əməkdaşlığı vurğulayıb, həyata keçirilən layihələrin icra dinamikasını müzakirə ediblər.

Xüsusilə nəqliyyat sahəsində həyata keçirilən layihələr sırasında Ağbənd-Kələlə avtomobil körpüsünün tikintisinin başa çatdırılması mühüm nəticə kimi qeyd edilib. Həmçinin Astara yük terminalında işlərin tamamlanması istiqamətində zəruri məsələlər müzakirə olunub.

# Milli Məclisin Sədri Sahibə Qafarova Amerika Birləşmiş Ştatlarına işgüzar səfərə gedib

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Amerika Birləşmiş Ştatlarına işgüzar səfərə gedib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Nyu York Beynəlxalq Hava Limanında nümayəndə heyətini Azərbaycanın Birləşmiş Millətlər Təşkilatı (BMT) yanında daimi nümayəndəsi Tofiq Musayev və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Alimlər və Parlamentarilər üçün 4-cü beynəlxalq seminarda çıxış edib

**Milli Məclisin Sədri Sahibə Qafarova Latın Amerikası və Karib Hövzəsi Ölkələri qrupu GRULAC-ın təşkilatçılığı ilə Argentinanın Buenos-Ayres şəhərində keçirilən "Texnoloji transformasiya, siyasi parçalanma və demokratik etimad böhranı qarşısında parlamentlərin rolu" mövzusuna həsr olunmuş Alimlər və Parlamentarilər üçün 4-cü beynəlxalq seminarda xüsusi qonaq qismində onlayn çıxış edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin Sədri bildirib ki, müasir dövrdə rəqəmsal texnologiyalar dövlət təsisatlarının fəaliyyətini və onların vətəndaşlarla qarşılıqlı münasibətlərini köklü şəkildə dəyişir. O deyib ki, bu proses parlamentlər üçün böyük imkanlar açmaqla yanaşı, həm də ciddi məsuliyyətlər yaradır. Rəqəmsallaşmanın parlamentlərin şəffaflığını və əlçatanlığını artırdığını vurğulayan spiker texnologiyaların heç bir halda cavabdehliyi, siyasi dialoqu və güclü institusional strukturları əvəz edə bilməyəcəyini diqqətə çatdırıb.

Çıxışında Azərbaycanın bu sahədəki geniş təcrübəsindən bəhs edən parlamentin Sədri bildirib ki, ölkədə rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya siyasəti Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Rəqəmsal İnkişaf Şurası tərəfindən uğurla koordinasiya olunur. Sahibə Qafarova vurğulayıb ki, Milli Məclis hüquqi bazanı ardıcıl olaraq möhkəmləndirir, elektron sənəd dövriyyəsi, elektron səsvermə və qanunvericilik izləmə sistemlərindən fəal istifadə edir. O deyib ki, qəbul edilən yeni qanunvericilik aktları ictimai müzakirələrin və parlament dinləmələrinin də elektron formatda keçirilməsinə tam hüquqi zəmin yaradır.



Spiker qeyd edib ki, texnologiya yalnız bir vasitədir və cəmiyyətdə demokratik etimadın səviyyəsi bu vasitədən necə istifadə olunmasından bilavasitə asılıdır.

Milli Məclisin Sədri bildirib ki, texnoloji transformasiyanın gətirdiyi çətinliklər hər bir regiona və parlamentə təsir göstərir, lakin bütün parlamentlər eyni tədqiqat və rəqəmsal resurslara malik deyillər.

O deyib ki, süni intellekt, kibertəhlükəsizlik və məlumatların qorunması kimi sərhəd tanımayan qlobal çağırışlarla heç bir parlament təkbaşına mübarizə apara bilməz və bu baxımdan dünyada ən geniş təmsilçiyə malik beynəlxalq parlament təşkilatı olan Parlamentlərarası İttifaq (PAİ) mühüm platforma rolunu oynayır.

Spiker vurğulayıb ki, PAİ fərqliliklərə baxmayaraq, parlamentlər arasında əməkdaşlığı təmin etməli və konsensusun daha erkən mərhələdə qurulmasına kömək etməlidir. O qeyd edib ki, süni intellektin bərabərsizliyi dərinləşdirmədən və insan məsuliyyətini zəiflətmədən demokratik təsisatları necə gücləndirə biləcəyi məsələsi PAİ-nin çərçivəsində təşkil olunacaq müntəzəm dialoqların ilk müzakirə mövzularından biri olmalıdır.

Parlament Sədri diqqətə çatdırıb ki, bütün üzv parlamentlər bərabər hüquqlara malik olsalar da, onların tədqiqat imkanları və texnologiyaya çıxışı eyni deyil. Bu səbəbdən PAİ parlamentləri universitetlər və ekspertlərlə əlaqələndirərək bilik mübadiləsi vasitəsilə bu fərqi aradan qaldırmalıdır.

Çıxışına yekun vuran Mili Məclisin Sədri Sahibə Qafarova vurğulayıb ki, beynəlxalq parlament platformalarının əsas gücü onların müxtəlifliyindədir və bu müxtəliflikdən qlobal etimadı bərpa etmək üçün istifadə olunmalıdır.

*"Azərbaycan"*

# "Bakıdan COP31-ə: Parçalanmış dünyada dinamikanın saxlanılması" mövzusu müzakirə olunub

**"Bakı İqlim Fəaliyyəti Həftəsi 2026" çərçivəsində "Bakıdan COP31-ə: Parçalanmış dünyada dinamikanın saxlanılması" mövzusunda sessiya keçirilib.**



AZƏRTAC xəbər verir ki, London İqlim Fəaliyyəti Həftəsinin kuratoru, səfir Malini Mehranın moderatorluğu ilə keçən sessiyada Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi və COP29-un prezidenti Muxtar Babayev, Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycandakı rezident-əlaqələndiricisi Dmitro Şlapaçenko, energetika nazirinin müavini Elnur Soltanov, COP31 üzrə Yüksək Səviyyəli İqlim Çempionunun baş məsləhətçisi Kristian Mensah, Xarici İşlər Nazirliyinin İqlim diplomatiyası idarəsinin rəisi Elçin Allahverdiyev, Böyük Britaniya Lordlar Palatasının üzvü, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Patrisia Skotland çıxış ediblər.

Sessiyada COP29-un irsinin necə qorunub inkişaf etdirilməsi, Bakıdan əldə olunan nailiyyətlərin və dərslərin qarşıdakı illərdə qlobal iqlim gündəliyinə necə təsir göstərməyə davam etməli olduğu əsas müzakirə mövzusu olub.

Müzakirələrdə Qlobal Şimal və Qlobal Cənub arasında etimadın bərpası zərurəti diqqət mərkəzində saxlanılıb, daha inklüziv, ədalətli və icraya yönəlmiş iqlim danışıqlarına aparan yollar nəzərdən keçirilib.

Həmçinin parçalanmış geosiyasi şəraitdə iqlim diplomatiyasının rolu və artan gərginliklərə baxmayaraq, onun dialoq platforması kimi fəaliyyətini davam etdirmək potensialı müzakirə olunub.

Diqqət öhdəliklərdən icraya keçidə yönəldilib və COP-lar arasındakı dövrdə dinamikanın qorunmasında hökumətlərin, parlamentlərin, biznesin, şəhərlərin və vətəndaş cəmiyyətinin rolu vurğulanıb.

Sessiyada COP31-ə nəzər salınıb və beynəlxalq ictimaiyyətin artıq Bakıda əldə olunmuş nəticələri yenidən müzakirə predmetinə çevirmək əvəzinə, onların üzərində necə işləyə biləcəyi, bununla da davamlılığı, ambisiyanı və real irəliləyişi necə təmin edə biləcəyi müzakirə edilib.

# YAP Sədrinin müavini Tahir Budaqov AK Parti Gənclik Qollarının nümayəndə heyətini qəbul edib

**Sentyabrın 7-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ölkəmizdə səfərdə olan Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) Gənclik Qollarının sədri Yusuf İbişin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



Görüşdə iki ölkənin liderləri - Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın məqsədyönlü siyasəti nəticəsində Azərbaycan ilə Türkiyə arasındakı münasibətlərin uğurla inkişaf edərək strateji müttəfiqlik səviyyəsinə yüksəldiyi məmnunluqla vurğulanıb.

Azərbaycanın ərazi bütövlüyü və mütləq suverenliyinin bərpasından sonra regionda yeni reallıqların yarandığı, 2021-ci il 15 iyun tarixində imzalanmış Şuşa Bəyannaməsindən irəli gələn öhdəliklərin yerinə yetirilməsinin istər Azərbaycan ilə Türkiyə arasında çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi, istərsə də bölgədə sülh və təhlükəsizliyin təşviqi baxımından önəmi diqqətə çatdırılıb.

Azərbaycan-Türkiyə birliyinin türk dünyasında da rifah və tərəqqiyə xidmət etdiyi, genişmiqyaslı və səmərəli birgə fəaliyyətin Türk Dövlətləri Təşkilatının (TDT) qlobal miqyasda güc mərkəzinə çevrilməsinə hədəfləndiyi söylənilib. Vurğulanıb ki, TDT-nin müasir beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmləndirilməsi hər iki dövlət üçün mühüm prioritetdir və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirilir.

İki dost və qardaş ölkə arasında münasibətlərin inkişafı xüsusunda partiyalararası əlaqələrin müstəsna rolu qeyd olunaraq 2021-ci il iyunun 2-də YAP ilə AK Parti arasında imzalanmış Əməkdaşlıq Protokolunda əksini tapan vəzifələrin uğurla icra olunduğu bildirilib.

2022-ci ildən etibarən hər il Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Şuşa Bəyannaməsinin ildönümü və 15 İyun - Milli Qurtuluş Günü ilə əlaqədar Şuşa şəhərində keçirilən konfransların beynəlxalq münasibətlər sistemində çoxtərəfli əməkdaşlıq imkanlarının müzakirə edildiyi nüfuzlu siyasi platforma kimi əhəmiyyəti qeyd olunub.

Görüş zamanı hər iki ölkədə uğurla həyata keçirilən gənclər siyasətinin önəmi, o cümlədən gənclərin ictimai-siyasi həyatda fəallığının artırılması istiqamətində görülən işlər məmnunluqla qeyd olunmuş, bu sahədə təmasların sıxlaşdırılmasının, qarşılıqlı səfərlərin və birgə layihələrin vacibliyi vurğulanmışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də müzakirələr aparılıb.

# YAP Gənclər Birliyinin və AK Parti Gənclik Qollarının nümayəndələri arasında görüş keçirilib

**Sentyabrın 7-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Gənclər Birliyinin nümayəndələri ilə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) Gənclik Qollarının nümayəndə heyəti arasında görüş keçirilib.**



Qonaqları salamlayan YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov ortaq dəyərlərə, milli maraqlara, dostluq və qardaşlıq prinsiplərinə əsaslanan Azərbaycan-Türkiyə əlaqələrinin bu gün ən yüksək zirvədə olduğunu qeyd edib. O bildirib ki, dövlət başçılarının siyasi iradəsi nəticəsində uğurla inkişaf edən dövlətlərarası münasibətlər bu gün dünyada nümunəvi xarakter daşıyır.

Bəxtiyar İslamov hakim partiyaların gənclər təşkilatlarının birgə fəaliyyətinin müştərək hədəflərin reallaşdırılması baxımından önəmini diqqətə çatdırıb.

AK Parti Gənclik Qollarının sədri Yusuf İbiş Azərbaycan-Türkiyə münasibətlərinin sarsılmaz olduğunu bildirib. Dostluq və qardaşlıq ənənələrinin gələcək nəsillərə ötürülməsinin vacibliyini qeyd edən Yusuf İbiş gənclərin dövlətçilik dəyərlərinə sadiqliyinin və beynəlxalq platformalarda birgə fəaliyyət imkanlarının genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə gələcəyə yönəlik əməkdaşlıq məsələləri ətrafında müzakirələr aparılıb.

# "Metan emissiyalarının azaldılmasının sürətləndirilməsi: Aşkarlamadan fəaliyyətə" mövzusunda sessiya başa çatıb

**"Bakı İqlim Fəaliyyəti Həftəsi 2026" (BCAW2026) çərçivəsində "Metan emissiyalarının azaldılmasının sürətləndirilməsi: Aşkarlamadan fəaliyyətə" mövzusunda üçüncü panel sessiya keçirilib.**





AZƏRTAC xəbər verir ki, Neft və Qazın Dekarbonizasiyası Xartiyasının (OGDC) baş proqram meneceri Eliz Özdemirin moderatorluğu ilə keçirilən sessiyada metan emissiyalarının aşkarlanması, ölçülməsi və azaldılmasından tutmuş, onların aradan qaldırılması və nəticələrin verifikasiyasına qədər olan proseslər müzakirə olunub.

Sessiyada peyk, hava və yerüstü monitorinq məlumatlarının vahid ölçmə və verifikasiya sistemində inteqrasiyası, emissiya mənbələrinin müəyyənləşdirilməsi, təmir işlərinin prioritetləşdirilməsi, rəqəmsal alətlərin tətbiqi və metan emissiyalarının azaldılması üzrə beynəlxalq əməkdaşlığın genişləndirilməsi məsələlərinə diqqət yetirilib.

SOCAR-ın vitse-prezidenti Əfqan İsayev metan emissiyalarının azaldılmasının digər dekarbonizasiya tədbirləri ilə müqayisədə daha asan maliyyələşdirilə bildiyini və tutulan qazın yenidən sistemə qaytarılaraq iqtisadi səmərə əldə etməyə imkan verdiyini bildirib.

SOCAR-ın Ətraf Mühit üzrə Hesabatlılıq və Yaşıl İşlər Departamentinin rəhbəri Mustafa Qurbanlı metan emissiyalarının ölçülməsi və hesabatlılığının təkmilləşdirilməsinin emissiyaların azaldılması üzrə effektiv fəaliyyətin əsas şərtlərindən biri olduğunu vurğulayıb.

Boston Consulting Group şirkətinin idarəedici direktoru və tərəfdaşı Anton Aristov metan emissiyalarının azaldılması üçün məlumatların düzgün təhlili və rəqəmsal həllərdən istifadənin operatorların daha səmərəli qərarlar qəbul etməsinə imkan verdiyini qeyd edib.

BP şirkətinin regional HSE&C meneceri Anar Mansurov metan emissiyalarının intensivliyinin sıfıra yaxın səviyyəyə endirilməsinin şirkətin "Net Sıfır" strategiyasının mühüm istiqamətlərindən biri olduğunu bildirib.

Asiya İnkişaf Bankının enerji üzrə mütəxəssisi Tron Svanes metan emissiyalarının azaldılmasında əsas məsələnin zəruri stimulların, monitorinq, hesabatlılıq və verifikasiya sistemlərinin, eləcə də maliyyələşdirmə mexanizmlərinin yaradılması olduğunu deyib.

"GHGSat" şirkətinin region üzrə hesab direktoru Lola Odunsi isə peyk, dron, təyyarə və yerüstü ölçmələrdən əldə olunan məlumatların vahid platformada inteqrasiyasının emissiya mənbələrinin daha operativ müəyyənləşdirilməsinə şərait yaradacağını diqqətə çatdırıb.

"Baker Hughes" şirkətinin Satış və Həllərin Arxitekturası üzrə direktoru Franko Luçerini emissiyaların xarakterinin müəyyənləşdirilməsi, monitorinqi və konkret obyekt üçün ən səmərəli texnologiyanın seçilməsinin vacibliyini vurğulayıb.

Sessiyada metan emissiyalarının aşkarlanmasından onların aradan qaldırılmasına və sonrakı verifikasiyasına qədər prosesin daha səmərəli qurulması, rəqəmsal texnologiyaların tətbiqi və məlumat mübadiləsinin genişləndirilməsi barədə fikir mübadiləsi aparılıb.

# Xəzərdə ölkəmizin keşiyində

## Azərbaycan Hərbi Dəniz Qüvvələri - tarixi ənənələr, müasir texnika, peşəkar şəxsi heyət və Zəfər yolu

**Xəzər dənizinin Azərbaycan sahilləri ölkəmizin milli təhlükəsizliyi, iqtisadi və enerji infrastrukturu baxımından mühüm strateji əhəmiyyət daşıyır. Bu geniş akvatoriyada dövlət sərhədlərinin, enerji obyektlərinin, neft-qaz hasilatı rayonlarının və ixrac boru kəmərlərinin təhlükəsizliyinin təmin olunması güclü və peşəkar Hərbi Dəniz Qüvvələrinin mövcudluğunu zəruri edir.**

Bu gün Azərbaycan Hərbi Dəniz Qüvvələri Silahlı Qüvvələrimizin mühüm tərkib hissələrindən biri kimi üzərinə düşən vəzifələri yüksək peşəkarlıqla yerinə yetirir. Onun gücü yalnız gəmi və katerlər, silah sistemləri və texniki imkanlarla ölçülmür, bu gücün arxasında hərbi dənizçilərin peşəkarlığı, sayıqlığı, döyüş hazırlığı, intizamı və Vətənə sədaqəti dayanır.

Ölkəmizin milli hərbi-dənizçilik tarixinin mühüm mərhələsi Azərbaycan Xalq Cümhuriyyəti dövrünə təsadüf edir. 1919-cu ildə formalaşmağa başlayan Azərbaycan Hərbi Donanmasının tərkibində "Ərdahan" və "Kars" kanoner gəmiləri, "Astrabad", "Göytəpə", "Araz", "Nargen" xidməti və köməkçi gəmiləri, "Oryol" nəqliyyat gəmisi, silahlı "Puşkin" paroxodu və katerlər var idi. Həmin dövrdə donanmanın maddi-texniki imkanlarının artırılması və milli kadrların hazırlanması istiqamətində də mühüm addımlar atılırdı.



1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutu milli hərbi-dəniz quruculuğunun bu mərhələsini yarımçıq qoydu. Sonrakı 70 ildə Azərbaycanın ərazisindəki dəniz hərbi infrastrukturu sovet hərbi sisteminin tərkibində fəaliyyət göstərdi. Müstəqilliyimizin bərpası ilə Azərbaycan Hərbi Dəniz Qüvvələrinin tarixində də yeni mərhələ başladı. 9 oktyabr 1991-ci ildə qəbul edilmiş qanunla HDQ-nin Silahlı Qüvvələrin tərkibində yaradılmasının hüquqi əsası müəyyənləşdirildi. 26 iyul 1992-ci ildə "Bakılı" gözətçi gəmisində müstəqil Azərbaycanın Dövlət bayrağının qaldırılması isə milli hərbi-dəniz qüvvələrinin yeni tarixinin rəmzi hadisələrindən birinə çevrildi.

Hərbi Dəniz Qüvvələrinin qüdrətini yalnız gəmilərin texniki göstəriciləri ilə müəyyənləşdirmək olmaz. Müasir gəmini idarə edən, onun silah və avadanlıqlarından səmərəli istifadə edən, mürəkkəb şəraitdə düzgün qərar qəbul edən məhz insandır. Dənizçi hərbçinin xidməti xüsusi məsuliyyət tələb edir. Gəminin komandiri, naviqatoru, mexaniki, rabitəçisi, mühəndisi və digər heyət üzvləri vahid mexanizm kimi fəaliyyət göstərməlidirlər. Burada saniyələrin belə əhəmiyyəti var. Bir şəxsin öz vəzifəsinə məsuliyyətsiz yanaşması bütöv ekipajın fəaliyyətinə təsir göstərə bilər. HDQ-də şəxsi heyətin peşəkarlığının artırılması, döyüş uzlaşmasının möhkəmləndirilməsi və müxtəlif şəraitlərdə fəaliyyət qabiliyyətinin yüksəldilməsi daim diqqət mərkəzindədir.

Bu gün Hərbi Dəniz Qüvvələrinin arsenalında müxtəlif təyinatlı döyüş və xidmət gəmiləri, gözətçi və patrul katerləri, təminat, axtarış-xilasetmə və hidroqrafiya vasitələri mövcuddur. Donanmanın gəmiləri Xəzərin Azərbaycan sektorunda enerji infrastrukturu və ixrac boru kəmərlərinin mühafizəsi, mülki gəmiçiliyin təhlükəsizliyi, üzmə rejiminə nəzarət və digər mühüm tapşırıqları yerinə yetirir. Axtarış-xilasetmə gəmiləri fövqəladə vəziyyətlərdə insanların və obyektlərin xilas edilməsinə, təminat gəmiləri dənizdəki bölmələrin fasiləsiz fəaliyyətinə xidmət edir. Hidroqrafiya gəmiləri və katerləri isə naviqasiya və hidroqrafik işlərin, hidrometeoroloji müşahidələrin, batimetrik və digər xüsusi tapşırıqların yerinə yetirilməsində mühüm rol oynayır. Beləliklə, müasir Azərbaycan donanması yalnız döyüş aparmaq üçün deyil, həm də Xəzərdə təhlükəsizliyin və sabitliyin təmin edilməsində çoxşaxəli fəaliyyət göstərən kompleks hərbi struktur kimi formalaşıb.

Azərbaycan Hərbi Dəniz Qüvvələrinin tarixində ən parlaq səhifələrdən biri 44 günlük Vətən müharibəsidir. 2020-ci il sentyabrın 27-də başlayan əks-hücum əməliyyatlarında Hərbi Dəniz Qüvvələrinin Xüsusi Təyinatlıları quruda döyüş tapşırıqlarının icrasına cəlb olundular. Onlar dənizdən uzaqda - Azərbaycanın dağlıq və mürəkkəb relyefə malik ərazilərində böyük döyüş yolu keçdilər. HDQ-nin Xüsusi Təyinatlıları Zəngilan, Cəbrayıl, Füzuli və Qubadlı rayonlarının, həmçinin Şuşa şəhərinin azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak etdilər. Onların döyüşlərdə göstərdikləri fədakarlıq, əzmkarlıq və qəhrəmanlıq Hərbi Dəniz Qüvvələrinin şəxsi heyətinin yüksək döyüş hazırlığının bariz nümunəsinə çevrildi.

Bu, çox mühüm tarixi həqiqətdir: Azərbaycan hərbi dənizçisi lazım gəldikdə Xəzərdə gəminin göyərtəsində deyil, Vətənin ən çətin relyefli döyüş meydanında da silahdaşlarının yanında oldu. Qubadlının azad olunması ilə bağlı 25 oktyabr 2020-ci ildə Ali Baş Komandana videogörüntü ilə məruzə edən şəxsin də Hərbi Dəniz Qüvvələrinin Xüsusi Təyinatlılarının komandiri olması həmin qəhrəmanlıq salnaməsinin yaddaqalan səhifələrindəndir.

Müasir donanmanın gücü hər gün sınaqdan keçirilməlidir. Bunun ən mühüm vasitələrindən biri taktiki təlimlərdir. 2026-cı ilin iyununda keçirilmiş döyüş atışlı taktiki təlimdə Hərbi Dəniz Qüvvələri ilə yanaşı, Hərbi Hava Qüvvələri, Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi və Fövqəladə Hallar Nazirliyinin müvafiq bölmələri də iştirak etmişlər. Təlim zamanı şərti düşmənin məhv edilməsi, qüvvələrin idarə olunması, gəmilərin tək və taktiki qrup tərkibində döyüş tapşırıqlarına hazırlığı və digər qoşun növləri ilə qarşılıqlı fəaliyyət sınaqdan keçirilmişdir. Belə təlimlər şəxsi heyətin yalnız nəzəri biliklərini deyil, ən mürəkkəb və gözlənilməz vəziyyətlərdə çevik qərar qəbul etmək bacarığını da möhkəmləndirir.

Dənizdə xidmət xüsusi sayıqlıq tələb edir. Burada hava şəraiti, naviqasiya, texniki nasazlıq, yanğın, sualma və digər fövqəladə hallar nəzərə alınmalıdır. Buna görə də şəxsi heyət yanğınsöndürmə, suya qarşı mübarizə, dalğıc, axtarış-xilasetmə və xüsusi əməliyyat elementləri üzrə də hazırlıq keçir.

Azərbaycan HDQ-nin inkişafında maddi-texniki təminat mühüm yer tutur. Müasir rabitə, müşahidə və naviqasiya vasitələri, müxtəlif təyinatlı gəmilər və katerlər, silah sistemləri, texniki və logistika imkanları donanmanın döyüş qabiliyyətinin yüksəldilməsinə xidmət edir. Eyni zamanda donanmanın bazasının və infrastrukturunun yenilənməsi istiqamətində də işlər görülür. Yeni bazada müasir qərargah, körpülər, hərbi şəhərcik, yaşayış və sosial-məişət infrastrukturu yaradılması nəzərdə tutulur. Perspektivdə yeni gəmilərin inşası və müxtəlif tipli gəmi və katerlərin modernləşdirilməsi də planlaşdırılır. Bu, onu göstərir ki, hərbi-dəniz quruculuğu yalnız yeni texnikanın alınmasından ibarət deyil. Buraya liman və bazalar, rabitə, logistika, texniki xidmət, kadr hazırlığı, təlim və sosial təminat kimi bir-birini tamamlayan çoxsaylı istiqamətlər daxildir.

Azərbaycan Hərbi Dəniz Qüvvələrinin inkişafı və şəxsi heyətin xidmət şəraiti dövlət rəhbərliyinin daim diqqət mərkəzindədir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Hərbi Dəniz Qüvvələrinə baş çəkməsi, burada şəxsi heyətlə görüşməsi, donanmanın maddi-texniki imkanları və hərbi qulluqçuların xidməti üçün yaradılmış şəraitlə tanış olması bu diqqətin mühüm göstəricilərindəndir. Dövlət başçısının səfəri zamanı Hərbi Dəniz Qüvvələrinin qarşısında duran vəzifələr, onların döyüş hazırlığı, müasir texnika və infrastruktur imkanları ilə bağlı məsələlərə xüsusi diqqət yetirilməsi Azərbaycan dövlətinin Xəzərdə milli təhlükəsizliyin təmin olunmasına verdiyi böyük əhəmiyyəti bir daha nümayiş etdirir. Bu diqqət və qayğı hərbi dənizçilərin mənəvi-psixoloji hazırlığına, xidmətə məsuliyyət hissinin və Vətən qarşısında borc duyğusunun daha da möhkəmlənməsinə mühüm təsir göstərir.

Bu gün Azərbaycan Hərbi Dəniz Qüvvələri qarşısında duran mühüm vəzifələri - ölkənin dəniz sərhədlərinin, enerji infrastrukturlarının və strateji obyektlərinin mühafizəsi, dənizdə əlverişli əməliyyat rejiminin saxlanılması və digər tapşırıqları yerinə yetirmək üçün inkişaf etdirilir. Müasir döyüş hazırlığı, texniki imkanlar və zəngin döyüş təcrübəsi bu qüvvələrin potensialını daha da artırır.

Azərbaycanın Hərbi Dəniz Qüvvələrinin keçdiyi yol bir əsrdən artıq tarixi təcrübənin, müstəqillik illərində aparılan məqsədyönlü ordu quruculuğunun və Vətən müharibəsində qazanılan döyüş təcrübəsinin vəhdətidir. Bu gün Xəzərin Azərbaycan sahillərində keşik çəkən hər bir hərbi dənizçi yaxşı bilir ki, onun məsuliyyəti yalnız gəmini idarə etməkdən ibarət deyil, o, həm də dövlət sərhədini, milli sərvətləri, enerji təhlükəsizliyini və Azərbaycanın suverenliyini qoruyur.

Güclü donanma - müasir texnika ilə peşəkar dəniz hərbçisinin, yüksək döyüş hazırlığı ilə sayıqlığın, intizamla Vətən sevgisinin vəhdətidir. Azərbaycan Hərbi Dəniz Qüvvələrinin gücü də məhz bu vəhdətdən doğur. Xəzərin keşiyində dalğalanan bayrağımız isə bu gücün ən böyük rəmzidir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# *BCAW2026:* "Qlobal enerji keçidi üçün elektrikləşmənin miqyasının genişləndirilməsi"

**"Bakı İqlim Fəaliyyəti Həftəsi 2026" (BCAW) çərçivəsində "Qlobal enerji keçidi üçün elektrikləşmənin miqyasının genişləndirilməsi" mövzusunda "dəyirmi masa" keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə qlobal enerji keçidinin sürətləndirilməsi, elektrikləşmənin genişləndirilməsi, bərpaolunan enerjidən istifadənin artırılması və enerji səmərəliliyinin yüksəldilməsi məsələləri müzakirə olunub.

Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi, COP29-un prezidenti **Muxtar Babayev** çıxışında elektrikləşmənin sürətləndirilməsinin enerji keçidinin əsas istiqamətlərindən biri olduğunu bildirib. Qeyd edib ki, dünya üzrə elektrikləşdirmə səviyyəsinin 35 faizə çatdırılması təklif olunur. "Başa düşürük ki, bu, heç də asan proses deyil, ənənəvi enerji növlərindən tədricən yeni və alternativ enerji mənbələrinə keçidin təməlidir. Bu proses təkcə energetikaya aid deyil. Bu proses nəqliyyat və digər sahələrə də toxunacaq", - deyə M.Babayev əlavə edib.

COP30-un icraçı direktoru **Ana Toni** elektrikləşmə üzrə qlobal hədəflərə nail olmaq üçün özəl və maliyyə sektorlarının prosesə fəal cəlb edilməsinin vacibliyini vurğulayıb. O, Braziliyada elektrik enerjisi istehsalının təxminən 90 faizinin hidroenerji, Günəş və külək enerjisi də daxil olmaqla bərpaolunan mənbələr hesabına təmin edildiyini bildirib. "Bütün enerji sektorunun təxminən 50 faizi artıq bərpaolunan enerjiyə əsaslanır. Biz çox yaxşı başlanğıc mövqeyindəyik", - deyə A.Toni bildirib. O, Braziliyada elektrikləşmə səviyyəsinin təxminən 22 faiz olduğunu bildirib və qarşıya qoyulan hədəflərə çatmağı böyük əraziyə malik ölkə üçün ciddi çağırış adlandırıb.

Türkiyənin Ətraf Mühit, Şəhərsalma və İqlim Dəyişikliyi nazirinin müavini, COP31-in icraçı direktoru **Fatma Varank** qlobal enerji keçidi çərçivəsində müəyyənləşdirilən hədəflərin ölkələrin milli qanunvericiliyinə və siyasətlərini sürətləndirməsinə təkan verdiyini bildirib. "COP29-da Azərbaycanın sədrliyi dövründə irəli sürülən təşəbbüslər böyük maraq gördü və bu istiqamətdə işlər davam etdirildi. İndi isə COP31 çərçivəsində əsas mövzulardan biri elektrifikasiya olacaq. 2035-ci ilədək qlobal elektrifikasiya səviyyəsinin 35 faizə çatdırılması hədəflənir", - deyə F.Varank bildirib.

Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) baş direktoru **Françesko La Kamera** enerji təhlükəsizliyinin hazırda yenidən qlobal prioritetlərin önündə olduğunu bildirib. Qeyd edib ki, nəqliyyat, tikinti və sənaye kimi əsas sektorların bərpaolunan elektrik enerjisinin artan payı hesabına elektrikləşdirilməsi ölkələrə idxal olunan yanacaqlardan asılılığı azaltmağa, enerji səmərəliliyini artırmağa, enerji xərclərini sabitləşdirməyə və enerji sistemlərinin dayanıqlığını gücləndirməyə imkan verə bilər. "Məhz buna görə də IRENA hesab edir ki, qarşıdakı onillik elektrifikasiya onilliyi olmalı, daha təmiz, daha təhlükəsiz və dayanıqlı enerji sisteminə keçidi sürətləndirməlidir", - deyə F.La Kamera bildirib.

SOCAR-ın vitse-prezidenti **Əfqan İsayev** Azərbaycanda həyata keçirilən konkret layihələrin də elektrikləşmə prosesinə töhfə verdiyini bildirib. Qeyd edib ki, Cəbrayıl rayonunda "Lightsource bp" tərəfindən 240 meqavat gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyasının tikintisi aparılır və layihənin 2027-ci ildə başa çatdırılması planlaşdırılır. Ə.İsayevin sözlərinə görə, layihənin həyata keçirilməsi Səngəçal neft-qaz terminalının elektrikləşdirilməsinə imkan verəcək. "Bu layihənin mühüm tərəfi ondan ibarətdir ki, Azərbaycanda ilk dəfə olaraq virtual enerji ötürülməsi mexanizmindən istifadə edirik. Ümidvarıq ki, gələn il elektrik enerjisini neft-qaz terminalına çatdıraraq onun tam elektrikləşdirilməsini təmin edəcəyik", - deyə SOCAR-ın vitse-prezidenti bildirib.

COP31-in Avstraliyadan olan nümayəndəsi **David Higgins** isə elektrikləşmə üzrə qlobal hədəflərə nail olmaq üçün siyasi liderliyin vacibliyini vurğulayıb. "Sizin qeyd etdiyiniz bütün elementləri və Françeskonun diqqətə çatdırdığı bütün imkanları əhatə etməliyik. Lakin bunların heç biri siyasi liderlik olmadan mümkün deyil. Məhz buna görə bu cür müzakirələr çox vacibdir", - deyə D.Higgins bildirib. Qeyd edib ki, 2035-ci ilədək qlobal yekun enerji istehlakında 35 faizlik göstəriciyə nail olmaq daha uzunmüddətli hədəfə gedən yolda yalnız bir mərhələdir.

Azərbaycan energetika nazirinin müavini **Elnur Soltanov** isə Azərbaycanın həm Avropa, həm də qlobal miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş olduğunu bildirib. O deyib ki, 2027-ci ilin sonunadək ölkənin quraşdırılmış generasiya güclərinin ümumi strukturunda bərpaolunan enerji mənbələrinin payının 34 faizə çatdırılması nəzərdə tutulur. "Hazırda bu göstərici 21 faiz səviyyəsindədir. Bu il bərpaolunan mənbələrdən enerji istehsalının həcmi ötən ilin göstəricilərinə nisbətən təxminən iki dəfə artacaq. Azərbaycanda artıq regionun ən böyük Günəş və külək-elektrik stansiyaları fəaliyyət göstərir. Nisbətən kiçik ərazisinə və iqtisadiyyatının miqyasına baxmayaraq, Azərbaycan yaşıl keçid sahəsində regional lider mövqeyini qoruyur", - deyə E.Soltanov bildirib.

"Dəyirmi masa" müzakirələrlə davam edib.

# *BCAW2026:* İqlim maliyyəsinin səfərbər edilməsində karbon bazarlarının rolu artır

**"Bakı İqlim Fəaliyyəti Həftəsi 2026" (BCAW2026) çərçivəsində "Karbon bazarı müzakirəsi: Karbon bazarları vasitəsilə iqlim maliyyələşməsinin hərəkətə keçirilməsi" adlı panel sessiya təşkil edilib.**



AZƏRTAC xəbər verir ki, Bakı Fond Birjasının baş iqtisadçısı Emin Əliyevin moderatorluğu ilə keçirilən panel sessiyada karbon bazarlarının inkişaf perspektivləri, karbon kreditlərinin keyfiyyəti və etibarlılığı, iqlim maliyyəsinin səfərbər edilməsində karbon bazarlarının rolu, həmçinin Azərbaycanda bu sahədə zəruri infrastrukturun formalaşdırılması məsələləri müzakirə olunub.

Azərbaycan Mərkəzi Bankının Maliyyə Sektorunun Davamlı İnkişafı Departamentinin iqtisadçısı **Əli Əhmədzadə** yüksək dürüstlüyə malik karbon bazarlarının iqlim maliyyəsinin səfərbər edilməsində və qlobal iqlim fəaliyyətinin sürətləndirilməsindəki rolu barədə danışıb.

AZAL-ın ESG Məlumatlarının İdarə Edilməsi üzrə biznes tərəfdaşı **Məhəmməd Əliyev** bildirib ki, karbon artıq yalnız ekoloji məsələ deyil, həm də biznes və maliyyə qərarlarına təsir edən mühüm amilə çevrilib. O, Paris Sazişinin 6-cı maddəsi çərçivəsində beynəlxalq əməkdaşlığın əhəmiyyətinin artdığını vurğulayıb.

"Process Engineering" şirkətinin sahibi və direktoru **Elnur Mustafayev** karbon bazarlarının sənaye və istehsal sektorları üçün yaratdığı imkanlardan danışıb. O, müəssisələrin emissiyaların azaldılması üzrə fəaliyyətlərinin ölçüləbilən və şəffaf mexanizmlərlə qiymətləndirilməsinin, eləcə də karbon layihələrinin iqtisadi baxımdan səmərəli modellərlə dəstəklənməsinin vacibliyini diqqətə çatdırıb.

"Socar Green" şirkətinin İnvestisiyalar və layihələrin işlənilməsi üzrə direktoru **Rza Nağıyev** könüllü karbon bazarlarında karbon kreditlərinin qiyməti və keyfiyyətinin fərqləndiyini bildirib. Onun sözlərinə görə, bazar iştirakçıları aldıqları karbon kreditlərinin real ekoloji fayda yaratmasına və yüksəkkeyfiyyətli olmasına daha çox diqqət yetirirlər.

"Unibank"ın Dayanıqlılıq üzrə meneceri **Səmra Talışinskaya-Abbasova** qeyd edib ki, maliyyə sektoru yaşıl keçidin maliyyələşdirilməsində və iqlim məqsədlərinə çatmaq üçün investisiyaların səfərbər edilməsində mühüm rol oynayır.

Bakı Fond Birjasının nümayəndəsi **Aygün Həsənova** karbon bazarlarının maliyyə bazarları ilə inteqrasiyası, karbon kreditlərinin maliyyə aləti kimi inkişaf etdirilməsi və bu sahədə şəffaflığın təmin olunmasının əhəmiyyətindən danışıb.

Sessiyada yüksək dürüstlüyə malik karbon bazarlarının iqlim maliyyəsinin səfərbər edilməsində və qlobal iqlim fəaliyyətinin sürətləndirilməsindəki rolu barədə geniş fikir mübadiləsi aparılıb.

Panel sessiya müzakirələrlə davam edib.

# "Bakı İqlim Fəaliyyəti Həftəsi 2026"da sərhədlərarası bərpaolunan enerji sertifikatları müzakirə edilib

**"Bakı İqlim Fəaliyyəti Həftəsi 2026" çərçivəsində günün sonuncu panel sessiyası keçirilib.**



AZƏRTAC xəbər verir ki, "Sərhədlərarası Bərpaolunan Enerji Sertifikatları Sistemi regional inteqrasiya üçün" mövzusunda təşkil olunan sessiyada çıxış edən energetika nazirinin müavini Orxan Zeynalov Azərbaycanın transsərhəd bərpaolunan elektrik enerjisi ticarətinin inkişafı üçün milli sertifikatlaşdırma sistemlərinin uyğunlaşdırılmasını və qarşılıqlı tanınmasını təmin edən regional mexanizmin yaradılmasını təklif etdiyini bildirib.

O deyib ki, yaşıl enerji dəhlizlərinin inkişafı ilə yanaşı, elektrik enerjisinin bərpaolunan mənbələrdən əldə edildiyini təsdiqləyən etibarlı və şəffaf sertifikatlaşdırma sistemi də vacibdir.

"Yaşıl dəhlizlər fiziki bağlantıları yaradırsa, sertifikatlaşdırma sistemləri transsərhəd bərpaolunan elektrik enerjisinin səmərəli fəaliyyət göstərməsinə imkan verən etimadın əsasını formalaşdırır", - deyə nazir müavini qeyd edib.

Energetika Nazirliyi yanında Bərpaolunan Enerji Mənbələri Dövlət Agentliyinin direktor müavini Rəna Hümbətova bərpaolunan enerji üzrə xüsusi sertifikatlaşdırma sxeminin qurulması ilə bağlı qaydaların artıq Nazirlər Kabineti tərəfindən təsdiqləndiyini və hazırda milli reyestrin hazırlanması istiqamətində işlərin aparıldığını diqqətə çatdırıb.

"Mənşə Zəmanətlərinin milli səviyyədə verilməsinin və yerli reyestrlərin beynəlxalq standartlara inteqrasiyasının əsas hədəflərdən biri olduğunu vurğulayan Rəna Hümbətova burada ən kritik məsələnin təkrar hesablamanın qarşısını almaq olduğunu deyib: "Qaydalar elə tənzimlənməlidir ki, buraxılan hər bir sertifikat şəffaf şəkildə izlənilsin və yalnız bir dəfə ödənilərək ləğv edilsin".

Regionumuzun hazırda qlobal yaşıl enerji qovşağına çevrildiyini vurğulayan "Deloitte & Touche" MMC-nin iqlim dəyişikliyi və dayanıqlılıq üzrə meneceri Cavahir Cəfərli deyib: "Beynəlxalq Enerji Agentliyinin hesabatlarına görə, inkişaf etməkdə olan dəhlizlərdə və iqtisadiyyatlarda bərpaolunan enerji layihələrinə qoyulan investisiyalar qlobal göstəricilərdən 2-3 dəfə sürətlə artmalıdır. Biz investorlar və dövlət qurumları ilə birgə dialoq platformalarında yer almaqdan, dövlətlərin dayanıqlı inkişaf ehtiyacları ilə özəl kapitalın maraqları arasında uzlaşma yaratmaqdan məmnunluq duyuruq".

Panel sessiyada çıxış edən Dünya Bankının Enerji Sektorunun İdarə Olunmasına Yardım Proqramının baş enerji iqtisadçısı Kler Marion Nikolas, Avstraliya Hökumətinin İqlim Dəyişikliyi, Enerji, Ətraf Mühit və Su Departamentinin fəaliyyət gündəliyi ilə iş üzrə direktoru Sebastyan Solter, "PwC" şirkətinin tərəfdaşı Şihab Əl-Borai regional yaşıl enerji dəhlizlərinin uğurlu fəaliyyəti və bərpaolunan enerji sektoruna beynəlxalq kapitalın cəlb edilməsi mexanizmləri barədə danışıblar. Onlar həmçinin dövlətlərin iqlim hədəfləri ilə özəl investorların risk idarəetmə tələblərinin uzlaşdırılmasının vacibliyini diqqətə çatdırıblar.

# Praqmatik və çoxşaxəli diplomatiya

## Prezident İlham Əliyevin xarici ölkələrə hər bir səfəri Azərbaycanın yüksək beynəlxalq nüfuzundan xəbər verir



**Azərbaycanın beynəlxalq mövqeyi hər keçən gün daha da möhkəmlənir, qlobal proseslərdəki rolu və nüfuzu artır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən xarici siyasət kursu və çoxşaxəli diplomatiya sayəsində respublikamız regionun lider dövləti olmaqla yanaşı, həm də qlobal miqyasda söz sahibi olan, etibarlı tərəfdaş kimi qəbul edilir.**

Dövlətimizin başçısının fərqli xarici ölkələrə intensiv səfərlər həyata keçirməsi Azərbaycan diplomatiyasının dinamikliyini, geniş coğrafiyanı əhatə etməsini və müxtəlif güc mərkəzləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlığa malik olduğunu aydın şəkildə nümayiş etdirir. Cari ilin yanvar ayından keçən dövr ərzində Prezident İlham Əliyev 10 xarici ölkəyə ümumilikdə 12 səfər edib. Bu statistik göstərici özlüyündə diplomatiyamızın nə qədər məhsuldar və çevik olmasının sübutudur. Dövlətimizin başçısı 8-9 ay ərzində İsveçrə, Birləşmiş Ərəb Əmirlikləri, Almaniya, Serbiya, Amerika Birləşmiş Ştatları, Gürcüstan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistana dövlət, rəsmi və işgüzar səfərlər edib. Almaniya və Qırğızıstanda isə il ərzində iki dəfə səfərdə olub.

Fərqli regionları və siyasi-iqtisadi sistemləri əhatə edən bu mühüm səfərlər sıradan diplomatik təmaslar olmayıb, hər biri Azərbaycanın milli maraqlarının təmin edilməsinə, strateji tərəfdaşlıqların dərinləşdirilməsinə və qlobal müstəvidə yeni imkanların açılmasına xidmət edən mühüm tarixi hadisələrə çevrilib. Dövlətimizin başçısının Avropanın aparıcı dövlətlərinə və siyasi mərkəzlərinə səfərləri xüsusi çəkisi ilə seçilir. Fevralın 14-də və iyulun 21-də Avropa İttifaqının aparıcı dövləti olan Almaniyaya, eləcə də yanvarın 22-də neytrallığı ilə tanınan İsveçrəyə və fevralın 16-da Cənub-Şərqi Avropadakı strateji müttəfiqimiz Serbiyaya səfərlər Azərbaycanın Avropanın enerji təhlükəsizliyində, nəqliyyat-logistika zəncirində və təhlükəsizlik arxitekturasındakı əvəzsiz rolunu bir daha təsdiqləyib.

Cənubi Qafqazda formalaşan yeni reallıqların müəllifi olan Azərbaycan enerji xəritəsinin yenidən cızılmasında mühüm rol oynayır. Bu, həm də ölkəmizin Şərq-Qərb arasında etibarlı körpü rolunu oynayan əsas aktorlardan biri olmasının təsdiqidir. İsveçrə və Almaniyaya səfərlər zamanı keçirilən yüksəksəviyyəli görüşlər, nəhəng şirkətlərin rəhbərləri ilə aparılan müzakirələr ölkəmizə xarici investisiyaların cəlb olunması, "yaşıl enerji"yə keçid layihələrinin reallaşdırılması və qeyri-neft sektorunun inkişafı baxımından da müstəsna əhəmiyyət daşıyır. Serbiyaya səfər iki ölkə arasında mövcud strateji tərəfdaşlığın daha da möhkəmlənməsinə, Avropanın cənub-şərqində Azərbaycanın siyasi və iqtisadi mövqeyinin dərinləşməsinə xidmət edir. Səfərlər çərçivəsində imzalanan mühüm sənədlər, bəyannamələr və anlaşma memorandumları ikitərəfli əlaqələri keyfiyyətcə yeni zirvəyə qaldırıb. Eyni zamanda Avropanın aparıcı dövlətlərinin Azərbaycana verdiyi yüksək dəyəri və ölkəmizlə uzunmüddətli tərəfdaşlığa bəslədikləri inamı nümayiş etdirib.

Dövlətimizin başçısının fevralın 20-də Amerika Birləşmiş Ştatlarına səfəri də qlobal siyasi arenada Azərbaycanın nüfuzunun artmasının, Vaşinqtonla Bakı arasında strateji dialoqun və qarşılıqlı maraqlara söykənən münasibətlərin inkişafının göstəricisidir. Qlobal təhlükəsizlik, regional sabitlik, enerji dəhlizlərinin təhlükəsizliyi və beynəlxalq nəqliyyat yollarının fəaliyyəti kimi strateji məsələlərin müzakirə olunduğu bu təmaslar Azərbaycanın beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş olduğunun təzahürüdür.

Həmçinin Birləşmiş Ərəb Əmirliklərinə edilən səfər Yaxın Şərq regionunun aparıcı dövlətləri ilə iqtisadi, ticarət və bərpaolunan enerji sahəsindəki əməkdaşlığı yeni pilləyə daşıyıb. Ərəb dünyasının nəhəng investisiya fondlarının Azərbaycandakı layihələrə cəlb olunması, xüsusən Qarabağ və Şərqi Zəngəzurun bərpası prosesində atılan birgə addımlar bu səfərin konkret və əməli nəticələridir.

Azərbaycanın xarici siyasətində qonşuluq münasibətləri və qardaş ölkələrlə strateji müttəfiqlik hər zaman prioritet təşkil edir. Bu xüsusda Mərkəzi Asiya dövlətləri - Qazaxıstan, Qırğızıstan və Özbəkistana həyata keçirilən səfərlər xüsusi əhəmiyyət kəsb edir. Həmin ölkələrin dövlət başçılarının xüsusi dəvəti ilə baş tutan bu səfərlər Mərkəzi Asiya liderlərinin Azərbaycan Prezidentinin şəxsi nüfuzuna, siyasi müdrikliyinə dərin hörmətinin, eləcə də ölkəmizin regiondakı həlledici roluna verilən yüksək dəyərin təcəssümüdür. Mərkəzi Asiya ölkələrinə səfərlərin müstəsna əhəmiyyəti həm də onunla şərtlənir ki, Azərbaycan bu regionu Avropa bazarları ilə birləşdirən strateji körpü, türk dünyasının inteqrasiyasının əsas mərkəzidir.

Türk Dövlətləri Təşkilatı çərçivəsində həmrəyliyi sürətləndirən bu təmaslar eyni zamanda Orta dəhlizin imkanlarının genişləndirilməsi, birgə sərmayə fondlarının yaradılması, sənaye kooperasiyası və energetika sahəsində nəhəng layihələrin icrası baxımından da tarixi dönüş nöqtəsidir. Qardaş Türkiyə ilə sarsılmaz müttəfiqlik münasibətləri və Gürcüstanla regional kommunikasiyaların inkişafı istiqamətində atılan addımlar da bu geostrateji xəttin tərkib hissəsidir. Dövlətimizin başçısının il ərzində Qırğızıstana iki dəfə səfər etməsi Mərkəzi Asiya istiqamətində diplomatik aktivliyin nə qədər yüksək dinamikaya malik olduğunu aydın göstərir.

Prezident İlham Əliyev xarici ölkələrdə keçirdiyi rəsmi görüşlərdə, qatıldığı mötəbər sammitlərdə və mətbuat konfranslarında hər zaman prinsipial siyasi mesajlar verir. Dövlətimizin başçısı bütün platformalardan istifadə edərək bəşəriyyəti narahat edən qlobal problemlərin həlli yollarını göstərir, beynəlxalq hüququn aliliyini, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət olunmasının vacibliyini qətiyyətlə müdafiə edir. Cənubi Qafqazda davamlı sülhün və sabitliyin bərqərar olunması ilə bağlı Azərbaycan Prezidentinin səsləndirdiyi bəyanatlar, irəli sürdüyü konstruktiv təşəbbüslər beynəlxalq ictimaiyyət tərəfindən regionda sülhün əsas zəmanəti kimi qəbul edilir.

Azərbaycan Prezidentinin xarici ölkələrə intensiv səfərləri, o cümlədən, tərəfdaşlıq, enerji təhlükəsizliyi və nəqliyyat dəhlizlərinin inkişafı ilə bağlı verdiyi mesajlar göstərir ki, Azərbaycan geniş coğrafiyada sabitliyin, təhlükəsizliyin və tərəqqinin əsas təşəbbüskarı kimi çıxış edir. Yüksək tribunalardan səslənən qətiyyətli bəyanatlar dövlətimizin beynəlxalq nüfuzunu daha da artırır, Azərbaycanın qlobal siyasətin formalaşmasında oynadığı önəmli rolu dünyaya nümayiş etdirir. Məhz bu uğurlu diplomatiya nəticəsində əldə olunan tarixi nailiyyətlər ölkəmizin inkişafına, təhlükəsizliyinə və xalqımızın rifahına xidmət edir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

**Azərbaycanın xarici tərəfdaşlarından, ona dost ölkələrdən söhbət düşəndə istər-istəməz Mərkəzi Asiyanın həyatında özünəməxsus rol oynayan Tacikistan da yada düşür. Bu füsunkar diyar Pamir dağlarının əzəmətli qarlı zirvələrindən boylanan, qədim İpək yolunun nəfəsini bu gün də yaşadan təbiət və mədəniyyət möcüzəsidir. Burada mavi səmada əks olunan zümrüd dərələr, şirinliyindən bal süzülən ləziz meyvələr və əsrlərin yadigarı olan zəngin adət-ənənələr bir araya gəlir. Ölkənin hər bir guşəsində hiss olunan köklü tarix, qonaqpərvər və açıqürəkli insanların səmimi təbəssümü ilə elə qovuşur ki, bu torpağa qədəm qoyan hər kəs özünü evindəki kimi rahat hiss edir.**



# Azərbaycan-Tacikistan strateji əməkdaşlığı uğurlu gələcəyə hesablanıb

Əhalisi zəhmətkeş insanlardan ibarət olan Tacikistanda kənd təsərrüfatı ölkə iqtisadiyyatının və əhalinin məşğulluğunun əsas tərkib hissəsidir. Lakin bu sahə tez-tez dağlıq ərazilərin şıltaqlığı və iqlim dəyişikliyi kimi çətinliklərlə üzləşməli olur. Ölkənin kənd təsərrüfatında əsas yer tutan pambıq (xam pambıq lifi), müxtəlif növ meyvələr, tərəvəzlər (o cümlədən quru meyvələr və üzüm) və bitki yağları, pambıq emalına əsaslanan parça, ipək və müxtəlif geyim, trikotaj məmulatları digər ölkələrə ixrac olunur. Tacikistanın xarici bazarlara ixrac etdiyi əsas məhsullar ölkənin zəngin təbii ehtiyatları, dağ-mədən sənayesi və kənd təsərrüfatı potensialı üzərində qurulub. İxracın mühüm hissəsini qızıl, qiymətli metal filizləri və müxtəlif konsentratlar təşkil edir. İlkin (xam) alüminium ölkənin ənənəvi və əsas ixracat məhsullarından biridir. Bundan əlavə, qurğuşun, sink, mis və metalloid element olan antimon (Tacikistan antimon ixracında qlobal miqyasda aparıcı yerlərdən birini tutur) xaricə satılır.

Zəngin su ehtiyatları və hidroelektrik stansiyaları hesabına istehsal olunan elektrik enerjisi qonşu ölkələrə (məsələn, Əfqanıstan və digərləri) ixrac edilir. Tacikistan əsasən Çin, İsveçrə, Türkiyə, Qazaxıstan, Özbəkistan və Rusiya kimi ölkələrlə ticarət əlaqələri qurur. Bu ölkənin xarici ticarət dövriyyəsi son illərdə artım dinamikası nümayiş etdirir.

2025-ci ilin yekunlarına görə, Tacikistanın xarici ticarət dövriyyəsi 10,74 milyard dollar təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə təxminən 20,2 faiz çoxdur. Bu dövriyyənin təxminən 8,3 milyard dollarını idxal, 2,44 milyard dollarını isə ixrac əməliyyatları təşkil etmişdir. Cari ilin ilk yeddi ayının (yanvar-iyul) nəticələrinə görə isə ölkənin xarici ticarət dövriyyəsi daha da artaraq 7,94 milyard dollara çatıb.

Tacikistan iqtisadi, enerji, nəqliyyat və təhlükəsizlik sahələrində bir sıra mühüm regional və beynəlxalq layihələrin fəal iştirakçısıdır. CASA-1000 (Mərkəzi Asiya-Cənubi Asiya Elektrik Enerjisi Ticarəti Layihəsi) bu sahədə önəmli yer tutur. Bu, Tacikistanın bolluca su-elektrik ehtiyatlarından istifadə edərək yay aylarında yaranan artıq elektrik enerjisini Qırğızıstan ilə birlikdə Əfqanıstan və Pakistana ixrac etməsini nəzərdə tutan iri regional enerji layihəsidir. Tacikistan həmçinin region ölkələrinin enerji sistemlərinin inteqrasiyasına yönəlmiş təşəbbüslərdə fəal iştirak edir.

Tacikistan Orta dəhliz (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) marşrutu boyunca yükdaşımaların səmərəliliyini artırmaq, logistika mərkəzlərini gücləndirmək və xarici bazarlara çıxış imkanlarını genişləndirmək üçün təşəbbüslərdə iştirak edir. O, həmçinin Avropa İttifaqının dəstəklədiyi və Avropa ilə Asiyanı birləşdirən nəqliyyat dəhlizinin inkişafını hədəfləyən beynəlxalq proqramın (TRACECA (Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi) iştirakçısıdır. Hazırda Çinin irəli sürdüyü bu qlobal infrastruktur və investisiya layihəsi "Bir kəmər, bir yol" çərçivəsində Tacikistanda nəqliyyat, yol və logistika qovşaqlarının tikintisi həyata keçirilir.

Təqdirəlayiq haldır ki, Tacikistan qlobal miqyasda su ehtiyatları və iqlim dəyişikliyi ilə bağlı beynəlxalq onilliklər və platformaların (məsələn, "Dayanıqlı İnkişaf üçün Su" onilliyi) əsas təşəbbüskarlarından və fəal iştirakçılarından biridir. Göründüyü kimi, dost Tacikistan ölkənin daxili və xarici həyatında bir sıra genişmiqyaslı layihələrin həyata keçirilməsinə özünün sanballı töhfələrini verir.

Xalqlarımız arasındakı əlaqələrin tarixi Orta əsrlərə gedib çıxır. Böyük İpək yolu uzun əsrlər boyu ölkələri və xalqları birləşdirən bir kəmər olmuşdur. Hər iki ölkənin müstəqilliyə qovuşması qarşılıqlı münasibətlərdə keyfiyyətcə yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Tacikistan Azərbaycanın dövlət müstəqilliyini 1992-ci il mayın 29-da rəsmən tanımışdır. Elə həmin tarixdə də hər iki ölkə arasında diplomatik əlaqələr də qurulmuşdur. O vaxtdan etibarən Azərbaycan ilə Tacikistan arasında müxtəlif sahələrdə əməkdaşlığı tənzimləyən və onun hüquqi bazası rolunu oynayan ümumilikdə 88 sənəd imzalanmışdır.

2025-2026-cı illərdə Azərbaycan ilə Tacikistan arasında siyasi münasibətlər keyfiyyətcə yeni mərhələyə - strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. İki ölkə arasında formalaşan bu sıx əməkdaşlıq yalnız ikitərəfli müstəvidə deyil, həm də regional və beynəlxalq təşkilatlar çərçivəsində yüksəksəviyyəli qarşılıqlı etimadla seçilir.

İkitərəfli münasibətlərin sürətli dinamikasının arxasında hər iki ölkə liderinin - Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonun qətiyyətli siyasi iradəsi dayanır. Müntəzəm xarakter alan ali səviyyəli qarşılıqlı səfərlər, beynəlxalq tədbirlər çərçivəsində keçirilən görüşlər siyasi dialoqun intensivliyini təmin edir. Azərbaycan Prezidenti İlham Əliyev və Tacikistan Prezidenti Emoməli Rəhmon arasında keçirilən görüşlər (o cümlədən 2025-ci ilin oktyabrında Düşənbədə baş tutan yüksəksəviyyəli təmaslar və çoxtərəfli platformalar çərçivəsindəki görüşlər) iki ölkə arasında strateji tərəfdaşlıq əlaqələrinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasını təmin etmişdir.

2025-2026-cı illərdə Azərbaycan ilə Tacikistan arasında parlamentlərarası əlaqələr iki ölkə arasında mövcud olan strateji tərəfdaşlıq və dostluq münasibətləri ruhunda dinamik şəkildə inkişaf etmişdir. Bu dövr ərzində qanunvericilik orqanları ikitərəfli əməkdaşlığın dərinləşməsinə, həmçinin ümumi siyasi, iqtisadi və mədəni dialoqun möhkəmlənməsinə mühüm töhfələr vermişdir. Azərbaycan Milli Məclisi ilə Tacikistan Ali Məclisi arasında sıx təmaslar qorunub saxlanılmışdır. Hər iki ölkənin parlament sədrləri və deputatları müxtəlif beynəlxalq parlamentlərarası təşkilatlar çərçivəsində, eləcə də qarşılıqlı səfərlər zamanı fəal dialoq aparmışlar. 2025-ci ilin oktyabr ayında Tacikistan Ali Məclisinin nümayəndə heyətinin Azərbaycana səfəri baş tutmuş, bu çərçivədə Milli Məclisin Sədri Sahibə Qafarova ilə görüşlər keçirilmiş və Azərbaycan-Tacikistan əlaqələrinin uğurlu inkişafı yüksək qiymətləndirilmişdir. 2026-cı ilin iyul ayında tərəflər bir daha parlamentlərarası dialoqun ikitərəfli münasibətlərin genişlənməsindəki rolunu xüsusi vurğulamış, qanunverici orqanlar səviyyəsində təcrübə mübadiləsinin əhəmiyyətini qeyd etmişlər.

Hələ 2024-cü ildə imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamə parlamentlərin də fəaliyyətində hüquqi baza rolunu oynayır. Qanunvericilər bu sənəddən irəli gələn vəzifələrin həyata keçirilməsində, iki ölkə arasında imzalanmış digər ticarət, iqtisadi və nəqliyyat sazişlərinin parlament səviyyəsində dəstəklənməsində fəallıq göstərirlər. Azərbaycan və Tacikistan parlamentləri ikitərəfli münasibətlərin möhkəmlənməsində etibarlı körpü rolunu oynayaraq, beynəlxalq parlament təşkilatlarında da qarşılıqlı dəstək nümayiş etdirmişlər. Liderlər səviyyəsində əldə olunan razılaşmalar hökumətlərarası komissiyaların fəaliyyətini stimullaşdırır və müxtəlif sahələrdə praktiki addımların atılmasına yol açır.

Azərbaycan və Tacikistan BMT, İƏT, MDB və digər nüfuzlu beynəlxalq platformalarda bir-birinin ərazi bütövlüyünü və suverenliyini ardıcıl olaraq dəstəkləyirlər. Qlobal təhlükəsizlik, terrorizmə, ekstremizmə və transmilli cinayətkarlığa qarşı mübarizə məsələlərində hər iki ölkənin mövqeləri üst-üstə düşür. Orta Asiya və Cənubi Qafqaz regionları arasında körpü rolunu oynayan bu münasibətlər regional sabitliyə mühüm töhfə verir.

Siyasi münasibətlərdəki yüksək səviyyə iqtisadi müstəvidə də öz real nəticələrini verməkdədir. Prezidentlərin qarşılıqlı səfərləri zamanı ticarət dövriyyəsinin şaxələndirilməsi ilə bağlı verilən tapşırıqlar artıq əməli işlə reallaşmışdır. 2025-2026-cı illərdə tərəflər arasında ticarət dövriyyəsində və iqtisadi fəallıqda kəskin artım qeydə alınmış, ikitərəfli ticarətin həcmində yüksək dinamika təmin olunmuşdur. Belə ki, 2025-ci ildə iki ölkə arasında əmtəə dövriyyəsinin 84 faiz, strateji əhəmiyyətli tranzit daşımalarının həcminin isə 50 faizə yaxın artması, siyasi sabitliyin iqtisadiyyata müsbət təsirini nümayiş etdirir. İki ölkə arasında strateji əhəmiyyət daşıyan tranzit daşımaları 2026-cı ilin ilk 8 ayı ərzində isə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə daha 17 faiz artıb.

Azərbaycanın nəqliyyat-logistika imkanlarından (o cümlədən Orta dəhliz çərçivəsində) Tacikistanın istifadə etməsi ikitərəfli strateji tərəfdaşlığın geoiqtisadi əhəmiyyətini daha da artırır. Tacikistan Orta dəhlizi öz xarici iqtisadi və nəqliyyat siyasətinin əsas prioritetlərindən biri hesab edir. Ölkə bu marşrut çərçivəsində Azərbaycanın nəqliyyat-logistika infrastrukturu, o cümlədən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə əməkdaşlığı fəal şəkildə genişləndirir. Ölkələr Mərkəzi Asiya və Cənubi Qafqazı birləşdirən nəqliyyat-logistika qovşaqlarından səmərəli istifadəni genişləndiriblər.

Hazırda Azərbaycan və Tacikistan arasında nəqliyyat və tranzit sahəsində fəal ikitərəfli əməkdaşlıq mövcuddur və bu əlaqələr ildən-ilə daha da genişlənir. Tərəflər beynəlxalq avtomobil daşımaları üçün elektron icazələrin tətbiqi, məlumat mübadiləsi platformalarının qurulması, "bir pəncərə" mexanizmləri və yüklərin real vaxt rejimində izlənilməsi sistemləri istiqamətində addımlar atırlar.

Azərbaycan Tacikistana əsasən şəkər və şəkər məmulatları, yanacaq-energetika məhsulları (o cümlədən reaktiv mühərriklər üçün kerosin yanacağı), qənnadı məmulatları (şokolad və şokoladdan hazırlanan məhsullar), müxtəlif növ sənaye və ərzaq malları ixrac edir. Tacikistandan Azərbaycana ixrac edilən məhsullar isə bunlardır: pambıq ipliyi, kənd təsərrüfatı və qida məhsulları (məsələn, yerfındığı (araxis), qurudulmuş meyvələr, o cümlədən qurudulmuş ərik), quş yumurtası və digər ərzaq malları.

2025-2026-cı illərdə siyasi və iqtisadi tərəfdaşlığın yeni prioritetlərindən biri də rəqəmsallaşma və kosmik sahə olub. Mədəni və elmi əlaqələr, sadəcə, incəsənət ilə məhdudlaşmayaraq, rəqəmsal texnologiyalar və informasiya mübadiləsi müstəvisinə də daşınmışdır. Azərbaycanın "Azərkosmos" ASC tərəfindən Tacikistanın bir sıra qurumlarına və şirkətlərinə peyk xidmətlərinin göstərilməsi yüksəksəviyyəli dövlətlərarası etimadın, iki ölkənin elmi-texniki əməkdaşlığının, eləcə də ortaq intellektual mühitin formalaşmasının göstəricisidir. Azərbaycan və Tacikistan arasında mədəni-humanitar əlaqələr iki ölkə arasında mövcud olan strateji tərəfdaşlıq və dostluq münasibətləri ruhunda dinamik şəkildə inkişaf edir. Bu dövr ərzində xalqların bir-birinin mədəniyyətini, incəsənətini və tarixi irsini daha yaxından tanıması istiqamətində mühüm addımlar atılmışdır.

Siyasi münasibətlərin möhkəmlənməsində humanitar diplomatiya mühüm rol oynayır. Ötən illərdə Azərbaycanda Tacikistan Mədəniyyət Günlərinin, Tacikistanda isə Azərbaycan Mədəniyyət Günlərinin uğurla keçirilməsi təcrübəsi var. 2025-ci il 19-22 may tarixlərində Tacikistanda Azərbaycan Mədəniyyəti Günləri keçirilmişdir. Tədbirlər çərçivəsində Azərbaycanın zəngin musiqi, ədəbiyyat və incəsənət nümunələri tacik ictimaiyyətinə təqdim olunmuş, həmçinin hər iki ölkənin incəsənət xadimlərinin iştirakı ilə müxtəlif yaradıcılıq görüşləri və konsertlər təşkil edilmişdir.

Hər iki ölkənin ali təhsil müəssisələri və elm mərkəzləri arasında tələbə-müəllim mübadiləsinin genişləndirilməsi, eləcə də ortaq tarixi şəxsiyyətlərin irsinin öyrənilməsi istiqamətində elmi konfranslar keçirilmişdir. 2024/2025-ci tədris ilində Azərbaycanın ali təhsil müəssisələrində Tacikistandan olan 70 tələbə təhsil alıb. Bu tədris ilindən etibarən Hökumətlərarası Təqaüd Proqramı çərçivəsində ilk dəfə olaraq 2 nəfər azərbaycanlı tələbə Tacikistanda ali təhsil almağa başlayıb.

Azərbaycan və Tacikistan yazıçı və şairlərinin əsərlərinin qarşılıqlı olaraq ana dillərinə tərcümə edilməsi, klassik ədəbiyyatın təbliği istiqamətində ortaq layihələr diqqət mərkəzində olmuşdur. Həmçinin Bakıda və Düşənbədə iki ölkənin müstəqillik və tarixi günlərinə həsr olunmuş müxtəlif sərgilər, kitab təqdimatları və rəsmi mədəniyyət gecələri təşkil edilmişdir.

Azərbaycan Hava Yolları (AZAL) tərəfindən Bakı ilə Düşənbə arasında həyata keçirilən birbaşa hava reyslərinin sayının artırılaraq həftədə 4 dəfəyə çatdırılması iki xalq arasındakı dostluq bağlarını daha da gücləndirir, ikitərəfli iqtisadi, turizm və işgüzar əlaqələrin inkişafına mühüm töhfə verir.

Ümumilikdə 2025-2026-cı illərdə Azərbaycan-Tacikistan siyasi münasibətləri qarşılıqlı hörmət, bərabərhüquqlu tərəfdaşlıq və ortaq maraqlar prinsipi əsasında sürətlə inkişaf edərək regionda ikitərəfli münasibətlərin nümunəvi modellərindən birinə çevrilmişdir. Hər iki ölkənin regionda və dünyada cərəyan edən hadisələrə və proseslərə eyni mövqedən yanaşması təcrübəsi yaranmışdır. Bütün bunlar bir daha belə bir qənaətə gəlməyə imkan verir ki, Azərbaycan və Tacikistanın iştirakçısı olduğu beynəlxalq iqtisadi və ekoloji layihələr uğurlu gələcəyə hesablanmış strategiyadır.

*Atamoğlan MƏMMƏDLİ,*
*BDU-nun dosenti*



# Sülh Azərbaycanın öz gücü ilə təmin olundu

## Bu reallığı ATƏT də etiraf etdi

**Azərbaycanın siyasi qətiyyəti nəticəsində Cənubi Qafqazda onilliklər boyu davam edən münaqişə artıq tarixə qovuşub. Regionun siyasi xəritəsi və iqtisadi mənzərəsi köklü şəkildə dəyişib, bölgədə yeni və rifaha xidmət edən gerçəkliklər yaranıb. Bu reallığı otuz ilə yaxın müddətdə problemi həll edə bilməyən beynəlxalq institutlar özləri də etiraf edirlər. Bu mənada sentyabrın 3-də Prezident İlham Əliyevin ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons Sanpietronu qəbul etməsi sıradan diplomatik görüş yox, həm də regionda tamamilə dəyişmiş reallığın beynəlxalq səviyyədə bir daha təsdiqlənməsi oldu.**

### ATƏT məkanındakı münaqişələrdən biri artıq geridə qalıb

Sözügedən görüş zamanı Pere Joan Pons Sanpietro ATƏT məkanında mövcud münaqişələrdən birinin həll olunduğunu və regionda davamlı sülhün təmin edildiyini vurğulayaraq dövlətimizin başçısını Azərbaycanla Ermənistan arasında sülh gündəliyində qazanılmış nailiyyətlər münasibətilə təbrik etdi.

Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev öz növbəsində yaranmış yeni reallıqla bağlı tarixi həqiqətləri bir daha xatırlatmağı vacib bildi.

Dövlətimizin başçısı 30 ilə yaxın müddətdə münaqişənin həllinə məsul olan ATƏT-in Minsk qrupu tərəfindən danışıqlar prosesində hər hansı bir nəticənin əldə edilmədiyini və BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrin yerinə yetirilmədiyini təəssüflə vurğuladı. Faktdır ki, Azərbaycan hər zaman münaqişənin məhz danışıqlar yolu ilə, beynəlxalq hüquq çərçivəsində həll olunmasının tərəfdarı kimi çıxış etmişdi. Lakin münaqişənin həlli missiyasını üzərinə götürən ATƏT-in Minsk qrupu vasitəçilik pərdəsi altında prosesi, sadəcə, Ermənistanın xeyrinə dondurmağa çalışdı. Beləliklə, BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 məlum qətnaməsi kağız üzərində saxlanıldı. Əgər vasitəçilər üç onilliyə yaxın böyük zaman dilimində öz öhdəliklərini yerinə yetirsəydilər, nə müharibəyə ehtiyac qalardı, nə də itkilər, qan-qada olardı. Beynəlxalq mexanizmlərin işləmədiyi yerdə Azərbaycan öz tarixi missiyasını həyata keçirdi. Ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. 2020-ci il Vətən müharibəsində qazanılan zəfər həm də beynəlxalq hüququ təmin etdi.

ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons Sanpietronu qəbul edən zaman Prezident İlham Əliyev də vurğuladı ki, Azərbaycan özü münaqişəyə hərbi-siyasi vasitələrlə son qoydu, ərazi bütövlüyünü və suverenliyini təmin etdi.

### Sülh prosesi artıq dönməz xarakter alıb

Bu gün ATƏT-in də etiraf etdiyi kimi, Cənubi Qafqazda münaqişə artıq yoxdur. Azərbaycanın hərbi zəfəri fəaliyyətsizliyi ilə yadda qalan ATƏT-in Minsk qrupunu de-fakto ləğv etmişdisə, 2025-ci ilin tarixi qərarları bu prosesi de-yure də tamamladı.

2025-ci il avqustun 8-də Vaşinqton Sammitində Azərbaycan və Ermənistan xarici işlər nazirləri ölkələrimiz arasında münaqişənin nəticələrinin aradan qaldırılması üçün vaxtilə yaradılmış ATƏT-in Minsk prosesi və əlaqədar strukturların bağlanması ilə əlaqədar birgə müraciəti imzaladılar. Həmin il dekabrın 1-də ATƏT rəsmi olaraq Minsk prosesini başa çatdırdı və onunla bağlı strukturları ləğv etdi.

Münaqişənin bitməsi ilə bölgədə tərəqqi və rifaha xidmət edən praktiki addımlar atılmağa başlanılıb. Ötən il keçirilən tarixi Vaşinqton Zirvəsindən və sülh müqaviləsinin mətninin paraflanmasından sonra Cənubi Qafqazda əməkdaşlıq dövrü başlayıb.

Cənubi Qafqazda gerçəkləşdirilən və onu qlobal maraq dairəsinə salan əsas layihələrdən biri də Vaşinqton Zirvəsində razılaşdırılmış Zəngəzur dəhlizidir (TRIPP).

Orta dəhlizin vacib tərkib hissəsi olan bu nəqliyyat dəhlizi Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirməklə yanaşı, bütün regionun logistik xəritəsini dəyişəcəkdir. Azərbaycan öz ərazisində bu marşrut üzrə demək olar ki, bütün dəmir yolu və avtomobil infrastrukturu işlərini yekunlaşdırıb. Ermənistan tərəfində də tikinti və mühəndislik işlərinin başlaması TRIPP-ın tezliklə reallaşmasını təmin edəcək. Bu dəhliz təkcə iki ölkəni deyil, Orta dəhliz vasitəsilə Şərqlə Qərbi, ABŞ və Avropa bazarlarını Mərkəzi Asiya ilə bağlayan qlobal iqtisadi körpüyə çevriləcək.

Azərbaycan Ermənistana qarşı tətbiq edilən bütün tranzit məhdudiyyətlərini aradan qaldırıb. İndi ölkəmizin ərazisindən tranzit keçməklə Ermənistana taxıl, gübrə daşınır. Hətta enerjiyə ehtiyacı olan bu ölkəyə birbaşa Azərbaycandan yanacaq - benzin və dizel göndərilir. Bu, Azərbaycanın timsalında qalib tərəfin bölgədə sabitlik və rifah yaratmaq niyyətinin ən humanist və əyani göstəricisidir.

Göründüyü kimi, Azərbaycanın qətiyyəti ilə Cənubi Qafqazda sülh prosesi artıq dönməz xarakter alıb. Təbii ki, tam və yekun sülh müqaviləsinin imzalanması üçün Ermənistan konstitusiyasının preambula hissəsində Azərbaycana qarşı olan ərazi iddiaları aradan qaldırılmalıdır. Vaşinqton Zirvəsində sülh müqaviləsinin imzalanmamasının səbəbi də bu hüquqi maneə idi.

İllər boyu "həllolunmaz" hesab edilən və beynəlxalq masalarda dondurulan bir münaqişənin Azərbaycan tərəfindən kökündən həll edilməsi qlobal siyasət üçün də mühüm bir dərs oldu. Bakı sübut etdi ki, beynəlxalq hüquq və ədalət, sadəcə, bəyanatlarda qalmamalı, lazım gəldikdə milli iradə və güc hesabına bərpa olunmalıdır.

İndi ATƏT və BMT də daxil olmaqla bütün beynəlxalq təşkilatlar bu tarixi zəfərin yaratdığı faktdan çıxış etmək məcburiyyətindədirlər.

Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tam təmin etməklə regiona çoxdan həsrətində olduğu sabitliyi gətirdi. Bu yeni tarixi mərhələdə Cənubi Qafqazın gələcəyi Bakının müəyyənləşdirdiyi sülh, ləyaqət və inkişaf xətti üzərində qurulur. Və bu sülh bütövlükdə Avrasiya məkanının sabitliyinə və rifahına xidmət edir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanın coğrafi şansı

## Prezident İlham ƏLİYEV: "Biz Orta dəhlizi regional iqtisadi artım və inteqrasiyanın güclü katalizatoru qismində görürük"

**Azərbaycan tarixində neft böyük sərvət kimi ölkənin taleyinə öz möhürünü vurub. Torpağımızın təkindən və Xəzərin dərinliklərindən çıxan "qara qızıl" ölkənin iqtisadi simasını dəyişib, Bakını dünyanın diqqət mərkəzinə gətirib. İndi isə Azərbaycanın qarşısında başqa bir imkan dayanır. Bu dəfə sərvət təkcə "qara qızıl" deyil, o həm də Azərbaycanın coğrafiyasındadır.**



Çindən başlayan yükün Mərkəzi Asiyanı keçərək Xəzərə, oradan Azərbaycan üzərindən Gürcüstan və Türkiyəyə, daha sonra Avropaya doğru hərəkəti yeni bir iqtisadi xəritə yaradır. Bu marşrutun adı Orta dəhlizdir. Amma Orta dəhlizə yalnız nəqliyyat marşrutu kimi baxmaq, əslində, onun potensialını kiçiltməkdir. Çünki məsələ yükün Azərbaycandan keçməsi yox, ölkəmizin bu yükün yaratdığı iqtisadi dəyərin hansı hissəsini özündə saxlamasıdır.

Bu potensialın real mənzərəsini görmək üçün xəritədə Xəzərin qərbindəki Ələtə doğru baxmaq kifayətdir. Ələtə doğru gedən yol bu gün əvvəlkindən fərqli mənzərə yaradır. Burada dənizlə dəmir yolu, avtomobil yolu ilə logistika, gömrüklə sənaye bir-birinə yaxınlaşır. Bakı Beynəlxalq Dəniz Limanı artıq Şərqlə Qərb arasındakı əlaqədə əsas qovşaqlardan birinə çevrilir.

Bu mənzərənin arxasında dayanan iqtisadi dinamikanı isə rəqəmlər daha aydın göstərir. Dövlət Statistika Komitəsinin açıqladığı rəsmi göstəricilər Azərbaycanın nəqliyyat dəhlizlərində artan rolunu real rəqəmlərlə ortaya qoyur. 2025-ci ildə Azərbaycanın nəqliyyat dəhlizlərində dəniz yolu ilə 7 milyon 229,7 min ton yük daşınıb. Daşımaların 93,3 faizinin tranzit yüklərdən ibarət olması isə rəqəmlərin arxasındakı mənzərəni daha aydın göstərir. Bu rəqəm, əslində, Azərbaycanın Orta dəhlizdəki rolunun mahiyyətini də göstərir. Yəni yük, sadəcə, ölkəmizə gəlmir, Azərbaycan üzərindən hərəkət edir. Xəzərin o tayından gələn yük burada yolunu dəyişir, dəmir yoluna, avtomobil magistrallarına və logistika şəbəkəsinə qoşularaq, Qərbə doğru irəliləyir. Beləliklə, Xəzər Azərbaycan üçün sərhəd xətti olmaqdan çox, Şərqlə Qərbi birləşdirən iqtisadi körpünün başlanğıc nöqtəsi kimi diqqət çəkir.

Qeyd edək ki, Orta dəhlizin gücü yalnız Xəzər dənizini keçməklə məhdudlaşmır. Əsas iş yükün Azərbaycan sahillərinə çatdıqdan sonra nə qədər sürətlə və fasiləsiz şəkildə yoluna davam etməsidir. Bu mərhələdə Xəzərin sahilində qəbul olunan yük relslər üzərinə çıxaraq Azərbaycanın dəmir yolu şəbəkəsi vasitəsilə Qərbə doğru hərəkətini davam etdirir. Relslər üzərində hərəkət edən yük qatarları, əslində, Azərbaycanın Orta dəhlizdəki rolunun canlı göstəricisidir. Bunu rəsmi rəqəmlər daha aydın göstərir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2026-cı ilin ilk yarısında Azərbaycanın nəqliyyat dəhlizlərində dəmir yolu, dəniz və avtomobil nəqliyyatı vasitəsilə ümumilikdə 16 milyon 651,8 min ton yük daşınıb. Yanvar-iyun aylarında dəmir yolu ilə 7 milyon 587,6 min ton, avtomobil nəqliyyatı ilə 5 milyon 699 min ton, dəniz yolu ilə isə 3 milyon 365,2 min ton yük daşınıb.

Ən böyük yük axını Şərq-Qərb istiqamətində qeydə alınıb. Bu dəhlizlə altı ayda 9 milyon 207,4 min ton yük daşınıb. Ötən ilin eyni dövrü ilə müqayisədə göstərici 10,9 faiz artıb. Şərq-Qərb dəhlizinin tərkibinə daxil olan Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi üzrə daşımalar 4 milyon 595 min tona çatıb. Bu, bir il əvvəllə müqayisədə 12,4 faiz çoxdur. Rəqəmlərə baxanda təbii ki, sadəcə, statistika görünür. Amma düşünək: Çindən çıxan məhsul minlərlə kilometr yol qət edir. Mərkəzi Asiyadan adlayaraq, gəmi ilə Azərbaycanın sahillərinə gəlir. Burada dəmir yoluna keçir və yenidən yoluna davam edir. Bu hərəkətin mərkəzində isə Azərbaycan dayanır. Sanki Avrasiyanın nəbzi Ələtdə vurur.

Sadalanan bu rəqəmlər Azərbaycanın Orta dəhliz üzərində artan hərəkətliliyini göstərir. Lakin məsələyə yalnız keçən yükün həcminə görə yanaşmaq doğru olmaz. Çünki böyük bir yük axınının üzərində yerləşmək hələ onun yaratdığı iqtisadi imkanlardan tam yararlanmaq anlamına gəlmir. Əsas məsələ bu marşrutun Azərbaycan iqtisadiyyatında hansı iz buraxması, ölkəyə nə qədər əlavə dəyər qazandırmasıdır. Məhz bu baxımdan elə buradaca vacib bir sual ortaya çıxır: Azərbaycan Orta dəhlizdən nə qazanacaq? Sadəcə, tranzit haqqımı? Əgər cavab yalnız budursa, biz imkanın kiçik hissəsini görürük. Halbuki əsl böyük imkan yükün Azərbaycanda dayanmasıdır.

Konteyner Ələtə daxil olandan dərhal sonra başqa ölkəyə gedirsə, Azərbaycan tranzit ölkəsidir. Yox, əgər burada anbara girir, çeşidlənir, qablaşdırılır, sığortalanır, gömrük xidmətlərindən keçir, emal olunur, istehsal prosesinə qoşulur və sonra başqa bazara göndərilirsə, Azərbaycan artıq başqa bir mərhələyə keçir. Bu zaman məsələ, sadəcə, tranzitlə tamamlanmır. Burada yolun özü iqtisadi fəaliyyətə çevrilir.

Birinci modeldə yük Azərbaycandan keçir. İkinci modeldə isə yük Azərbaycanda dəyər yaradır. Və Orta dəhlizin Azərbaycan üçün əsl strateji əhəmiyyəti də məhz bu ikinci mərhələdə başlayır: ölkəmiz Şərqlə Qərbi birləşdirən körpü kimi həmin marşrutun içində iqtisadi dəyər yaradan bir logistika və ticarət qovşağına çevrilə bilər. Bu fərq Azərbaycanın Orta dəhliz qarşısındakı hədəfini də müəyyənləşdirir: Azərbaycan üçün əsas məsələ bu yolun yaratdığı iqtisadi imkanların mərkəzində yer almaqdır. Məhz bu yanaşma dövlət siyasətində də öz əksini tapır.

Prezident İlham Əliyev ötən il sentyabrın 22-də Bakıda keçirilən VI Xəzər Biznes Forumunun iştirakçılarına müraciətində vurğulayıb: "Biz Orta dəhlizi regional iqtisadi artım və inteqrasiyanın güclü katalizatoru qismində görürük, onu infrastrukturun, sənayenin və biznesin inkişafını stimullaşdıran, bölgədə sabitliyə və çiçəklənməyə töhfə verən mühüm amil olaraq qəbul edirik".

Dövlət başçısının bu fikri, əslində, Orta dəhlizin Azərbaycan üçün nə ifadə etdiyini kifayət qədər aydın göstərir. Söhbət yalnız yüklərin bir ölkədən digərinə daşınmasından getmir. Məsələ bu daşınmaların infrastruktura, sənayeyə, biznesə və bütövlükdə iqtisadi artıma çevrilməsindədir.

Min illər əvvəl ticarət karvanları bu torpaqlardan keçirdi. İndi həmin dəvə karvanlarının yerini konteyner qatarları, yük gəmiləri və müasir logistika sistemləri tutub. Zaman dəyişib, amma yolun mahiyyəti dəyişməyib: ticarət üçün ən sürətli, ən etibarlı və ən səmərəli marşrut həmişə üstünlük qazanır. Bu gün şirkətlər üçün əsas suallar da bunlardır: yük nə qədər sürətlə çatacaq? Marşrut nə qədər etibarlıdır? Gömrük prosedurları nə qədər vaxt aparır?

Bəlkə də gələcəkdə insanlar bu dövrə baxanda deyəcəklər: "Azərbaycan bir vaxtlar neftini dünyaya daşıyırdı. Sonra dünyanın özünü Azərbaycandan keçirməyə başladı".

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Mənəvi borc və vətəndaş məsuliyyəti

## Tarixi abidələrə, müqəddəs məkanlara zərər vurmaq mədəniyyətsizlik və hörmətsizlikdir

**İctimai və şəxsi əmlaka, şəhər infrastrukturuna, təbiətə, bina və tikililərə, eləcə də mədəniyyət nümunələrinə məsuliyyətlə yanaşmaq hər bir şəxsin borcudur. Lakin təəssüf ki, bəzən bu dəyərlərə kölgə salan, ictimai əmlaka zərər vuran və ümumi estetikaya xələl gətirən xoşagəlməz hallarla rastlaşırıq. Statusundan və ya mövqeyindən asılı olmayaraq, hər kəs bu məsələdə eyni məsuliyyəti daşımalı, müəyyən edilmiş qaydalara və ümumi dəyərlərə hörmətlə yanaşmalıdır.**



Bir müddət əvvəl Şuşada bəzi ziyarətçilər tərəfindən tarixi qayaların və qədim daşların üzərinə sprey boyalarla adların yazılması cəmiyyətimizdə haqlı olaraq ciddi narazılıq və kəskin ictimai qınaq doğurur. Qayaların üzərinin yazılması, onlara zərər vurulması mədəniyyətsizlik və tariximizə hörmətsizlikdir. Şuşa Azərbaycan xalqının mədəniyyət paytaxtı, tarixi kimliyi və qeyrət rəmzidir. Oradakı hər bir daş, hər bir divar əsrlərin zəngin tarixini daşıyır.

Unutmaq olmaz ki, Vətən torpağını, onun ecazkar təbiətini və müqəddəs qayalarını boyalarla korlamaq, yazılarla zədələmək heç cür hörmət əlaməti sayıla bilməz. Qürur duyduğumuz qəhrəmanlarımız elə bu qayalar, bu torpaqlar korlanmasın, yad tapdağı altında qalmasın, öz təbii və əzəmətli gözəlliyini qorusun deyə canlarından keçiblər. Buna görə də tarixi və təbii irsimizə zərər vurmaq yolverilməzdir. Hər birimiz belə hallara qarşı həssas olmalı, təbiətimizi və tariximizi göz bəbəyimiz kimi qorumalıyıq.

Heç bir şəxsin statusundan, mövqeyindən və ya tanınmasından asılı olmayaraq, ictimai və ya şəxsi əmlaka zərər vurması qəbulolunan deyil. Bu məsələdə hər kəs eyni məsuliyyəti daşımalı və müəyyən edilmiş qaydalara hörmətlə yanaşmalıdır. Tarixi və memarlıq əhəmiyyətli binalara, abidələrə və digər mədəniyyət nümunələrinə münasibətdə isə bir qayda olaraq, xüsusi həssaslıq nümayiş etdirilməlidir. Demək olar ki, onların üzərində yazı yazılması, qraffiti çəkilməsi, hər hansı formada zədələnməsi və ya ilkin görünüşünə müdaxilə edilməsi tarixi-mədəni irsə xələl gətirir.

Belə hallara, sadəcə, konkret bir obyektə vurulan zərər kimi yanaşmaq düzgün deyil. Bu, eyni zamanda şəhər mədəniyyətinə, ictimai dəyərlərə və ümumi yaşayış mühitinə münasibətin göstəricisidir. Məsələn, bina, abidə və digər obyektlərə vurulan zərərin aradan qaldırılması əlavə resurs, vaxt və maliyyə tələb edir. Xüsusilə tarixi və mədəni əhəmiyyət daşıyan obyektlərdə qeyri-peşəkar müdaxilə əlavə zərərə səbəb ola bildiyindən onların qorunmasına daha həssas yanaşılmalıdır. Qeyd etmək lazımdır ki, ölkəmizdə qəhrəmanlarımızın xatirəsinə ucaldılmış abidə, park, xiyaban var. Onların əziz xatirəsinə hər hansı bir şəkildə ehtiyatsız yanaşmaq və ya xələl gətirmək qətiyyən yolverilməzdir.

Bəzən ictimai yerlərin, binaların və şəhər məkanlarının qraffiti və müxtəlif yazılarla örtülməsi Qərb şəhərlərindəki nümunələrlə əsaslandırılır. Lakin reallıqda bir sıra şəhərlərdə nəzarətsiz qraffitilərin yaratdığı estetik və vizual çirklənmə göstərir ki, bu təcrübə nümunə kimi qəbul edilə bilməz. Ümumiyyətlə, ölkəmizdə də zaman-zaman buna bənzər xoşagəlməz hallar yaşanıb, məsələn, bir müddət əvvəl Nizami kinoteatrının binasında və digər ictimai məkanlarda oxşar hallar törədilmişdi. Unutmamalıyıq ki, şəhər mühitinin qorunması, tarixi-mədəni irsə hörmət və ictimai əmlaka məsuliyyətli münasibət hər bir cəmiyyət üçün ali dəyər olmalıdır.

İctimai əmlaka zərərvurma infrastruktur və şəhər görünüşünə mənfi təsir göstərdiyindən buna qarşı qınaq və qanuni məsuliyyət tədbirləri tətbiq olunmalıdır. Bütün bu halların qarşısının alınması üçün hüquqi məsuliyyət mexanizmləri sərtləşdirilməli, həmçinin cəmiyyətdə maarifləndirmə işləri genişləndirilməlidir. Vətəndaş olaraq hər birimiz dərk etməliyik ki, ətrafımıza, abidələrimizə və şəhərimizə olan münasibət, əslində, daxili mədəniyyətimizin və mənəvi dəyərlərimizin təzahürüdür.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# "Azərenerji" Bakının artan enerji tələbatı üçün yeni güc mərkəzi inşa edir





**Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planının, genişlənməkdə olan "Sea Breeze" layihəsinin, eləcə də Bakı və Abşeron yarımadasının artan enerji tələbatının qarşılanması məqsədilə "Azərenerji" tərəfindən Pirşağı və Novxanı yaşayış məntəqələrinin sərhədində gərginliyi 220/110/10 kilovolt, ümumi ötürmə gücü 750 meqavolt amper olan yarımstansiya inşa edilir.**

5,8 hektar ərazidə tikilən yeni 220 kilovoltluq "Sea Breeze" yarımstansiyasında işlər sürətlə davam edir və layihənin böyük hissəsi artıq icra olunub. İlkin mərhələdə irihəcmli torpaqtökmə işləri aparılaraq ərazi qurudulub, nəticədə sahə tikinti meydançasına çevrilib. Yağıntı və qrunt sularının həm yarımstansiya ətrafında, həm də qəsəbə ərazisində yığılmasının qarşısını almaq üçün drenaj və kollektor sistemləri inşa edilib.

"Sea Breeze" yarımstansiyasının tikintisi ilə paralel olaraq onun enerjisistemə inteqrasiyası üçün müasir şəhərsalma konsepsiyasına uyğun olaraq ümumilikdə 17,5 km uzunluğunda 220 kV-luq yeraltı kabel xətləri çəkilir. Bakı şəhəri üçün xüsusi əhəmiyyət daşıyan bu strateji enerji obyektinin ilin sonunadək tamamlanması nəzərdə tutulur.

"Azərenerji"nin ictimaiyyətlə əlaqələr mərkəzinin rəisi Teymur Abdullayevin sözlərinə görə, 220 kV-luq yarımstansiyanın istismara verilməsi ilə Bakının 220 kV-luq dairəvi elektrik təchizatı sxemi daha da genişlənəcək. Bu isə enerji axınlarının daha səmərəli paylanmasına, qəza və ya təmir hallarında istehlakçıların fasiləsiz elektrik enerjisi ilə təmin olunmasına əlavə imkan yaradacaq.

Bununla yanaşı, yarımstansiyanın 110 kV-luq şəbəkələrlə inteqrasiyası mövcud yarımstansiyalar üzərindəki yükü azaltmaqla Bakı və Abşeron yarımadasında elektrik təchizatının dayanıqlığını daha da gücləndirəcək.

"Azərenerji" tərəfindən yaradılan yeni güc mərkəzi gələcək yaşayış, turizm və biznes layihələrinin enerji təminatı üçün əlavə imkanlar yaradaraq paytaxtın uzunmüddətli urbanizasiya və iqtisadi inkişaf hədəflərinə xidmət edəcək.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

Əziz Əliyev-130

# Bir ömrün böyük amalı

**Elə şəxsiyyətlər var ki, ömürləri təqvimlə ölçülmür, onlar yaşadıqları illərdən daha çox, cəmiyyətə bəxş etdikləri dəyərlərlə, verdikləri faydalarla əbədiyyət ömrü qazanır, zamanın hüdudlarını aşaraq tarixdə yaşayırlar. Azərbaycanın görkəmli elm və dövlət xadimi, səhiyyə təşkilatçısı, tibb elmləri doktoru, professor Əziz Məmmədkərim oğlu Əliyev də məhz belə şəxsiyyətlərdəndir. 2027-ci ilin yanvarında bu unudulmaz şəxsiyyətin anadan olmasının 130 ili tamamlanır. Onun xalqımız qarşısındakı xidmətlərini nəzərə alaraq 130 illik yubileyinin qeyd edilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncam imzalaması belə böyük şəxsiyyətlərimizin zəngin irsinə verilən yüksək qiymətin ifadəsidir.**

Əziz Əliyevin ömür yolu Azərbaycan tarixinin ən mürəkkəb, ağır, eyni zamanda böyük quruculuq enerjisi ilə səciyyələnən dövrlərindən keçib. O, müharibələri, köçkünlüyü, siyasi repressiyaları, ağır məhrumiyyətləri görüb. Lakin bütün bu sınaqlar yolunu dəyişməyib, hara gedibsə, özü ilə gələcəyə inamı, insanlara qayğını, qurub-yaratmaq əzmini aparıb. Onun həyatını bir cümlə ilə ifadə etmək lazım gəlsə, bunu bəlkə də belə demək olar: Əziz Əliyev bütün ömrünü insanlara və insanlığa xidmətə həsr etmişdi, o, bunu vəzifə yox, həyatın mənası bilirdi.

## Tale sınaqları

Əziz Əliyev 1897-ci il yanvarın 1-də qədim Azərbaycan torpağı olan İrəvan quberniyasının Hamamlı kəndində dünyaya göz açıb. İlk təhsilini doğma kəndində, daha sonra bibisi Göyçək xanımın ailəsi ilə birgə yaşadığı Çitada, ardınca İrəvan kişi gimnaziyasında alıb. 1917-ci ildə gimnaziyanı əla qiymətlərlə bitirib. Uşaqlıqdan həkim olmağı arzulayırdı. Bu gün bizə bəlkə də sadə görünən bu arzunun gerçəkləşməsi həmin dövr üçün o qədər də asan deyildi. Gimnaziyadan yenicə məzun olmuş gənc öz arzusu uğrunda mübarizə aparmalı idi. Bunun üçün o, zəmanəsinin böyük xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevdən maddi yardım istəyir və Tağıyevin dəstəyi ilə Sankt-Peterburqa gedərək həmin dövrdə dünyanın ən məşhur tibb təhsili mərkəzlərindən sayılan Hərbi Tibb Akademiyasına daxil olur. Beləcə, bir azərbaycanlı gəncin böyük elmə doğru səyahəti başlanır. Əziz Əliyev akademiyada səylə oxuyur, praktik tibbi bacarıqlara yiyələnməkdən ötrü həkim briqadalarının tərkibində də işirak edirdi. Təəssüflər olsun ki, həyat onun qarşısına gözlənilməz maneələr çıxardı. 1918-ci ildə tətil zamanı doğma yurda qayıdan Əziz Əliyev erməni daşnaklarının yerli əhaliyə qarşı törətdiyi faciələrdən sarsıldı. Onun ailəsi də bu ağrıları yaşamışdı. Didərginlik, məcburi köçkünlük, müharibə gənc tələbənin həyatını alt-üst edir. O, təhsilini yarımçıq qoyaraq ailəsi ilə birlikdə Naxçıvana, daha sonra Cənubi Azərbaycana köçməyə məcbur olur.

Həkimlik təhsili yarımçıq qalsa da, yenicə başlanmış həkimlik missiyası davam edirdi. Əziz Əliyev ilkin tibbi biliklərindən istifadə edərək orta tibb işçisi və əczaçı köməkçisi kimi çalışır, didərgin düşmüş soydaşlarına tibbi yardım göstərirdi. 1923-cü ildə ailəsi ilə birlikdə Bakıya köçən Əziz Əliyevin həyatında yeni mərhələ başlanır. O, əvvəlcə Xalq Komissarları Şurasında müxtəlif vəzifələrdə işləyərək təşkilatçılıq qabiliyyətini nümayiş etdirdi. Əsas arzusu isə bir an belə olsun dəyişməmişdi: ali tibb təhsilini başa vurmağa can atırdı. Elə bu arzu ilə də Əziz Əliyev yenidən imtahan verərək həmin vaxt yenicə açılmış Bakı Dövlət Universitetinin Tibb fakültəsinə daxil olur və 1927-ci ildə ali tibb təhsilini uğurla başa çatdırır.

## Mahir təşkilatçı

Əziz Əliyevin fenomenal bir şəxsiyyət kimi formalaşdığını görən Bakı Dövlət Universitetinin rəhbərliyi Tibb fakültəsini bitirdikdən sonra onun Daxili xəstəliklər kafedrasında saxlanılması haqqında qərar verir. 1928-1930-cu illərdə Xalq Səhiyyə Komissarlığında müalicə şöbəsinin müdiri və Klinik İnstitutun direktoru işləyir. 1929-cu ildə namizədlik dissertasiyasını müdafiə edir. 1929-cu ilin dekabrında Xalq Səhiyyə Komissarının müavini təyin edilir. 1932-1934-cü illərdə Tibb İnstitutunun rektoru, sonra isə Bakı şəhər səhiyyə şöbəsinin müdiri vəzifələrində işləyir. 1935-1936-cı illərdə yenidən Azərbaycan Dövlət Tibb İnstitutunun rektoru vəzifəsində çalışır. 1937-ci ilin yanvar-iyun aylarında eyni zamanda Azərbaycan Dövlət Universitetinin rektoru təyin olunur. 1939-su ildə doktorluq işini müdafiə edir. 1938-1939-cu illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi vəzifəsini yerinə yetirir.

Əziz Əliyevin fəaliyyətinin mühüm bir dövrü Azərbaycan Dövlət Tibb Universitetinə rəhbərlik etdiyi illərdir. Bakı Dövlət Universitetinin Tibb fakültəsi öz fəaliyyətini dayandırdıqdan sonra 1930-cu il may ayının 9-da bu fakültənin nəzdində Azərbaycan Dövlət Tibb İnstitutu yaradılır. Həmin ilin iyun ayının 19-da isə ADTİ-də ilk tələbə qəbulu aparılır. O zaman ADTİ-nin təşkili çox mürəkkəb bir proses olduğundan artıq mahir təşkilatçı kimi tanınan Əziz Əliyev də bu mühüm prosesin icrasına cəlb edilir. 1932-ci ildə isə Azərbaycan Tibb İnstitutunun direktoru vəzifəsi Əziz Əliyevə tapşırılır və o, 6 ilə yaxın bir müddətdə bu mühüm vəzifəni şərəflə yerinə yetirir. Bu vəzifədə onun qarşısında artıq başqa bir mənəvi öhdəlik - yalnız yaxşı həkim olmaq deyil, yaxşı həkimlərin yetişdiriləcəyi sistemi qurmaq vəzifəsi də vardı.

Bakı Dövlət Universitetinin 1919-1930-cu illərdə fəaliyyət göstərmiş Tibb fakültəsində dərslər ancaq rus dilində aparılırdı və ona görə də Azərbaycanın ucqar rayonlarından gələn gənclərin Tibb fakültəsinə qəbul olunması müşkül məsələyə çevrilmişdi. Əziz Əliyev qarşısında duran vəzifənin miqyasını yaxşı anlayırdı. Azərbaycanın milli tibb kadrlarına ehtiyacı vardı. Amma milli həkim yetişdirməkdən ötrü əvvəlcə milli müəllim yetişdirmək, ana dilində dərslik yaratmaq lazım idi. Bunu yaxşı görən Əziz Əliyev azərbaycanlı alimləri bir araya gətirdi, onları ana dilində tibbi dərsliklər yazmağa təşviq etdi. Qısa müddətdə Azərbaycan dilində 55 adda tibbi dərslik nəşr olundu. Anatomiya, mikrobiologiya, patoloji anatomiya, vərəm, göz xəstəlikləri, travmatologiya, bioloji kimya və digər sahələri əhatə edən bu kitablar Azərbaycanın tibb təhsili tarixində mühüm yer tutdu. Azərbaycan Dövlət Tibb İnstitutunda Müalicə-profilaktika və Sanitariya-gigiyena fakültələri fəaliyyətə başladı. Həmin fakültələrdə dərslər rus dili ilə yanaşı, Azərbaycan dilində də aparılırmağa başladı.

Azərbaycan Tibb Universitetinin inkişafı və təşəkkülü bir neçə mərhələyə bölünür. Bu inkişafın ilk mərhələsi 1932-1938-ci illəri əhatə edən Əziz Əliyev mərhələsidir. Burada Əziz Əliyevin böyüklüyünün miqyası görünür. O, sadəcə, bu günün problemini həll etməklə məşğul olmur, gələcək üçün möhkəm təməllər qururdu. Çünki ana dilində keyfiyyətli dərsliklərin hazırlanması milli elmi düşüncənin formalaşması, gələcək həkimin tibb elmini öz dilində öyrənməsi, öz dilində düşünməsi və öz xalqına öz dilində xidmət etməsidir.

## Mühit yaradan ictimai xadim

O dövrün texniki imkanlarını təsəvvür etmək bu gün elə də asan deyil. Tibbi ədəbiyyatın çapı, kitabxananın yaradılması, elmi nəşrlərin təşkili böyük çətinliklər hesabına başa gəlirdi. Amma Əziz Əliyev bu çətinliklər qarşısında geri çəkilmirdi. Onun təşəbbüsü ilə Azərbaycan Dövlət Tibb İnstitutunda tibbi kitabxananın əsası qoyuldu. Kitabxana yalnız yerli nəşrlərlə kifayətlənmir, SSRİ-də çap olunan yeni elmi ədəbiyyatı əldə edir, xarici ölkələrin elmi müəssisələri ilə kitab mübadiləsi aparırdı. 1934-cü ildə o, "Tibb" nəşriyyatının yaradılmasına nail oldu. Tibbi jurnalların, elmi nəşrlərin və institut qəzetinin çapına başlanıldı. Sonralar "Təbib" adı ilə fəaliyyətini davam etdirən qəzetin də əsası məhz onun təşəbbüsü ilə qoyuldu. Beləliklə, Əziz Əliyev bir institut daxilində bütöv bir elmi-mədəni mühit yaratmağa nail olmuşdu.

Əziz Əliyevin rəhbər obrazını yalnız kabinet, vəzifə və qərarlarla təsəvvür etmək düzgün olmazdı. O, tələbənin taleyi ilə maraqlanan rəhbər idi. 1933-cü ildə onun təşəbbüsü ilə "Tibb şəhərciyi"nin tikintisinə başlanıldı. Tələbələr üçün yataqxanalar, tədris korpusları yaradıldı. Ölkədə çörək qıtlığının hökm sürdüyü illərdə tələbələrin ağır vəziyyətini nəzərə alaraq tələbə yeməkxanası təşkil edildi, ehtiyacı olan və yaxşı oxuyan tələbələrə geyim və ayaqqabı almaq üçün rektorluq fondu yaradıldı. Bütün bunlarla Əziz Əliyev gəncləri başqa qayğılar haqqında düşünmədən ancaq oxumağa, öyrənməyə, özünüinkişa təşviq edir, arxalarında duran mənən güclü insanların olduğunu onlara göstərməyə çalışırdı. O, ən bacarıqlı tələbələrin Moskva və Sankt-Peterburqun məşhur tibb məktəblərinə göndərilməsini, onların təcrübə toplamasına şərait yaradılmasını, səfərləri zamanı maddi dəstək göstərilməsini də xoş bir ənənəyə çevirmişdi.

Əziz Əliyev rəhbər vəzifələrdə çalışdığı vaxtlarda da elmi fəaliyyətini dayandırmamışdı. 1929-cu ildə namizədlik, daha sonra doktorluq dissertasiyasını uğurla müdafiə etmiş, Almaniyada elmi ezamiyyətdə olmuş, alimlik fəaliyyəti ilə də böyük faydalar vermişdi. O, həzm zamanı qanın xloridləri, malyariyanın müalicəsi, klinik analizlər və digər tibbi problemlərlə bağlı elmi əsərlər yazır, eksperimental nefritin öyrənilməsi üzərində çalışırdı. Əziz Əliyevin "Klinik analizlər" əsəri tələbələr və gənc həkimlər arasında geniş yayılaraq onların stolüstü kitablarından birinə çevrilmişdi. Onun Tibb İnstitutuna rəhbərliyi dövründə 11 doktorluq və çoxsaylı namizədlik dissertasiyaları müdafiə edilmişdi. Dörd il ərzində aspiranturada 30 tibb elmləri namizədi hazırlanmışdı, onların 19-u məhz milli kadr idi. Bu rəqəmlərin arxasında Azərbaycanın gələcək tibb elmi dayanırdı.

Əziz Əliyev səhiyyəyə çox geniş rakursdan baxmağı bacarırdı. Onun üçün səhiyyə yalnız xəstəni müalicə etməklə məhdudlaşmırdı. Xəstəliyin qarşısını almaq, tibbi xidmət şəbəkəsini qurmaq, insanları maarifləndirmək, ixtisaslı həkimlər yetişdirmək və səhiyyəni dövlət siyasətinin mühüm istiqamətinə çevirmək lazım idi. 1934-cü ildə o, Bakı şəhər səhiyyə şöbəsinin müdiri vəzifəsində çalışdı. 1936-1940-cı illərdə malyariya və traxomaya qarşı mübarizədə iştirak etdi. Xüsusi dispanserlər, şəhər və kəndlərdə göz xəstəxanaları yaradıldı və Əziz Əliyevin həyatında elə bir mərhələ gəldi ki, onun təşkilatçılıq qabiliyyəti dövlət idarəçiliyinin ən müxtəlif sahələrində lazım oldu.

## Vicdanın diktəsi

Maraqlı faktlardan biri də budur ki, Əziz Əliyev 1934-cü ildə Bakıda səhiyyə xidmətinin səviyyəsini yüksəltmək məqsədilə Bakı şəhər səhiyyə şöbəsinin müdiri vəzifəsinə təyin edilmiş, qarşısına qoyulan vəzifələri qısa müddətdə uğurla yerinə yetirərək yenidən Azərbaycan Dövlət Tibb İnstitutunun direktoru vəzifəsinə qaytarılmışdı. 1936-1940-cı illərdə Əziz Əliyevin iştirakı ilə ölkədə malyariya və traxomaya qarşı mübarizəyə başlandı. Yüksək bacarıqla həyata keçirilən tədbirlər sayəsində ölkəmizdə tüğyan edən bu dəhşətli xəstəliklərin geniş miqyasda yayılmasının qarşısı alındı.

O, müəyyən müddətdə Azərbaycan Dövlət Tibb İnstitutunun direktoru olmaqla yanaşı, Əczaçılıq İnstitutuna da rəhbərlik edirdi. İkinci Dünya müharibəsinin ilk illərində isə Əziz Əliyev alay polkovniki rütbəsində siyasi rəhbər kimi o dövrdə SSRİ üçün çox mühüm əhəmiyyət kəsb edən Cənubi Azərbaycana göndərilmiş, digər Azərbaycan ziyalıları ilə birgə burada çox böyük işlər görmüşdür.

O, 1941-1942-ci illərdə Azərbaycan KP MK-nın katibi, 1942-1948-ci illərdə Dağıstan MSSR Vilayət Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışmış və bu vəzifələrdə də özünü bacarıqlı dövlət xadimi kimi göstərə bilmişdi. Bu gün də Dağıstanda və ətraf bölgələrdə Əziz Əliyevin adı böyük sevgi ilə xatırlanır.

Görkəmli dövlət xadimi Moskvadakı İctimai Elmlər Akademiyasında təhsilini artırdıqdan sonra 1949-1950-ci illərdə Moskvada ÜİK (b) P MİK-nın təlimatçısı, 1950-1951-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, sonrakı illərdə Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru olmuş, Sabunçu xəstəxanasında işləmiş, 1956-cı ildən etibarən Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru vəzifəsində fəaliyyət göstərmişdir.

Əziz Əliyev I-II çağırış SSRİ Ali Sovetinin, I-III çağırış Azərbaycan SSR Ali Sovetinin, II çağırış Dağıstan MSSR-in Ali Sovetinin deputatı olmuşdur.

Görkəmli dövlət xadiminin vətən və xalq qarşısındakı misilsiz xidmətləri yüksək qiymətləndirilmişdi. O, iki dəfə "Lenin" ordeni, "Qırmızı Əmək Bayrağı" ordeni, "I Dərəcəli Vətən Müharibəsi" ordeni, "Səhiyyə Əlaçısı" döş nişanı, bir çox medal, o cümlədən 1948-ci ildə "Moskvanın yaranmasının 800 illik" xatirə medalı və çoxsaylı fəxri fərmanlarla təltif edilmişdi. 1960-cı ildə Əziz Əliyevə "Azərbaycan SSR Əməkdar həkimi" fəxri adı verilir. Hazırda Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Bakının mərkəzi küçələrindən biri, Mahaçqalada bir küçə, Dağıstanda bir sovxoz, Kaspiyskidə bir tibb məktəbi Əziz Əliyevin adını daşıyır.

Böyük nailiyyətlərinə rəğmən Əziz Əliyev həyatında çox çətin sınaqlar da yaşamış və bu sınaqların hər birini mərdliklə, ləyaqətlə geridə qoymuşdu. Onun 1937-ci il repressiyasından xilas ola bilməsi sanki bir möcüzə idi. Bədxahları



Əziz Əliyevi sonralar - 50-ci illərin əvvəllərində də repressiya etdilər. O, işdən çıxarılıb Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutunun direktoru təyin edildi, qısa müddət sonra isə bu vəzifədən də uzaqlaşdırıldı, elmlər doktoru, professor titullarına malik, ölkə və xalq qarşısında bu qədər xidmətləri olan təcrübəli bir dövlət xadimi Sabunçu xəstəxanasına adi həkim kimi göndərildi və 3 il orada işləməli oldu. Amma haqq-ədalət tezliklə öz yerini tutdu, Stalinin ölümündən və Əziz Əliyev kimi layiqli ziyalıların, parlaq dövlət xadimlərinin qəsdinə durmuş Mircəfər Bağırov kimi bədxahların məqam sahibliyini itirməsindən sonra Əziz Əliyevə qarşı repressiyalar da dayandı, 1956-cı ildən ömrünün sonuna qədər o, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutuna rəhbərlik etdi.

Zəngin ömür yolundan da göründüyü kimi, həyatın dalğaları, zamanın burulğanlı axarı fərqli illərdə Əziz Əliyevi müxtəlif sahələrə, vəzifələrə, mühitlərə yönəldib. Amma bütün bu müxtəlifliyin içərisində Əziz Əliyevin dəyişməyən bir xüsusiyyəti vardı: harada olurdusa, orada dayanıqlı sistem qurmağa çalışır, mümkün olanların maksimumunu edərək insanlara faydalı olmağa can atırdı. Onu buna sövq edən hər zaman oyaq vicdanının diktəsi idi. Hətta yüksək vəzifələrdən kənarlaşdırıldıqdan sonra Sabunçu xəstəxanasında sıravi həkim kimi işlədiyi illərdə də o üzərinə düşən işi yenə də böyük vicdanla görürdü, həkim kimi ona pənah gətirmiş xəstələrə şəfa verməkdən mənəvi rahatlıq tapırdı. Onun üçün həkimlik vəzifələrin ən böyüyü, ən alisi idi.

## Azərbaycan ziyalısının klassik obrazı

Bəlkə də bu, Əziz Əliyev xarakterinin ən ibrətamiz məqamlarındandır. Çünki bəzi insanlar vəzifəni itirəndə özlərini, onlara olan hörməti də itirirlər. Əziz Əliyevsə vəzifəni itirəndə də həkim olaraq qalmışdı, tanıyan insanlar yenə də ona böyük hörmətlə, rəğbətlə yanaşır, şəxsiyyətinə böyük dəyər verirdilər. Ona görə ki, bu dəyəri Əziz Əliyevə hər hansı vəzifələr, titullar yox, məhz şəxsiyyətinin gücü qazandırmışdı. Bu məziyyətləri ilə o Azərbaycan ziyalısının klassik obrazını yaşadanlardan idi.

Əziz Əliyev zəmanəsinin Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Bülbül, Niyazi, Səməd Vurğun, Süleyman Rüstəm, Qara Qarayev və başqa belə görkəmli ziyalıları ilə dostluq edirdi, bu şəxsiyyətlər tez-tez Əziz müəllimin evində-ocağında qonaq olar, süfrə arxasında edilən ziyalı söhbətləri, intellektual müzakirələr saatlarla davam edər, mühit yaradardı. Əziz Əliyevin digər tanınmış ziyalılarla yaratdığı mənəvi mühitin gücünü onun övladlarının həyatında da görmək mümkündür.

Əziz müəllimin ömür-gün yoldaşı Leyla xanımla birgə böyüdüb-boya başa çatdırdığı övladlarından biri - Zərifə xanım Əliyeva oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olan alim və həkim kimi öz adını Azərbaycan tarixində əbədiləşdirmişdir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin həyat yoldaşı, ən yaxın silahdaşı kimi Zərifə xanım milli dövlətçilik tariximizdə də özünəməxsus rol oynamış, dövlətimiz üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev kimi qüdrətli bir Lideri böyüdüb yetirmişdir.

Əziz Əliyevin oğlu Tamerlan Əliyev tanınmış terapevt, professor və elm xadimi kimi tibb elmində yüksək ad qazanmışdır. Digər övladı akademik Cəmil Əliyev tibb elmi və səhiyyə təşkilatçılığı sahəsində son dərəcə böyük uğurlar qazanmışdır. Onun adını daşıyan nəvəsi, professor Əziz Əliyev İ.M.Seçenov adına Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru vəzifəsində çalışır, səhiyyəmizin inkişafına yüksək töhfələr verir.

Əziz Əliyevin qız övladı, həkim-oftalmoloq Ləzifə Əliyeva da insanların böyük rəğbətini qazanmış, digər övladı Dilbər Əliyeva isə rabitəçi-mühəndis kimi fəaliyyət göstərərək peşəkar əməyinə görə "Əməkdar rabitəçi" fəxri adına layiq görülmüşdü.

Əziz Əliyevin qızı Gülarə Əliyeva da tanınmış musiqiçi, "Dan ulduzu" instrumental ansamblının yaradıcısı və rəhbəri, eləcə də musiqi nəzəriyyəçisi və pedaqoq kimi milli mədəniyyətimizə zəngin töhfələr vermişdir.

Bu ocaqda yetişən övladların uğurları da göstərir ki, Əziz Əliyevin ailəsində elmə, sənətə, peşəyə, zəhmətə münasibət xoş bir həyat tərzinə çevrilmişdi. Bu baxımdan, onun qurduğu məktəb yalnız institut divarları ilə məhdudlaşmadan ailədə də davam edirdi.

Əziz Əliyev 1962-ci il iyulun 27-də, 65 yaşında vəfat etdi və Fəxri xiyabanda dəfn olundu. Amma bu böyük şəxsiyyətin adı aradan illər keçəndən sonra da tariximizdə, milli yaddaşımızda yaşayır. Əziz Əliyev kimi şəxsiyyətlərimizi xatırlamaq belə işıqlı insanların xalq üçün, cəmiyyət üçün gördükləri nəcib işlərin dəyərini vermək, bu işləri davam etdirmək məsuliyyətini də cəmiyyətdə yaşatmaqdır. Ən böyük vəzifə bu məsuliyyəti daşımağı bacarmaqdır. Əziz Əliyev bu ictimai məsuliyyəti daşıya bilirdi və elə buna görə də o, əbədiyaşarlıq qazanmış böyük şəxsiyyətlərimizdəndir.

*Əhliman ƏMİRASLANOV,*
*akademik*

# "İRS-Nasledie" jurnalının yeni nömrəsi Xaqani Şirvaniyə və Azərbaycan tarixinin səhifələrinə həsr olunub

**Moskvada "İRS-Nasledie" jurnalının növbəti nömrəsi nəşr edilib.**

AZƏRTAC xəbər verir ki, yeni nömrədə əsas yeri böyük Azərbaycan şairi və mütəfəkkiri, Orta əsrlər Şərq intibahının ən böyük nümayəndələrindən biri Xaqani Şirvaninin (1126–1199) anadan olmasının 900 illiyinə həsr olunmuş məqalə tutur.

Məqalədə təkcə Şərq ədəbiyyatının deyil, dünya ədəbiyyatının da ən böyük ustadlarından biri kimi tanınan şairin həyat və yaradıcılığı haqqında bəhs olunur. Xaqani Şirvani hələ gənc yaşlarında Şirvanşahların saray şairi olub. O, sarayda keçirdiyi uzun illər ərzində həm hörmət və ehtiram, həm də hökmdarların lütfünü, sonda isə sürgün edilməsinə səbəb olan saray çəkişmələrini və böhtanları görüb. Bütün sınaqlara baxmayaraq, şair saraydaxili çəkişmələrdən kənar qalaraq ləyaqətini daim qoruyub saxlayıb.

Jurnal ənənəvi olaraq Azərbaycan tarixinə böyük diqqət yetirir. Nəşrdəki məqalələrdən biri ölkənin 1920-ci ildə sovetləşdirilməsi dövründə siyasi terrorizm mövzusuna həsr olunub. Məqalədə erməni "Daşnaksütyun" partiyasının üzvləri tərəfindən Tiflisdə (indiki Tbilisi) Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli dövlət xadimləri - keçmiş baş nazir Fətəli xan Xoyski və keçmiş ədliyyə və daxili işlər naziri Həsən bəy Ağayevin qətlə yetirilməsindən bəhs olunur.




Material müxtəlif siyasi istiqamətləri təmsil edən Tiflis qəzetlərində dərc olunmuş yazılar əsasında hazırlanıb. Həmin dövrün nəşrlərinin əksəriyyəti azərbaycanlı dövlət xadimlərinin qətlə yetirilməsini bolşevik rejiminin AXC nümayəndələrinə qarşı yönəlmiş siyasəti ilə əlaqələndirirdi.

Oxucular üçün tanınmış azərbaycanlı neft sənayeçisi və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Xəzər dənizində neftin dəniz yolu ilə daşınması sahəsindəki fəaliyyətinə həsr olunmuş məqalə də maraqlı olacaq. O, 45 gəmi sahibini birləşdirən ittifaqa rəhbərlik edərək bu sahədə Rusiya kapitalının inhisarına qarşı mübarizə aparıb. Məqalədə həmçinin Tağıyevin rəqiblərinin əl atdıqları üsullar və onun sonradan neft daşımaları sahəsindən sıxışdırılıb çıxarılmasına səbəb olan hallar nəzərdən keçirilir.

Yeni nömrədə oxuculara Azərbaycan tarixini və müasir həyatını daha dərindən öyrənməyə kömək edəcək digər materiallar da təqdim olunub.

# Filoloq Qırğız akınlığı ilə Azərbaycan aşıq sənətinin oxşar və fərqli cəhətlərini açıqlayıb

**Qırğız və Azərbaycan ənənələrinin mühüm ortaq cəhətlərindən biri də epik yaradıcılıqla bağlılığıdır. Qırğız xalqının milli-mədəni yaddaşında "Manas" dastanı müstəsna əhəmiyyət daşıyır.**

"Manasçılar dastanı müxtəlif ifa üslubları ilə, geniş epik mətnləri yaddaşda qoruyaraq və müəyyən hallarda improvizasiya imkanlarından istifadə etməklə nəsildən-nəslə ötürmüşlər. Azərbaycan aşıq mühitində də dastançılıq ənənəsi olduqca zəngindir. "Koroğlu", "Aşıq Qərib", "Əsli və Kərəm", "Abbas və Gülgəz", "Tahir və Zöhrə" kimi dastanların qorunması və yayılmasında aşıqlar mühüm rol oynayıb. Bu dastanların ifası zamanı nəsr və nəzmin, söz və musiqinin qarşılıqlı əlaqəsi yaranır. Həm Qırğız, həm də Azərbaycan mühitində dastançı yalnız hazır mətni təkrarlayan ifaçı deyil, onu öz ifaçılıq imkanlarına uyğun şəkildə təqdim edən yaradıcı sənətkardır".

Bunu AZƏRTAC-a açıqlamasında filologiya üzrə fəlsəfə doktoru, dosent İlhamə Qəsəbova söyləyib.

O qeyd edib ki, Qırğız akınlığı ilə Azərbaycan aşıqlığı arasında müəyyən fərqlər var. "Azərbaycan aşıq sənəti zaman keçdikcə daha sistemli poetik və musiqi quruluşuna malik sənət kompleksinə çevrilib. Burada saz havalarının zəngin sistemi, aşıq şeirinin müxtəlif janrları, dastan repertuarı və ustad-şagird ənənəsi bir-biri ilə sıx bağlı şəkildə inkişaf edib. Aşığın sənətkarlığı yalnız söz yaratmaq və ifa etmək qabiliyyəti ilə deyil, həm də saz çalmaq, havaları tanımaq, dastan söyləmək və aşıq repertuarını mənimsəməklə müəyyənləşib. Qırğız akınlığında isə poetik improvizasiya və söz yarışması daha qabarıq şəkildə ön plana çıxır. Akının ictimai mövqeyi, onun xalq qarşısında fikir söyləmək, hadisələrə münasibət bildirmək və sosial məsələləri poetik formada ifadə etmək qabiliyyəti mühüm əhəmiyyət daşıyır. Akın yaradıcılığında gündəlik həyat, məhəbbət, təbiət, ictimai münasibətlər, insan xarakteri və xalqın tarixi ilə bağlı mövzular geniş yer tutur. Azərbaycan aşıq poeziyasında da bu mövzulara rast gəlinsə də, burada məhəbbət lirikasının, qəhrəmanlıq motivlərinin, Vətən və yurd sevgisinin, dini-fəlsəfi düşüncənin, təbiət təsvirlərinin və sosial mövzuların daha geniş poetik sistem daxilində ifadəsi müşahidə edilir",- deyə İ.Qəsəbova vurğulayıb.

# Aqrar subsidiya şurası yeni dövlət dəstəyi mexanizmlərini təsdiqləyib

**Aqrar Subsidiya Şurasının qərarı ilə Azərbaycan Respublikası Prezidentinin 25 may 2026-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda müəyyən edilmiş kənd təsərrüfatında məhsuldarlığın və istehsalın artırılması, müasir suvarma texnologiyalarının tətbiqinin genişləndirilməsi, emal və ixracyönümlü istehsalın təşviqi, heyvandarlıqda cins tərkibinin yaxşılaşdırılması, eləcə də ölkənin ərzaq təminatının gücləndirilməsi hədəflərinə uyğun olaraq yeni subsidiya mexanizmləri və subsidiya şərtlərində dəyişikliklər təsdiq edilib. Yeni qərarla bitkiçiliklə yanaşı, heyvandarlıq və balıqçılıq sahələrində də bir sıra yeni subsidiyalar tətbiq olunacaq.**



## Müasir suvarmadan istifadə edən fermerlərə daha yüksək subsidiya veriləcək

Şuranın qərarı ilə taxıl əkinləri üzrə subsidiya məbləğləri suvarma üsulu və istehsalın ixtisaslaşması nəzərə alınmaqla diferensiallaşdırılıb.

Belə ki, dövlət proqramına əsasən 22 ixtisaslaşmış rayonda müasir suvarma altında buğda əkininə ənənəvi suvarma və ya dəmyə üsulu ilə aparılan əkinlərdən 2 dəfə artıq, 400 AZN/ha subsidiya ödəniləcək. Ənənəvi suvarma və dəmyə əkini altında olan taxıl sahələri üzrə əkin subsidiyası 200 AZN/ha olaraq müəyyən edilib.

Bundan əlavə, müasir suvarma altında olan sahələrdə hər hektara ödənilən əkin subsidiyası kartof və tərəvəzlə yanaşı, noxud, lobya və digər paxlalılar üçün 500 manata, bostan bitkiləri üçün isə 310 manata çatdırılıb.

Beləliklə, xüsusilə suya qənaət edən müasir suvarma sistemlərindən istifadə edən fermerlər üçün dövlət dəstəyinin məbləği artırılır.

## Dağlıq rayonlara dövlət dəstəyi gücləndirilir

Dağlıq rayonlarda, habelə Naxçıvan Muxtar Respublikasında aparılan kartof və tərəvəz əkinlərinə ödənilən subsidiya müasir suvarma ilə təmin edilən sahələr üçün hər hektarda 600 manata, digərlər sahələr üçün isə 400 manata çatdırılır.

## Lazer hamarlama texnologiyasının tətbiqinə yeni subsidiya veriləcək

Torpaq və su resurslarından daha səmərəli istifadə etmək məqsədilə lazer hamarlama texnologiyasından istifadə edən fermerlərə daha artıq subsidiya tətbiq ediləcək. Bütün suvarılan ərazilərdə bir parseldə azı 5 hektar buğda əkinindən əvvəl sahədə lazer hamarlama tətbiqinin ilk ilində əkin subsidiyası 250 AZN/ha artırılaraq ödəniləcək. Pambıqçılıq rayonlarında azı 5 hektar pambıq əkinindən əvvəl lazer hamarlama tətbiqinin ilk ilində məhsul subsidiyası 50 AZN/ton artırılaraq ödəniləcək.

Lazer hamarlama aparılan sahələr EKTİS-də bəyan ediləcək, sahənin monitorinqində rəqəmsal və süni intellekt həllərindən istifadə olunacaq.

## İstixanalar üzrə yeni əkin subsidiyaları tətbiq olunacaq

İstixana təsərrüfatlarının modernləşdirilməsi və yüksək texnologiyalı istixanaların yaradılmasının təşviqi məqsədilə istixananın texnoloji səviyyəsinə və örtük materialına uyğun olaraq hər hektar əkinə görə 500 manatdan 5 000 manatadək əkin subsidiyası müəyyən edilib.

Əkin subsidiyası 4-cü nəsil şüşə örtüklü yüksək texnologiyalı istixanalarda 5 000 manat/ha, polikarbonat örtüklü istixanalara 3 000 manat/ha, yüksəkkeyfiyyətli polietilen örtüklü 4-cü nəsil istixanalara 2 500 manat/ha veriləcək. 3-cü nəsil istixanalarda isə əkin subsidiyası müvafiq olaraq 2 000, 1 500, 1 000 manat/ha, digər polietilen örtüklü istixanalarda isə 500 manat/ha müəyyən edilib.

## Yeni ixracyönümlü bitkilərin becərilməsi dəstəklənəcək

Şuranın qərarı ilə yüksək əlavə dəyər və ixrac potensialına malik yeni bitkilərin əkininin təşviqi məqsədilə bağçılıq subsidiyalarının əhatə dairəsi genişləndirilib.

Aroniya bağlarının salınmasına görə, birdəfəlik 7 500 manat/ha, açıq sahədə efir yağı istehsalı məqsədilə qızılgül əkinlərinə isə 6 000 manat/ha subsidiya veriləcək.

Kiçik (butik) şərabçılığın inkişafı da yeni dövlət dəstəyi istiqamətlərindən biri olacaq. Bu istiqamətdə yerli üzüm sortlarından premium şərab istehsalı, aqroturizmin inkişafı və ixracyönümlü mikrobrendlərin yaradılması təşviq ediləcək. Təqdim edilən modeldə 5-20 ha olmaqla super-intensiv üzüm bağları üçün 20 000 manat/ha, intensiv üzüm bağları üçün isə 10 000 manat/ha bağçılıq subsidiyası nəzərdə tutulur. 2030-cu ilədək 20 yeni butik şərab evinin yaradılması hədəflənir.

## Bağçılıq subsidiyalarının şərtləri sadələşdirilir

Bağların salınması zamanı fermerlərin subsidiya əldə etməsini asanlaşdırmaq məqsədilə bir sıra mövcud tələblər sadələşdirilib.

Bütün ölkə üzrə bağların salınması zamanı sertifikatlı ting tələbi saxlanılmaqla torpağın elektrik keçiriciliyi - EC və viruslardan azadolma ilə bağlı analiz tələbi aradan qaldırılır. İntensiv texniki və süfrəlik üzüm bağlarına verilən bağçılıq subsidiyası bütün ölkə ərazisinə şamil edilir. İntensiv zeytun bağlarında minimum sahə tələbi 50 hektardan 5 hektara, Naxçıvan MR-də isə bütün bağlar üzrə minimum sahə tələbi 1 hektara endirilir.

Eyni zamanda intensiv püstə bağları üzrə yüksəklik həddi 1000 metrədək artırılır. Qarabağ və Şərqi Zəngəzurda nar üzrə minimum yüksəklik tələbi ləğv edilir, zeytun üzrə maksimal yüksəklik 300 metrədək artırılır, Naxçıvanda isə qoz bağları üzrə minimum yüksəklik tələbi aradan qaldırılır.

## Pambıqda damcı suvarma tətbiqinə əlavə dəstək veriləcək

Pambıq üzrə məhsul subsidiyası da istifadə olunan suvarma texnologiyasına uyğun diferensiallaşdırılıb. Ənənəvi suvarmada subsidiya 200 manat/ton, sprinkler və pivot suvarmada 215 manat/ton, damcı suvarmada isə 300 manat/ton müəyyən edilib.

## Emala təhvil verilən məhsullar üzrə subsidiyaların əhatəsi genişləndirilir

Aqrar emal sənayesinin xammal təminatının yaxşılaşdırılması məqsədilə yeni məhsul subsidiyaları tətbiq ediləcək. Emal müəssisəsinə təhvil verilən texniki üzümə 50 manat/ton, zeytuna 30 manat/ton, xurmaya 50 manat/ton və taxta qabıqlı badama 30 manat/ton subsidiya müəyyən edilib.

Efir yağı istehsalı üçün təhvil verilən qızılgül üzrə subsidiya 100 manat/ton, biyan üzrə 10 manat/ton, pivəlik arpa üzrə isə 50 manat/ton təşkil edəcək.

Ərzaqlıq buğda proqramı davam etməklə birlikdə buğda üzrə ixtisaslaşmış 22 rayonda lazer hamarlama tətbiq edilən sahələrdə istehsal edilərək dəyirmanlara təhvil verilən buğdaya görə 40 AZN/ton məhsul subsidiyası ödənilcək. Naxçıvan MR üzrə tədarükçülərə təhvil verilən buğdaya görə 50 AZN/ton məhsul subsidiyası ödəniləcək.

## Sertifikatlı toxumun istehsalına dəstək genişləndirilir

Yerli toxumçuluğun inkişafı məqsədilə superelit toxum istehsal edən toxumçu fermerlərə əkin subsidiyası yüksək əmsalla ödəniləcək. Yerli superelit buğda və arpa toxumçularına əkin subsidiyası 470 manat/ha, xarici mənşəli superelit buğda və arpa toxumçuluğuna isə 300 manat/ha artıq ödəniləcək.

Bunula yanaşı, buğda və arpa üzrə sertifikatlı toxumdan istifadə tələbi 5 hektara endirilib. 2026-2027-ci əkin mövsümündə sertifikatlı toxum istifadə etməyən belə fermerlərin əkin subsidiyası 50 faiz azaldılacaq, 2027-2028-ci əkin mövsümündə isə belə fermerlər üçün subsidiya əmsalı sıfır qəbul ediləcək.

## Aqrar sahədə beynəlxalq sertifikatların alınmasına dövlət dəstəyi veriləcək

Fermer və aqrar müəssisələrin xarici bazarlara çıxışını asanlaşdırmaq məqsədilə Global G.A.P., FSSC 22000, HACCP, GRASP, BRCGS, FSMA və beynəlxalq orqanik sertifikatların alınması subsidiyalaşdırılacaq.

Sertifikatın növündən asılı olaraq dəstək məbləği 7 000 manatdan 36 000 manatadək, sertifikatların aktiv saxlanılması üçün illik dəstək isə müvafiq məbləğin 10 faizi səviyyəsində müəyyən edilir.

## Fermerlər əkin subsidiyasının 30 faizini avans şəklində ala biləcəklər

Yeni mexanizmə əsasən müəyyən edilmiş meyarlara cavab verən fermerlər əkin subsidiyasının 30 faizini əvvəlcədən əldə edə biləcəklər. Avans mexanizmi 5-100 hektar əkin sahəsi olan, siyahısı müəyyən edilən yazlıq və payızlıq birillik bitkilər becərən və fermer reytinqi 30-dan yüksək olan təsərrüfatlara şamil ediləcək.

Avans subsidiyası üçün müraciət edən fermerlərin sahələri EKTİS-də bəyan ediləcək, sahənin əkinə hazırlığının monitorinqində rəqəmsal və süni intellekt həllərindən istifadə olunacaq.

## Əkin və bağçılıq subsidiyası üzrə sığorta tələbləri yenilənib

Aqrar Subsidiya Şurasının qərarı ilə əkin subsidiyasının alınması üçün sığortalanması tələb olunan bitkilərin siyahısında və onların əkin sahəsinin minimum ölçüsündə dəyişiklik edilib. Belə ki, əsas və təkrar əkin subsidiyasının əldə edilməsi üçün sığortalanmalı olan bitkilərin siyahısına arpa, buğda, çəltik, qarğıdalı ilə yanaşı günəbaxan əlavə edilmiş, əkin sahələrinin minimum ölçüsü isə 7 hektar olaraq müəyyən edilmişdir.

Bağçılıq subsidiyası üçün isə yeni salınmış bağların "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq azı 3 il müddətinə sığortalanması tələb olunur.

## Texnika, suvarma və "yaşıl enerji"yə güzəştlər artırılır

Kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqların alınmasına tətbiq olunan güzəşt mexanizmlərinə də dəyişiklik edilib. Taxıl, pambıqyığan, yemyığan və yempaylayan kombaynlar, lazer hamarlayıcılar, soyuducu anbarlar, taxıl siloları, suvarma hovuzları üçün membranlar və aqrar istehsalda istifadə edilən günəş panelləri üzrə güzəşt tətbiq edilən hissə 50 faizədək artırılır.

Yerli istehsal damcı suvarma sistemlərində güzəşt tətbiq edilən hissə 60 faiz, xarici istehsal sistemlərdə isə 50 faiz olacaq. Kiçik şərabçılıq müəssisələrinin yaradılması üçün avadanlıqlar üzrə güzəşt 60 faiz, istixanalarda istifadə olunan texnoloji avadanlıqlar, habelə yerli istehsal metal konstruksiya və şüşələr üzrə güzəşt 20 faiz həddində müəyyən edilib.

## Sərhədboyu əkinçiliyə əlavə dəstək veriləcək

Ölkənin sərhədyanı ərazilərində kənd təsərrüfatı fəaliyyətinin davamlılığının təmin edilməsi üçün əlavə subsidiya mexanizmi tətbiq ediləcək. Siyahısı müəyyən edilmiş sərhədyanı yaşayış məntəqələrində əkinçilik fəaliyyəti ilə məşğul olan fermerlər üçün subsidiya əmsalı respublika üzrə baza əmsalından 0,5 bənd yüksək hesablanacaq.

## Balıqçılıqda ilk dəfə məhsul subsidiyası tətbiq olunacaq

Akvakultura təsərrüfatlarının istehsal gücünün artırılması və özünütəminetmə səviyyəsinin yaxşılaşdırılması məqsədilə balıq növləri üzrə məhsul subsidiyası tətbiq ediləcək.

Ölkədə istehsal olunan qızılbalıqkimilər və nərəkimilər üzrə məhsul subsidiyası 2000 manat/ton, çəkikimilər və naxakimilər üzrə isə 600 manat/ton təşkil edəcək. Subsidiya EKTİS-də qeydiyyatdan keçmiş təsərrüfatların məhsulu tədarükçülərə rəsmi satış sənədləri ilə təhvil verildiyi halda ödəniləcək.

## Naxçıvanda yumurta istehsalına xüsusi dəstək veriləcək

Naxçıvan Muxtar Respublikasında yerli süfrəlik yumurta istehsalının bərpası məqsədilə qeydiyyatda olan quşçuluq təsərrüfatlarında istehsal edilərək tədarükçülərə satılan hər 1000 ədəd süfrəlik yumurtaya 30 manat məhsul subsidiyası veriləcək.

## Emal müəssisələrinə təhvil verilən südə subsidiya veriləcək

Ölkədə süd istehsalının artırılması, süd emalı müəssisələrinin yerli xammalla təminatının yaxşılaşdırılması və bu sahədə uçotun təkmilləşdirilməsi məqsədilə süd üzrə yeni məhsul subsidiyası tətbiq ediləcək.

EKTİS-də tədarükçü kimi qeydiyyatdan keçən süd emalı müəssisələrinə və süd toplama məntəqələrinə təhvil verilən soyudulmuş xam südün hər litrinə 7 qəpik, yaxud hər tonuna 70 manat subsidiya veriləcək. Kooperativlər vasitəsilə təhvil verilən süd üzrə subsidiya məbləği əlavə olaraq 20 faiz artırılacaq. Dəstək EKTİS-də bəyan, heyvanların identifikasiyası, sığorta, südün soyudulması və müəyyən edilmiş keyfiyyət tələblərinə əməl olunması şərti ilə tətbiq ediləcək.

## "Qarabağ" və "Dilbaz" atlarının saxlanmasına subsidiya veriləcək

Milli at cinslərinin qorunması və sayının artırılması məqsədilə qeydiyyata alınmış "Qarabağ" və "Dilbaz" atlarına illik heyvan subsidiyası tətbiq ediləcək.

2 yaşadək dayçalara 600 manat/baş, 2 yaşdan yuxarı damazlıq dişi atlara 800 manat/baş, damazlıq ayğırlara isə 1000 manat/baş illik subsidiya veriləcək. Heyvanların EKTİS-də qeydiyyatı, elektron çiplənməsi və valideyn mənsubiyyətinin DNT testi ilə təsdiqi subsidiya üçün əsas şərtlərdən olacaq.

## İntensiv iribuynuzlu heyvandarlığın təşviqi üçün yeni dəstək mexanizmi tətbiq olunacaq

1 oktyabr 2026-cı ildən sonra yaradılan intensiv təsərrüfatlarda südlük və südlük-ətlik cins heyvanlara görə 1500 manat/baş, ətlik cinslər üzrə isə 1000 manat/baş heyvan subsidiyası veriləcək.

Mövcud təsərrüfatlarda cins sağmal heyvanlara 500 manat/baş/il, yerli damazlıqdan yetişdirilmiş sağmal heyvanlara 800 manat/baş/il, mələz sağmal heyvanlara isə 200 manat/baş/il heyvan subsidiyası tətbiq olunacaq. Təsərrüfatlarda heyvan subsidiyasından yararlanmaq üçün minimum 50 baş cins və ya minimum 100 baş mələz sağmal heyvan tələbi müəyyən edilib.

## Örüş və otlaqlarda yem bazasının yaxşılaşdırılması məqsədilə xırdabuynuzlu heyvandarlığa subsidiya veriləcək

İstifadəsində azı 100 ha örüş və ya otlaq sahəsi olan 500 baş və ya daha artıq xırdabuynuzlu heyvan olan təsərrüfatlarda qeydiyyatda olan heyvana görə 4 manat subsidiya veriləcək. Subsidiyanın verilməsində əsas şərt təsərrüfatlara istifadə üçün verilmiş örüş və otlaqlarda münbitliyin və biomüxtəlifliyin artırılmasıdır.

Bu subsidiyaya müraciət edən təsərrüfatların istifadələrinə verilmiş örüş və otlardakı vəziyyət EKTİS-in Torpaqdan istifadə altsistemi və süni intellekt həllərindən istifadə olunmaqla monitorinq ediləcək.

## Heyvanların yüksək çəkidə kəsimi təşviq ediləcək, dəri və yuna məhsul subsidiyası veriləcək

İntensiv kökəltmə təsərrüfatlarının inkişafı və heyvanların daha yüksək çəkidə kəsiminin təşviqi məqsədilə diri çəkisi 600 kiloqram və daha çox olan iribuynuzlu heyvanlara görə hər kq diri çəki üzrə 0,40 manat məhsul subsidiyası veriləcək. Subsidiyanın tətbiqi üçün EKTİS-də bəyan, heyvanın ölkədə doğulması və ya ən azı 6 ay ölkə daxilində kökəldilməsi, identifikasiyası və sığortası, eləcə də qeydiyyatda olan kəsimxanada kəsilməsi tələb olunacaq.

Dəri və yun xammalının emala cəlb edilməsinin təşviqi məqsədilə emal müəssisələrinə təhvil verilmiş iribuynuzlu heyvan dərisinə 3 manat/ədəd, xırdabuynuzlu heyvan dərisinə 0,30 manat/ədəd, yuna isə 0,30 manat/kq məhsul subsidiyası tətbiq ediləcək.

## Süni mayalanma subsidiyası yeni qaydada hesablanacaq

Heyvanların genetik potensialının yüksəldilməsi məqsədilə mövcud süni mayalanma subsidiyası diferensiallaşdırılacaq. Yerli cins heyvanların süni mayalanmasından alınan birinci nəsil buzovlara 75 manat, ikinci və sonrakı nəsillərə 150 manat, yerli damazlıq təsərrüfatların yüksək məhsuldar cins heyvanlarından alınan buzovlara 50 manat, embrion köçürmə nəticəsində alınan buzovlara isə 250 manat subsidiya veriləcək.

Subsidiya şurasının qərarı ilə tətbiq edilən yeni dövlət dəstəkləri Azərbaycan Respublikası Prezidentinin 25 may 2026-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda müəyyən edilən hədəflərə uyğun olaraq müasir suvarmanın genişləndirilməsinə, yüksək dəyərli məhsulların istehsalına, emal sənayesinin yerli xammalla təminatına, ixrac imkanlarının artırılmasına, kənd təsərrüfatında rəqabətqabiliyyətliliyin yüksəldilməsinə və balıqçılıq və akvakultura sahələrinin inkişaf etdirilməsinə xidmət edəcək.

2027-cü il üzrə bitkiçilik və heyvandarlıq sahələri üzrə subsidiya əmsalları və məbləğlərinə dair məlumata əlçatanlıq üçün ətraflı məlumat www.akia.gov.az saytı və kənd təsərrüfatı məhsullarının istehsalçılarına subsidiyaların verilməsinin təşkili üçün xidmət reqlamentləri www.dxr.az saytına yerləşdiriləcək.

# COP29-un "miras"ı - "Bakı İqlim Həftəsi 2026"

**Dünən paytaxtımızda "Bakı İqlim Həftəsi 2026" ("BCAW 2026") öz işinə başlayıb. Bu, iqlim dəyişmələri ilə mübarizə, enerji keçidi, bərpaolunan enerji, davamlı inkişaf və iqlim fəaliyyətinin sürətləndirilməsi məsələləri ətrafında müzakirələr üçün beynəlxalq platforma kimi nəzərdə tutulan bir tədbirdir.**

"Bakı İqlim Həftəsi 2026" iki il əvvəl Azərbaycanın evsahibliyi etdiyi COP29-un yadigarıdır. Belə ki, bu tədbir ilk dəfə o zaman "BCAW 2024" adı ilə keçirilib. "Bakı İqlim Həftəsi 2024" COP29 ərəfəsində həmin mühüm sammitə hazırlıq məqsədilə təşkil olunmuşdu. İkinci dəfə isə bu tədbir keçən il sentyabrın 29-dan oktyabrın 3-dək keçirilib və COP30-a gedən yolda Azərbaycanın iqlim öhdəliklərini möhkəmləndirib.

Qeyd edək ki, "Bakı İqlim Həftəsi" yalnız rəsmi şəxslərin deyil, cəmiyyətin bütün təbəqələrinin iqlim prosesinə cəlb edildiyi çoxyönlü bir forumdur. Tədbir bir sıra istiqamətləri əhatə edir və bu da onun əsas mahiyyətini açır. Əvvəla, bu tədbir qlobal dialoq və əməkdaşlıq məkanına çevrilib. Yəni müxtəlif ölkələrin dövlət rəsmilərini, beynəlxalq təşkilatları, biznes liderlərini, investorları, alimləri, vətəndaş cəmiyyətini və gəncləri bir araya gətirir. Yəni bu, bir icra forumudur, iqlim sammitlərində (məsələn, COP29-da) qəbul edilmiş qərarların və Paris Sazişinin maddələrinin kağız üzərindən real həyata necə keçiriləcəyini müzakirə edir.

Tədbir eləcə də əsas mövzuları ilə seçilir. Sessiyalarda, adətən, enerji keçidi, metan emissiyalarının azaldılması, bərpaolunan enerji sertifikatları, iqlim maliyyələşdirilməsi, karbon bazarları və innovativ "yaşıl texnologiya"lar diqqət mərkəzində olur.

Həftə inklüzivliyi və keçirdiyi tədbirlərlə də yaddaqalan olur. Belə ki, həftə çərçivəsində təkcə elmi və siyasi panellər deyil, həm də iqlim mövzusunda sərgilər, şəhər turları, incəsənət və mədəniyyət layihələri də reallaşdırılır.

Budəfəki tədbirin məkanı Bakı Konqres Mərkəzidir. Burada təqribən 2500-dək nümayəndə - dövlət və hökumət rəsmiləri, beynəlxalq təşkilatlar, biznes liderləri, investorlar və gənclər bir araya gəliblər. Onların əsas məqsədi iqlim öhdəliklərinin kağız üzərində qalmayaraq praktiki icrasına nail olmaq, "yaşıl enerji" keçidini sürətləndirmək və gələcək COP konfransları (COP31) ərəfəsində beynəlxalq əməkdaşlığı gücləndirməkdir.




Açılış mərasimini giriş sözü ilə açan Milli Məclisin deputatı, COP29 Təşkilat Komitəsinin üzvü, BCAW layihə rəhbəri Nigar Arpadarai bildirib ki, növbəti günlər ərzində mühüm müzakirələr aparılacaq: "Şəhərlərimizin gələcəyi ilə bağlı bir çox istiqamətdə müzakirələr təşkil olunacaq. Budəfəki iqlim danışıqlarını tarixi edən odur ki, ilk dəfə BMT mandatlı tədbirlərlə paralel keçiriləcək. Biz "yaşıl enerji" keçidini necə sürətləndirə biləcəyimizi, innovasiyaların və regional əməkdaşlığın bu prosesdə rolunu müzakirə edəcəyik. Ən əsası isə biz yalnız öhdəliklərə deyil, onların həyata keçirilməsinə diqqət yetirəcəyik. Biz davamlılıq məsələsini hətta incəsənət və idman kimi sahələrə də gətirəcəyik. Çünki iqlim fəaliyyəti yalnız bir sahəyə və ya bir sektora aid deyil-iqlim fəaliyyəti hamımıza aiddir".

"Bakı İqlim Fəaliyyəti Həftəsi 2026"nın açılış mərasimində çıxış edən xarici işlər nazirinin müavini, COP29-un Baş danışıqçısı Yalçın Rəfiyev də bu məsələlərə toxunub. Bildirib ki, bu istiqamət Türkiyənin Antalya şəhərində keçiriləcək COP31 üçün əsas prioritetlərdən biri olmalıdır: "İstiqamət aydındır: iqlim prosesi getdikcə öhdəliklərin müzakirəsindən onların reallaşmasına keçməlidir".

Y.Rəfiyevin sözlərinə görə, yeni nəsil Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (NDC) artıq yalnız ambisiyaları ifadə edən sənədlər olmamalıdır. Onlar milli hədəfləri konkret siyasət, texnologiya, infrastruktur və maliyyə ilə əlaqələndirən investisiya və icra planlarına çevrilməlidir: "Antalyada sual yalnız bu olmamalıdır ki, NDC-lərimiz nə dərəcədə ambisiyalıdır. Həm də sual belə olmalıdır ki, onları həyata keçirmək üçün nə lazımdır. Hansı investisiyalar, hansı texnologiyalar, hansı tərəfdaşlıqlar və ən əsası, maliyyə haradan gələcək?"

Tədbirdə enerji keçidi, sənayenin karbonsuzlaşdırılması və iqlim maliyyələşməsinin mənbələri müzakirə olunmaqdadır. Bu mövzulara emissiyaların azaldılması (karbon izlərinin və istixana qazı tullantılarının azaldılması yolları) aiddir.

Bərpaolunan enerji sahəsində diqqətdə olan günəş, külək və digər təmiz enerji mənbələrinin inkişafı və investisiyalardır. Əlbəttə, sektorlar üzrə dayanıqlılıq, məsələn, kənd təsərrüfatı, su ehtiyatları, nəqliyyat və "ağıllı şəhər"lər də diqqət mərkəzində dayanır. "Yaşıl iqtisadiyyat", o cümlədən dairəvi iqtisadiyyat, "sıfır tullantı" yanaşması və ədalətli keçid həmçinin günümüzün mövzusudur.

Qeyd edildiyi kimi, beynəlxalq əməkdaşlıq - hökumətlər və özəl sektor arasında tərəfdaşlıqlar, COP31 ərəfəsində iqlim fəaliyyəti də "Bakı İqlim Fəaliyyəti Həftəsi 2026"nın işindən qırmızı xətlə keçir.

Bir sözlə, "Bakı İqlim Həftəsi" bünövrəsinin qoyulduğu COP29-dan qalan tarixi mirası davam etdirir. Ölkəmiz bir daha qlobal "yaşıl iqtisadiyyat" və iqlim siyasətinin mühüm mərkəzlərindən biri kimi təsdiqlənir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# REGİONLAR

## Kənd təsərrüfatının inkişafına dair yeni dövlət proqramı həyata keçirilir

## Regional müşavirədə heyvan sağlamlığı məsələləri müzakirə olunub

**Göygöl rayonunda "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi istiqamətində görülməsi vacib olan məsələlərin müzakirəsinə həsr olunan regional müşavirə keçirilib.**

Rayon icra hakimiyyəti və Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən müşavirədə Gəncə şəhəri, Göygöl, Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Samux rayonlarının baytarlıq idarələrinin rəisləri və əməkdaşları, həmçinin özəl baytar həkimləri iştirak etmişlər.

Tədbiri rayon icra hakimiyyətinin başçısı Vüqar Novruzov açaraq heyvanlar arasında yoluxucu xəstəliklərin qarşısının alınması və aradan qaldırılması istiqamətində görülməsi vacib olan işlərdən, həmçinin Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aqrar sektorun inkişafı, ərzaq təhlükəsizliyinin təmin olunması və kənd təsərrüfatında müasir texnologiyaların tətbiqi istiqamətində qarşıda duran vəzifələrdən danışmışdır.

Sonra Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri Mərkəzinin rəis müavini Azər Məmmədov çıxış etmişdir. O, ölkədə epizootik sabitliyin qorunub saxlanılmasının mühüm əhəmiyyət kəsb etdiyini qeyd etmiş, dövlət-özəl baytarlıq münasibətlərinin inkişafından, daha çevik baytarlıq xidmətlərinin yaradılmasının vacibliyindən, aparılan tədbirlərin rəqəmsallaşdırılmasından, "Epizootiya əleyhinə tədbirlər planı"na uyğun olaraq, vaksinasiya tədbirlərinin vaxtında və keyfiyyətlə həyata keçirilməsinin vacibliyindən söhbət açmışdır.



Müşavirədə qeyd olunan rayonların Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri idarələrinin rəhbərləri, eləcə də özəl baytar həkimləri çıxış edərək bölgədə epizootik vəziyyət barədə məlumat vermişlər.

Tədbirdə peyvəndləmə işlərinin vaxtında və keyfiyyətlə həyata keçirilməsi, eləcə də mövcud çatışmazlıqların qısa müddətdə aradan qaldırılması üçün Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri idarələrinə tapşırıq və tövsiyələr verilmişdir.

Müşavirənin sonunda səyyar baytarlıq xidmətlərini həyata keçirən və müasir texniki avadanlıqlarla təchiz olunmuş nəqliyyat vasitəsinin təqdimatı keçirilmişdir.

***S.YUNİSOĞLU, "Azərbaycan"***

## Hacıqabulda aqrar müəssisələrin problemləri öyrənilir

**"Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icrası ilə əlaqədar Hacıqabulda tədbirlər davam edir.**

Bu tədbirlər çərçivəsində rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmov Muğan qəsəbəsi ərazisində yerləşən "Agro Dairy" MMC-də və Meyniman kəndi ərazisində yerləşən "Angus Heyvandarlıq və Aqro" MMC-də olub. O, müəssisələrin fəaliyyəti, həyata keçirilən layihələr, istehsal imkanları və heyvandarlıq təsərrüfatında görülən işlərlə maraqlanıb. Qonağa istehsal prosesi, təsərrüfatların fəaliyyəti, heyvandarlığın inkişafı və mövcud istehsal göstəriciləri barədə məlumat verilib.



Görüşlər zamanı kənd təsərrüfatı və heyvandarlıq sahələrinin inkişafı, müasir texnologiyaların tətbiqi, məhsuldarlığın və istehsal potensialının artırılması, eləcə də dövlət proqramından irəli gələn tədbirlərin rayonda icrası ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb, aqrar sahədə mövcud imkanlardan səmərəli istifadə olunması, istehsalın genişləndirilməsi və təsərrüfatların fəaliyyətinin inkişafı istiqamətində qarşıda duran vəzifələr müzakirə edilib.

***"Azərbaycan"***

## Bağçılıq subsidiyalarının şərtləri sadələşdirilir

**Bağların salınması zamanı fermerlərin subsidiya əldə etməsini asanlaşdırmaq məqsədilə bir sıra mövcud tələblər sadələşdirilib.**

Bütün ölkə üzrə bağların salınması zamanı sertifikatlı ting tələbi saxlanılmaqla, torpağın elektrik keçiriciliyi - EC və viruslardan azadolma ilə bağlı analiz tələbi aradan qaldırılır. İntensiv texniki və süfrəlik üzüm bağlarına verilən bağçılıq subsidiyası bütün ölkə ərazisinə şamil edilir. İntensiv zeytun bağlarında minimum sahə tələbi 50 hektardan 5 hektara, Naxçıvan MR-də isə bütün bağlar üzrə minimum sahə tələbi 1 hektara endirilir.

Eyni zamanda intensiv püstə bağları üzrə yüksəklik həddi 1000 metrədək artırılır. Qarabağ və Şərqi Zəngəzurda nar üzrə minimum yüksəklik tələbi ləğv edilir, zeytun üzrə maksimal yüksəklik 300 metrədək artırılır, Naxçıvanda isə qoz bağları üzrə minimum yüksəklik tələbi aradan qaldırılır.

## Moruq yemək istəyən Göygölə gəlsin

### Rayonda III Moruq Festivalı keçirilib

**Göygöl Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Turizm Agentliyinin, "AzerGold" QSC-nin, Aqrar İnnovasiya Mərkəzinin, Dövlət Reklam Agentliyinin, KOBİA-nın Gəncə-Qazax Regional koordinatorluğunun dəstəyi ilə Keşkü kəndi ərazisində III Moruq Festivalı keçirilmişdir.**

Bölgənin turizm sektoru üzrə rəqabət qabiliyyətini yüksəltmək, aqroturizmin inkişafına dəstək vermək, rayonun unikal cəhətlərini, burada istehsal olunan kənd təsərrüfatı məhsullarını tanıtmaq, moruq istehsalının təşviqi yolu ilə iqtisadiyyatın inkişafına töhfə vermək üçün keçirilən festivalı giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Vüqar Novruzov açmışdır. Diqqətə çatdırmışdır ki, Prezident İlham Əliyev tərəfindən ölkəmizdə aqrar sahənin inkişafı prioritet istiqamətlərdən biri elan olunmuşdur: "Hazırda ölkəmizdə kənd təsərrüfatı sahəsində innovasiyalar və müasir texnologiyaların tətbiqinə, davamlı inkişaf prinsiplərinə önəm verilir". Bu baxımdan, rayonda moruqçuluq təsərrüfatının inkişaf etdiyini vurğulayan RİH başçısı hər il təşkil olunan moruq festivalının aqrar və turizm sahələrinin inkişafına mühüm töhfələr verəcəyinə əminlik ifadə etmişdir.

Qeyd edək ki, festivalda ziyarətçilərə moruq istehsalı ilə daha yaxından tanış olmaq imkanı yaradılmış, yerli istehsalçılar tərəfindən təqdim olunan moruq sortlarının dequstasiyası və satışı təşkil edilmişdir. Festivala gələn ziyarətçilər 100-ə yaxın fermer və sənətkarın istehsal etdiyi məhsullar və xalq tətbiqi sənətkarlıq nümunələri ilə tanış olmuş, bəyəndikləri məhsulları ən sərfəli qiymətə almaq imkanı qazanmışlar. Tədbir çərçivəsində qonaqlar üçün müxtəlif əyləncəli şou proqramlar da nümayiş olunmuşdur.

İki gün davam edən festival zamanı ziyarətçilər kənd təsərrüfatı məhsullarının sərgi-satış yarmarkasına, moruq təsərrüfatı guşəsinə baş çəkmiş, müxtəlif dequstasiya tədbirlərində iştirak etmiş, ustad dərslərini izləmişlər. Ziyarətçilər, eyni zamanda açıq havada konsert proqramını, idmançıların nümunəvi çıxışlarını izləmək imkanı qazanmışlar.

Festival məhsul bayramı xarakteri daşımaqla yanaşı, moruq istehsalçılarına yeni işgüzar əlaqələr qurmağa, məhsullarını geniş auditoriyaya tanıtmağa imkan vermişdir.









Ümumiyyətlə, Göygöl ən çox giləmeyvə, o cümlədən moruq becərən rayonlardan biridir. Bu faydalı giləmeyvə əvvəllər dağlıq ərazilərdə, su mənbələrinin kənarlarında yetişdirilirdisə, son illər böyük ərazilərdə sənaye üsulu ilə əkilib becərilir. Fermerlər moruğun daha məhsuldar olan "polka" və "polyana" sortlarını becərməyə üstünlük verirlər.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Cəlilabad təhsili nümunə göstərir

### Bu il rayon üzrə 528 məzun ali məktəblərə qəbul olmuşdur



**Cəlilabadda təhsil işçilərinin konfransı keçirilib. Rayon icra hakimiyyətinin başçısı Rafiq Cəlilov, Lənkəran-Astara Regional Təhsil İdarəsinin müdiri Bəhruz Mehdiyev, idarənin rayon üzrə təhsil sektorunun müdiri İlkin Zeynalov və təhsil işçilərinin iştirak etdikləri konfrans Ümummilli Lider Heydər Əliyevin abidəsinin ziyarəti ilə başlayıb.**

Konfransda çıxış edən Rafiq Cəlilov təhsil sahəsində görülən işlərin əhəmiyyətini vurğulayıb, müəllim və təhsil işçilərinin fəaliyyətini yüksək qiymətləndirib. RİH başçısı rayonun təhsil sisteminin inkişafı, infrastrukturun yaxşılaşdırılması və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.

Sonra İlkin Zeynalov hesabat məruzəsi ilə çıxış edib. Məruzədə ötən dövr ərzində görülən işlər, təhsil göstəriciləri, müəllimlərin peşəkar inkişafı və şagird nailiyyətləri barədə ətraflı məlumat verilib. Bəhruz Mehdiyev isə regional təhsil siyasəti, qarşıda duran vəzifələr və gələcək planlar haqqında danışıb, təhsil işçilərinin peşəkarlığını artırmaq, təhsilin keyfiyyətini yüksəltmək və müasir tələblərə uyğun şərait yaratmaq istiqamətində görüləcək işlərdən söz açıb.

Təhsil sektorunun verdiyi hesabata görə, 2026/2027-ci tədris ili üçün Cəlilabadda 77 tam, 35 ümumi orta, 9 ibtidai və 20 məktəbəqədər təhsil müəssisəsi var.

### Məktəb tikintisi

cari ilin yay tətili dövründə də davam edib. Xəlilli, Cəlayir, Bədirli kənd tam orta məktəbləri üçün 96 şagirdlik modul tipli məktəblərin tikintisinə başlanılıb, Bədirli kənd tam orta və Uzuntəpə kənd 3 saylı ümumi orta məktəblərinin hər biri üçün eyni sayda - 96 şagirdlik bu cür məktəblərin tikintisinə başlanması nəzərdə tutulub. Elm və Təhsil Nazirliyi tərəfindən hər biri 180 yerlik olmaqla, modul tipli layihə əsasında Musalı və Kövzübulaq kəndlərində məktəb tikintisi davam edir. Bu məktəblərin əksəri dərs ilinin əvvəlində, bəziləri isə cari tədris ili ərzində istifadəyə veriləcək. Tikililərdə əsasən binadaxili işlər yekunlaşıb, onlar yeni avadanlıqlarla və lazımi vəsaitlərlə təmin edilib.

### Təmir-bərpa işləri

həmişəki kimi, diqqət mərkəzindədir. Məktəblərdə yeni dərs ilinin başlanması ilə bağlı lazımi təmir işləri aparılır. Təzəkənd 1 saylı və Privolnoye kənd 2 saylı tam orta məktəblərində dam örtüyü, döşəmə və tavan hissəsinin dəyişdirilməsi, pəncərə və qapıların yenisi ilə əvəz edilməsi, sanitar qovşağının tikintisi davam edir. Məlikqasımlı, Boyxanlı, Xanəgah, Şatırlı, Ləkin, Adnalı, Cəngan, Dövlətbəyli, Hamarqışlaq, Alar 2, Alar 3, Uzuntəpə 2, Göytəpə 1, Ocaqlı 2, Zərbəli kənd məktəblərində 2-4 otaqdan ibarət sanitar qovşaqlarının tikintisi aparılır. Zərifə Əliyeva adına 7 saylı tam orta məktəbin bütün mərtəbələrində yerləşən sanitar qovşaqlarında da təmir gedir.

### Yeni layihələr

cari tədris ilində də keçirilir. Şəhər 1, 4, 7, 8 saylı, Göytəpə şəhər 1 saylı, Əliqasımlı, Muğanlı kənd tam orta məktəblərində "Rəqəmsal bacarıqlar" layihəsinin tətbiqinə başlanılıb. Məktəblərə bu məqsədlə ümumilikdə 200 əlavə şagird partası verilib. 2026/2027-ci dərs ilində Cəlilabad 4, Göytəpə şəhər 2 saylı tam orta məktəblərinin bazasında Tam Orta Məktəb (TOM) layihəsi həyata keçiriləcək. Məqsəd X və XI siniflərdə təhsil alan şagirdləri təmayüllər üzrə təhsilə cəlb, həmçinin repititor xidmətindən istifadə edilmədən, sosial durumundan asılı olmayaraq bütün şagirdlərin ümumtəhsil məktəblərində yüksək təhsilalma imkanlarını təmin etmək, onların ali və orta ixtisas müəssisələrinə qəbuluna nail olmaqdır. Bundan əlavə, Cəlilabad şəhər 1 saylı texniki və təbiət təmayüllü liseyin 7, 8, 9-cu siniflərinə mərkəzləşdirilmiş qaydada şagird qəbulu həyata keçirilib, hazırda nəticələr emal edilir. 396 şagird arasından 150-si qalib olacaq.

Məktəblərin özünüqiymətləndirməsi, məktəb pasportlarının hazırlanması və SWOT təhlillərinin nəticələri, dərsdinləmənin təşkili, məktəbdaxili qiymətləndirmənin obyektivliyi, zəif nəticə göstərən şagirdlərlə aparılan məqsədyönlü işlər, müəllimlər arasında əməkdaşlıq da təhsil müəssisələrində təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradır.

### Şagird nailiyyətləri

cəhətdən yola saldığımız 2025/2026-cı tədris ilini uğurlu hesab etmək olar. Zona və respublika miqyaslı tədbirlərdə, o cümlədən respublika fənn olimpiadalarında 2 cəlilabadlı şagird qızıl, 2-si gümüş medal qazanmışdır. "Sabahın alimləri" XV Respublika layihə müsabiqəsində isə Göytəpə şəhər 1 saylı məktəbin komandası üçüncü olmuşdur. Xanəgah tam orta məktəbin 7-ci sinif şagirdi təbiət-biologiya üzrə respublika fənn müsabiqəsində 1-ci, 2 saylı tam orta məktəbin şagirdi 3-cü yerə layiq görülmüşlər. Bunlardan əlavə, Musalı kənd tam orta məktəbin komandası "Sərhədçi" hərbi idman oyunlarında 1-ci yeri tutaraq Respublika kubokunun sahibi olmuşdur.

### Təhsilin göstəricisi

adətən, ali məktəbə qəbulla müəyyən edilir. Başa vurduğumuz təhsil ilinin nəticələri də ürəkaçandır. Qəbul imtahanlarının 1-ci mərhələsində 528 məzun tələbə adını qazanmışdır. Onlardan 15 nəfəri 600, 71 nəfəri 500-dən yüksək bal toplamışdır. Qəbul olunanlar arasında qızların sayı kifayət qədərdir.

***Seyran CAVADOV, "Azərbaycan"***

## "AzerGold" Söyüdlü (Zod) qızıl yatağında ilk qazma-partlayış əməliyyatını həyata keçirib

**"AzerGold" QSC Qafqazın ən böyük qızıl yatağı hesab olunan Söyüdlüdə (Zod) istismar işlərinin növbəti mərhələsinə keçib. Mədənin istismara hazırlanması çərçivəsində ilk qazma-partlayış əməliyyatı uğurla həyata keçirilib.**

İlk süxur partlayışı təsdiq edilmiş texniki layihə və təhlükəsizlik tələblərinə uyğun icra olunub. Əməliyyatdan əvvəl təhlükəsizlik perimetri təmin edilib, xəbərdarlıq siqnalları verilib və ərazidə zəruri nəzarət tədbirləri görülüb. Partlayışdan sonra sahənin təhlükəsizliyi mütəxəssislər tərəfindən yoxlanılıb.









Qeyd edək ki, 2025-ci ilin avqust ayından yataqda genişmiqyaslı geoloji tədqiqat, topoqrafik planlaşdırma və ümumi dərinliyi 18 000 metr olan buruq-qazma işləri həyata keçirilib. Aparılan geoloji tədqiqat və kəşfiyyat işlərinin nəticələrinə əsasən, Söyüdlü qızıl yatağının çıxarıla bilən qalıq ehtiyatları faydalı qazıntı yataqlarının iqtisadi qiymətləndirilməsi üzrə beynəlxalq səviyyədə qəbul edilmiş JORC (Joint Ore Reserves Committee) standartlarına uyğun olaraq 1,03 milyon unsiya həcmində hesablanıb.

İlk partlayış əməliyyatı yataqdakı resursların iqtisadi dövriyyəyə cəlb edilməsi və mədənin aktiv istismar mərhələsinə keçidi istiqamətində mühüm addımdır.

"AzerGold" QSC həmçinin Söyüdlü mədənində müasir geotexniki monitorinq texnologiyasının tətbiqinə başlayıb. Mədənin geotexniki qeyri-sabitliyi və müxtəlif ekzogen-geoloji proseslərin aktivliyi nəzərə alınaraq, proseslərə fasiləsiz nəzarət məqsədilə "GroundProbe SSR-OMNI" yamac dayanıqlığının radar monitorinq sistemi işə salınıb.

Erkən xəbərdarlıq funksiyasına malik sistem mümkün riskləri əvvəlcədən müəyyən etməyə və sürüşmə təhlükəsinin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər görməyə imkan verir. Sistemin tətbiqi istehsalat proseslərində insan həyatının, işçi heyətin və ağır texnikanın təhlükəsizliyinin təmin olunmasına, eləcə də mümkün sürüşmələr səbəbindən yaranacaq fasilə və əlavə xərclərin qarşısının alınmasına xidmət edir.

Yatağın istismarı ilə yanaşı, filizin emalı üzrə texnoloji həllərin formalaşdırılması istiqamətində də işlər davam etdirilir. Söyüdlü filizinin mineralogiyası və metallurgiya xüsusiyyətləri, həmçinin aparılan sınaqların nəticələri əsasında ilkin emal mərhələsində flotasiya texnologiyasının tətbiqinin zəruri olduğu müəyyən edilib. Bu məqsədlə müasir flotasiya emal kompleksinin yaradılması imkanları üzrə texniki və iqtisadi qiymətləndirmələr aparılır.

Mədənin istismara verilməsi ölkənin dağ-mədən sektorunda istehsal potensialının yüksəldilməsinə və dövlət büdcəsinə daxilolmaların artırılmasına töhfə verməklə yanaşı, Kəlbəcər rayonunda yeni iş yerlərinin açılmasına, yerli iqtisadi fəallığın və sosial inkişafın dəstəklənməsinə şərait yaradacaq.

İndiki mərhələdə Söyüdlü layihəsi üzrə, podrat şirkətlər də daxil olmaqla, ümumilikdə 236 nəfərin məşğulluğu təmin edilib. Onlardan 55 nəfəri Kəlbəcər rayonunda qeydiyyatda olan vətəndaşlardır. Dağ-mədən sənayesində xüsusi ixtisas, texniki bilik və iş təcrübəsi tələb edən vəzifələr üzrə yerli əmək bazarında uyğun namizədlərin məhdudluğu nəzərə alınaraq, digər regionlardan müvafiq kvalifikasiya və təcrübəyə malik mütəxəssislər də layihəyə cəlb edilib.

Layihənin ilkin istismar və tikinti mərhələsini əhatə edən 2026-2029-cu illərdə birbaşa və dolayı yolla təxminən 700 nəfərin işlə təmin olunması nəzərdə tutulur. Söyüdlü mədəninin tam istismar mərhələsinə keçməsindən sonra isə birbaşa və dolayı məşğulluğun 1 300 nəfərdən çox olacağı gözlənilir.

***"Azərbaycan"***




Burulğan

# Cəfər Cabbarlı - həqiqət sirr saxlamır

**Azərbaycanın görkəmli dramaturqu, şair və nasiri, rejissor və teatr xadimi Cəfər Cabbarlı milli mədəniyyətimizin və ictimai fikrimizin inkişafında misilsiz xidmətləri olan şəxsiyyətlərdəndir. XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatına qədəm qoyan bu qüdrətli sənətkar cox qısa - 35 illik ömür yaşamışdır. Lakin yaradıcılığı ilə bütün bir dövrün ruhunu, cəmiyyətin ağrılarını, xalqın azadlıq və işıqlı gələcək uğrunda mübarizəsini əks etdirmişdir.**

O, sadəcə, bir yazıçı deyildi, həm də dövrünün əsl ziyalısı, milli oyanış hərəkatının əsas simalarından biri idi. Cəfər Cabbarlının yaradıcılığı Azərbaycan dramaturgiyasında yeni bir mərhələnin - psixoloji realizmin və ideya-fəlsəfi dramın əsasını qoymuşdur. Onun qələmə aldığı əsərlər bu gün də aktuallığını qoruyur, səhnələrdən düşmür və hər bir azərbaycanlının mənəvi dünyasının zənginləşməsinə xidmət edir.

Qüdrətli sənətkar üç siyasi şəraitdə - çar Rusiyası, Azərbaycan Xalq Cümhuriyyəti və sovet dövründə yaşayan, yaşından xeyli irəli getmiş yaradıcılıq dühası ilə hər zaman hamını heyrətləndirməyi bacarmışdır. Onun böyüklüyü onda idi ki, qələmə aldığı əsərlərlə həmin illərin hər birinin tarixi mənzərəsini yarada bilmişdir. İnqilaba qədərki dövrdə romantik ruhlu şeirlər və ilk dram əsərləri - "Vəfalı Səriyyə", "Solğun çiçəklər"i qələmə almışdı. Azərbaycan Xalq Cümhuriyyəti illərində demokratik ruhlu ziyalılardan və onların ideallarından ilhamlanaraq "Aydın", "Oqtay Eloğlu" kimi əsərlərində azadlıq, milli qürur və sənətkar taleyi kimi mövzuları qabartmışdır. Sovet hakimiyyətinin qurulmasından sonra da maarifçilik missiyasını davam etdirən sənətkar "Sevil", "Almaz", "Yaşar" və "Od gəlini" kimi şah əsərlərini yazmışdır. Bu əsərlərdə o, xüsusilə qadın azadlığı, cəmiyyətin geriliyə qarşı mübarizəsi, elm və mədəniyyətin təbliği istiqamətində mühüm ideyalar irəli sürmüşdür.

Ədibin formalaşmasında Bakıdakı maarifçi mühit, xüsusilə də məşhur "Nicat" və "Səfa" cəmiyyətlərinin fəaliyyəti mühüm rol oynamışdır. Gənc yaşlarından ictimai işlərə fəal qoşulan Cəfər Cabbarlı mətbuatda şeirləri, məqalələri və tərcümələri ilə çıxış etmiş, 1917-ci ildən etibarən isə dramaturq kimi tanınmağa başlamışdır. Cəfər Cabbarlının həyatı və yaradıcılığı sovet dövrünün ilk onilliklərində - kütləvi siyasi repressiyaların və ideoloji təzyiqlərin güclənməyə başladığı mürəkkəb bir dövrə təsadüf edir. Hərçənd o, 1937-ci ilin dəhşətli qırğınlarını görmədi, 1934-cü ilin dekabrında vəfat etdi, lakin ömrünün sonuna qədər təqiblərə, gizli nəzarətə və repressiya təhdidlərinə məruz qalan sənətkarlardan oldu.

## Gizli partiya

Cəfər Cabbarlının siyasi dünyagörüşünün formalaşmasında yaxın dostu və həmkarı Mirzə Bala Məmmədzadənin böyük rolu olmuşdur. O, dostunun təsiri ilə həm "Yaşıl qələm" Cəmiyyətinə, həm də Müsavat Firqəsinə üzv yazılmış və firqənin işində fəal iştirak etmişdir. C.Cabbarlı qurultaylardakı çıxışları ilə Azərbaycan kəndlisinin acınacaqlı durumundan bəhs edir, torpaq islahatlarının aparılmasının zəruriliyini bildirirdi. Səsləndirdikləri kəskin tənqidi fikirlərə görə onu və dostlarını radikal sol müsavatçılar da adlandırırdılar.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə isə Cəfər Cabbarlı parlamentdə stenoqrafçı-katib işləyir, parlamentin rəsmi orqanı olan "Azərbaycan" qəzetində tərcüməçilik fəaliyyəti ilə məşğul olur və milli istiqlal ruhlu şeirlər, dram əsərləri yazırdı. Azərbaycan Məclisi Məbusanının sonuncu fövqəladə iclasının keçirildiyi və qırmızı ordunun təhdidləri ilə hakimiyyətin bolşeviklərə verildiyi 27 aprel gecəsi bir qrup gənc vətənpərvər ana yurdunun gələcək taleyinin, istiqbalının müzakirəsi üçün bir yerə toplaşır. Cəfər Cabbarlının şəhər kənarındakı iqamətgahında toplaşan vətən mücahidləri ilk dəfə olaraq gizli Partiya "Mərkəzi-Ümumi"sini qurmuşlar. Cəfər Cabbarlı bu partiyada Mərkəzi Komitəyə rəhbərlik edirdi.

Bu insanlar Şərq xalqlarının azadlıq mübarizəsində, Azərbaycanın müstəqilliyinin təmin olunmasında yeni hökumətlə də əməkdaşlığa hazır idilər. Hətta xalq komissarı Həmid Sultanov vasitəsilə Azərbaycan İnqilab Komitəsinə bu barədə bəyannamə də təqdim etmişdilər. Amma yeni hökumət bu bəyannaməyə təqiblərlə, bolşevik irticasının sərt üzü ilə cavab verirdi. 1922-ci ilin payızından artıq onların həbsinə hazırlıq gedirdi. Məsələ Zaqafqaziya Fövqəladə Komissiyasının (ÇK) sədr əvəzi V.Pankratovun birbaşa nəzarətində idi. ÇK agentləri partiyanın digər fəal təmsilçiləri kimi, Cəfər Cabbarlının da fəaliyyətini diqqətlə öyrənir, onun şəxsi əlaqələrini üzə çıxarmağa çalışırdılar. Azərbaycan Fövqəladə Komissiyasının Agentura şöbəsinin 5 may 1923-cü il tarixli məxfi məlumatında isə onun yaşayış yerinin - Bakı şəhəri, Böyük Salyan küçəsi, ev 4 ünvanının həbs üçün dəqiqləşdirildiyini görürük (professor Asif Rüstəmli, "Cəfər Cabbarlı və milli istiqlal hərəkatı" kitabı).

1923-cü ilin 14 iyun axşamı, işdən sonra onu evində həbs edirlər və mənzilində axtarış aparırlar. Əməliyyata Danilyan soyadlı erməni rəhbərlik edirdi. Axtarış və həbs orderini isə Azərbaycan ÇK-nın sədri Mircəfər Bağırov imzalamışdı. Axtarış zamanı hökumət əleyhinə nəsə aşkar edilməsə də, ədibin bütün sənədləri, bədii əsərlərinin əlyazmaları yoxlanılmaq üçün müsadirə edilmişdi. Həmin gecə Cəfər Cabbarlı ilə birgə 15 nəfər tanınmış ziyalı, ictimai-siyasi xadim, jurnalist də həbs olunmuşdu. Onların sırasında Əbdül Vahab Məmmədzadə, Məmməd Sadıq Quluzadə, Seyid Hüseyn Sadıq, Rəhim bəy Vəkilov, Kərbəlayi Vəli Mikayılzadə, Həmid Qarayev, Novruz Ağazadə, Nəriman bəy Nərimanbəyli, Əli Əfsər Nəcəfzadə, Məhəmməd Səid Axundzadə, Əli Əkbər Süleymanzadə kimi mübariz istiqlal mücahidləri, gənc vətənpərvər və millətsevər ziyalılar var idi.

Həbsindən iki gün sonra - iyunun 16-da müstəntiqlər onu ilk dəfə dindirirlər. Azərbaycan ÇK-nın Qeydiyyat-Statistika hissəsi tərəfindən adına 454 nömrəli cinayət işi açılır. İstintaqın ilk günü müstəntiqlər bütün fiziki təzyiq və işgəncə metodlarından istifadə etsə də, Cəfər Cabbarlıdan ciddi bir söz qopara bilmirlər.

## İstintaq prosesi və dindirilmələr

Ədibin ÇK-nın katibi və kollegiya üzvü Ə.Axundova 28 iyul tarixli bir məktubundan belə anlaşılır ki, onun məhbəs günləri Bayıl həbsxanasında yox, XI ordunun xüsusi şöbəsinin zirzəmisində keçib. Cəfər Cabbarlını ÇK-nın Valik və Vladimir adlı iki müstəntiqi sorğu-sual ediblər. Onu gizli Müsavat partiyasında təbliğat-təşviqat sahəsinə rəhbərlik etməkdə, Gürcüstan menşevikləri ilə danışıqlar aparmaqda günahlandırıblar. Mirzə Bala deyirdi ki, Cəfər Cabbarzadə partiyanın təbliğat-təşviqat işinə cəlb edildikdən sonra cəmi iki ay işlədi. Bundan sonra o, işdən yayınmağa və tamamilə kənarlaşmağa başladı. O özünü, əməyini və təhsilini teatr işinə həsr edirdi. Səhnəyə qoyulmaq üçün əsərlər yazır və tamamilə bu işlə məşğul olurdu.

İstintaqın aparıldığı bütün mənbələrdə Mirzə Bala Məmmədzadənin ciddi axtarıldığı xüsusi vurğulanırdı. Lakin o, mühacirət etdiyi üçün həbsi mümkün olmadığından bolşeviklər bu partiya ilə bağlı gələcək fəaliyyətləri izləməkdən ötrü gözlənilməz taktika seçdilər. Həbs olunan müsavatçıların, o cümlədən Cəfər Cabbarlının imzası ilə "Kommunist" qəzetinin 14 avqust 1923-cü il nömrəsində "Müsavatçıların bəyannaməsi" adlı material dərc edildi. Bəyannamədə şura hökumətinin inkişaf platformasına dəstək verilir, müsavatın məxfi təşkilatının buraxıldığı bəyan edilirdi. Bəyannamənin qəzetdə dərcindən bir gün əvvəl isə onları azadlığa buraxdılar. Onların azadlığa çıxmasında Azərbaycan ÇK-nın katibi və kollegiya üzvü vəzifəsində çalışan, sonralar isə "Azərnəşr"in direktoru işləmiş Əsəd Axundovun böyük rolu olmuşdu. Əfsuslar ki, Ə.Axundov özü də sonralar Mircəfər Bağırovun qəzəbinə gəldi və 1937-ci ildə həbs edilərək 2 il sonra güllələndi.



## Sonu görünməyən təqiblər

Cəfər Cabbarlının və əqidə yoldaşlarının azadlığı uzun sürmədi. 1923-cü il oktyabrın 5-dən 6-na keçən kecə istiqlal fədailərinin böyük və fəal bir qrupu - 20 nəfər yenidən həbs edildi. Cəfər Cabbarlı da onların arasında idi. Bu dəfə gəncləri sol müsavatçıların gizli nəşri olan və 19 sayı işıq üzü görmüş "İstiqlal" qəzetinin mətbəəsinə görə həbs etmişdilər. Gizli mətbəə qonşulardan birinin milisə satqınlığı nəticəsində aşkar olunmuşdu. "İstiqlal" qəzeti üçün məqalələrin yazılmasında və materialların çapa hazırlanmasında Cəfər Cabbarlı fəal iştirak etmişdi. Amma istintaqçılar onunla söhbətdə ən çox Mirzə Bala Məmmədzadənin yerini öyrənmək istəyirdilər. Cəfər Cabbarlının onunla yaxın dost olduğunu bildiklərindən istədikləri məlumatları almaqdan ötrü ədibə sonsuz işgəncələr verir, onu soyuq payız günündə su dolu quyuya salırdılar. Amma bu sısqa vücuddakı dəmir iradəni qırmaq mümkün deyildi.

"Cəfər Cabbarlı və milli istiqlal hərəkatı" kitabında göstərilirdi ki, arxiv sənədləri diqqətlə nəzərdən keçirildikcə həbsxana divarları arasında fiziki zorakılığa məruz qalan, qol-qabırğası sındırılan, lakin mənən sınmayan, mətanət və iradə nümayiş etdirən gənc ədibin ləyaqətinə və şəxsiyyətinə heyran qalmamaq mümkünsüzdür. Cabbarlıya qarşı intensiv "işgəncə kursu" oktyabrın 5-dən 13-dək davam etdirilmişdir.

Ədibin ikinci həbs müddəti oktyabrın 29-na qədər çəkir. Onun həbsdən buraxılmasını sürətləndirən qəribə bir təsadüf repressiya illərində insan talelərinin səlahiyyət sahiblərinin əlində necə oyuncağa çevrildiyini göstərir. Cəfərin ad və soyadının ÇK sənədlərində səhvən "Djabar Zade Kafar" kimi yazılması onun həyatını xilas edir. Belə ki, Gəncədən Mircəfər Bağırova məktub yazaraq üç ay əvvəl həbs olunub Bakıya gətirilmiş həyat yoldaşının istintaqının sürətləndirilməsini xahiş edən Dilbər Kafiyeva soyadlı bir şəxsin müsbət dərkənarlı ərizəsini istintaq orqanları "Djabar Zade Kafar"la səhv salırlar. Onun 791 saylı cinayət işi digər istiqlalçıların işindən ayrılır. İşə baxılması sürətləndirilir. Yekun qərarda Cəfər Cabbarlının ləğv edilmiş Müsavat partiyası ilə heç bir əlaqəsinin olmadığı göstərilir və o, oktyabrın 30-da azadlığa buraxılır.

Sovet dövründə tədqiqatçılar zəmanənin ağır şərtlərindən irəli gələrək ədibin yaradıcılıq irsindən əsasən sosializm realizminə gərək olanları götürüblər. Onun milli ruh, istiqlal duyğuları ilə zəngin bir çox tamaşa və pyeslərini, poeziyasını isə ən yaxşı halda ad çəkmədən məfkurəvi cəhətdən ziyanlı, bədii cəhətdən zəif əsərlər kimi səciyyələndiriblər.

Cəfər Cabbarlının 1917-ci ildə Osmanlı tarixi ilə bağlı qələmə aldığı "Trablis müharibəsi" və ya "Ulduz", "Ədirnə fəthi" kimi pyesləri on illər boyu gün işığına çıxarılmadı. Onlar türk məişətini, qəhrəmanlığını və şücaətini təbliğ etdiyi üçün hələ yazıldığı gündən vulqar və sovet tənqidi tərəfindən "pantürkist", "panislamist" təmayüllü əsərlər kimi qarşılanırdı. Az sonra isə tamamilə səhnədən çıxarılıb. Bu əsərlər ötən əsrin 80-ci illərinin sonlarına qədər arxiv qəfəslərində "məhbəs həyatı" yaşamalı olub.

*İradə ƏLİYEVA, "Azərbaycan"*

Günahsızlar

# İstiqlal ruhlu ziyalı

**1920-ci ildə Azərbaycan XI qızıl ordu tərəfindən işğal edildikdən sonra bolşevik-erməni birləşmələrinin hədəfinə çevrilən yüzlərlə ziyalılarımızdan biri də şair, pedaqoq, ədəbiyyatşünas və mətbuat xadimi Əmin Abid olmuşdur.**

Əmin Abid 1898-ci ildə Bakıda Mütəllib Əhmədovun ailəsində anadan olub. Atası məşhur daşyonan usta idi. Anası Reyhan evdə paltar tikir, qadınlara və uşaqlara əlifbanı, Quran oxumağı öyrətməklə çörəkpulu qazanıb ailənin dolanışığını təmin etməkdə ərinə yardımçı olurdu. Əmin qardaşları Əbülfəz və Əliabbas kimi ibtidai təhsilini anası Reyhan xanımın evdə açdığı məktəbdə alıb, sonra şəhərdəki III Aleksandr Oğlan Gimnaziyasında davam etdirib.

O, valideynlərinin tövsiyəsi ilə ali təhsil almaq üçün 1914-cü ildə Türkiyəyə getməyi qərarlaşdırır. Lakin I Dünya müharibəsinin başlaması ona bu arzusunu həyata keçirməyə mane olur. O, qardaşı sair Əliabbas Müznibin naşiri olduğu "Dirilik" və "Babayi-Əmir" jurnallarında işləməyə başlayır. Müxtəlif imzalarla hekayə, şeir, məqalə və tərcümələr çap etdirir. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulanda bir çox azərbaycanlı gənci kimi, onun da arzusu gerçəkləşir. Pedaqoji təhsil almaq üçün Türkiyəyə gedir, İstanbul Universitetinin Ədəbiyyat fakültəsinə daxil olur.

Tələbəlik illərində bədii yaradıcılıqla məşğul olan Əmin hətta "Azərbaycan türklərinin ədəbiyyat tarixi" adlı monoqrafik əsər də yazır. 1920-ci ildə cümhuriyyət süqut edəndə, vətəndən gələn acı xəbərlər onun yaradıcılığına ciddi təsir edir. "Yeni Qafqaz", "Azəri-türk", "Odlu yurd" və digər jurnallarda Gültəkin imzası ilə şeirlər dərc etdirir. Sibir sürgünlərinə, təqib və təhqirlərə qarşı etiraz səsini ucaldır. Bütün bunlar şairi sovet quruluşunun düşməni və antisovet ruhlu şeirlər müəllifi kimi tanıdır.

Əmin tələbə olarkən onunla eyni universitetdə aşağı kursda oxuyan, almanəsilli Nafiə ilə ailə qurur. Əmin Abid 1927-ci ildə universiteti bitirib Azərbaycana dönəndə Nafiə təhsilini yarımçıq qoyub onunla Bakıya gəlir. Cütlük Bakıda başqa bir ovqatla qarşılaşır. Bolşevik rejimi burada Nafiə xanıma nə təhsilini davam etdirməyə, nə də haradasa işləməyə imkan verir. Rejimin haqsızlığı ilə üzləşən xanım məcbur olub evdə dərzilik edir, qohum-qonşu üçün paltar tikir.

Pedaqoji Texnikumda və universitetdə dərs deyən Əmin Abid ictimai-siyasi hadisələrin dərinliynə vardıqca, sovet rejiminin apardığı yadlaşma, milli dəyərləri heçə endirmə siyasətinin, müstəqil düşüncə sahiblərinin təqib edilməsinin şahidi olur. Buna görə qələmini süngüyə çevirərək özünü odlara-alovlara atır. Odur ki, 1929-1930-cu illərdən başlayaraq bir çox başqa ədəbiyyatçılarımız kimi, Əmin Abidə qarşı da siyasi hücumlar başlayır. Pantürkist adı altında ittiham edilib repressiyaya məruz qalandan sonra Əmin Abid adının çəkilməməsi adi hala çevrilir. Bakıda işləməsi daha da çətinləşir. Məcburiyyət qarşısında qalan pedaqoq 1929-1934-cü illərdə Ağdam, Ağdaş və Quba rayonlarında müəllim işləməli olur.

Akademik Muxtar Kazımoğlunun fikrincə, repressiya qurbanı Əmin Abidin ədəbiyyatımız, habelə xalqımızın milli müstəqillik uğrunda apardığı mübarizədə söylədiyi həqiqətlər uzun müddət pərdə arxasında qalıb. İllər boyu dilə gətirilməyən Əmin Abid həqiqətlərindən biri də budur ki, o, həm də ədəbiyyat tarixçisidir. Ötən əsrin 20-ci illərində Tiflisdə nəşr olunan "Yeni fikir" qəzetinin İstanbul üzrə müxbiri Əli Şahbazovun 1926-cı ildə həmin qəzetdə verdiyi məlumata görə, Əmin Abid 6 cilddən ibarət ədəbiyyat tarixi üzərində çalışıb. Çox təəssüf ki, Əli Şahbazovun qeyd etdiyi 6 cild bütövlükdə əldə yoxdur. Bədirxan Əhmədli və Əli Şamilin axtarışları hesabına Əmin Abidin ədəbiyyat tarixinə aid cəmi iki kitabı və 20-ci illərdə ayrı-ayrı jurnallarda çap olunmuş bir neçə məqaləsi üzə çıxarılıb.

Əmin Abid yaradıcılığının görünən tərəflərindən biri də odur ki, bu qələm sahibi qəlbən kommunist rejimi ilə barışmayıb, əsərlərində söylədiyi bir çox fikir milli istiqlalla bağlı düşüncələrin məhsuludur. Cümhuriyyətin bolşeviklər tərəfindən işğalına etiraz əlaməti olaraq yazdığı üsyankar şeirlər gənclər arasında coşqu ilə qarşılanıb. Mühacirətdə olan ziyalılarımız isə onun yaradıcılığını maraqla izləyiblər. Türkiyədə və digər ölkələrdə sığınacaq tapmış cümhuriyyətin hökümət üzvləri Gültəkinin milli azadlıq yönlü şeirlərini yüksək dəyərləndirirdilər.

Nəhayət, şair millət sevgisinə, vətənpərvərliyinə görə təqib edilir və işdən çıxarılır. Eyni zamanda mətbuatda tənqid hədəfinə çevrilir. Belə bir



çətin şəraitdə açıq mübarizənin mümkünsüzlüyünü hiss edən Əmin Abid elmi-tədqiqatla məşğul olmağa üstünlük verir. Çox çətinliklə də olsa, qədim və orta yüzilliyin qaynaqlarını araşdırır. Əldə etdiyi nailiyyətləri tədqiqata cəlb edir. Bütün bunlara baxmayaraq, həyatını repressiya tufanından xilas edə bilmir. Adı türk millətçiləri siyahısına salınır.

1937-1938-ci illərdə maarif sahəsində aparılan "təmizləmə" əməliyyatı əsasən, türk ədəbiyyatı, coğrafiya və tarix fənlərinə qarşı yönəldilmişdi. Bu zaman Stalin diktaturası minlərlə günahsız ziyalımız kimi, Əmin Abidi və qardaşı Əliabbas Müznibi də kölgə kimi izləyirdi. Nəhayət, 1937-ci ildə yenidən həbs edilən Əliabbas Müznib həmin il avqustun 27-də Fövqaladə Üçlüyün qərarı ilə güllələnir. Bundan təxminən bir il bir ay sonra - 14 iyul 1938-ci ildə Əmin Abid həbs edilir. Türkiyəyə casusluqda, gənclər arasında pantürkizmi təbliğ etməkdə günahlandırılan ziyalı həmin il oktyabrın 21-də güllələnir. Bundan nə qohumların, nə də onu tanıyanların xəbəri olur. Əmin Abid güllələnəndən az sonra həyat yoldaşı Nafiə xanım da həbs edilir.

1956-cı ildə bir çox günahsız repressiya qurbanı kimi, istiqlal ruhlu Əmin Abidin də "işi"nə yenidən baxılır, əməlində cinayət tərkibi olmadığına görə ona bəraət verilir.

*Rəhman SALMANLI, "Azərbaycan"*

Qırmızı terror

# Almaniyada təhsil aldı, ömrü sürgünlərdə keçdi

**1937-ci ildə ən yüksək pilləsinə çatan repressiya dalğası xalqımıza ağır, sağalmaz yaralar vurdu. Heç bir günahı olmayan insanlar, daha çox xalqın önündə gedən seçilmiş ziyalılar saxta, qurama ittihamlarla şərlənərək ya güllələndilər, ya da sürgünlərə göndərildilər.**

Sonu ölümlə, faciə ilə nəticələnən həbslərin üstündən uzun illər keçəndən sonra isə bu insanlara bəraət verildi, günahsız həbs olunduqları rəsmi təsdiqini tapdı. Amma vaxtsız verilən bu bəraət qanı qurumayan, qaysaq bağlamayan yaraları sağaltmadı. Necə deyərlər, arxadan atılan daş oldu.

Kütləvi repressiyalar zamanı saxta ittihamlarla həbs olunan, sürgünlərə göndərilənlərdən biri də Yusif bəy Süleyman bəy oğlu Ağasıbəyli idi. O, 20 dekabr 1896-cı ildə Gəncədə dünyaya göz açmışdı. İbtidai təhsilini mollaxanada almış, burada ərəb və fars dillərini öyrənmişdi. 1906-1917-ci illərdə isə təhsilini şəhərdəki kişi gimnaziyasında davam etdirmiş, dünyəvi biliklərə yiyələnmişdi. 1917-ci ildə gimnaziyanı başa vurduqdan sonra təhsilini davam etdirmək üçün Tiflisə getmiş, Politexnikuma qəbul olmuşdu.

1918-ci ilin may ayında Yusif bəy Ağasıbəyli tələbə yoldaşlarının bir neçəsi ilə bərabər İstanbula getmişdi. Osmanlı hökuməti bilik və bacarıqlarını nəzərə alaraq onları Almaniyaya təhsil al-



mağa göndərmək barədə qərar qəbul etmişdi. Həmin vaxtlar Almaniyada yaranmış siyasi gərginliyə görə bu qərarı icra etmək mümkün olmamışdır. Başqa çıxış yolu olmayan Yusif bəy Bakıya qayıtmışdı.

Bakıya qayıdan Yusif bəy 1918-ci ildən 1920-ci ilin yanvarınadək fərdi qaydada müəllimliklə məşğul olmuşdu. Həmin günlər artıq Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdu. Cümhuriyyətin parlamenti 1919-cu il sentyabrın 1-də ali təhsilli mütəxəssis kadrların hazırlanması məqsədilə 1919-1920-ci tədris ilində 100 azərbaycanlı gəncin dövlət hesabına xarici ölkələrdəki ali məktəblərə göndərilməsi barədə qərar qəbul etmişdi. Həmin gənclərin sırasında Yusif Ağasıbəyli də var idi.

Yanvarın 14-də Bakı Dəmiryolu Vağzalından oxumaq üçün xarici ölkələrə göndərilən azərbaycanlı gənclər fevralın 11-də Parisə çatdılar. Tələbələri burada Paris Sülh Konfransında iştirak edən Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyəti qarşıladı.

Bir müddət Parisdə qaldıqdan sonra tələbələr təhsil almaq üçün Avropanın müxtəlif şəhərlərinə yola salındılar. Yusif Ağasıbəyli Berlinə getdi, buradakı Politexnikumda təhsil almağa başladı. 1925-ci ildə ixtisasını daha dərindən mənimsəmək üçün Drezden Politexnikumunda davam etdirdi. 1926-cı ildə mühəndisliyə namizəd rütbəsi qazandı. 1931-ci ildə Drezdenddə təhsilini başa vuraraq Berlinə döndü. Elə həmin il də doğma vətənə qayıtdı, Gəncə Yağ-Piy Kombinatında baş mexanik vəzifəsində işləməyə başladı.

Yusif bəy Almaniyada təhsil aldığı illərdə Marqarita Şnayder adlı alman qadınla ailə həyatı qurmuşdu. Onların bu evliliyindən 1928-ci ildə Arslan, 1930-cu ildə Turxan adlı oğulları dünyaya gəlmişdi.

Repressiya başlasa da, hələlik Yusif bəyi sorğu-suala çəkmirdilər. Amma 1937-il avqustun 1-də qəflətən gecənin bir aləmində onun da qapısı döyüldü. Almaniyada təhsil aldığına görə onu daha çox faşist təşviqatı aparmaqda, həmin ölkədəki rejimi təriflməkdə və işlədiyi kombinatda pozuculuq işləri aparmaqda ittiham edirdilər. Yusif bəy Ağasıbəyli təbii ki, bu ittihamların heç biri ilə razılaşmırdı. Amma o illər hökm sürən repressiya rejimi idi.

Yusif bəy Ağasıbəylinin istintaq işi 1938-ci il aprelin 11-də başa çatdı. 1938-ci il dekabrın 13-də keçirilmiş məhkəmə iclasında Yusif bəy və onunla birlikdə eyni iş üzrə ittiham olunanlar ilkin istintaqda işgəncə altında verdikləri ifadələrdən imtina etdilər. Buna görə də Zaqafqaziya Hərbi Dairəsinin Hərbi Tribunalı işi yenidən araşdırmaq üçün istintaqa qaytardı. Bundan sonra onlara qarşı irəli sürülən ittihamlar sübut olunmadığına görə üzərlərindən götürüldü.

Lakin repressiya rejimi Yusif bəy Ağasıbəylidən əl çəkmək istəmirdi, onu həbs etmək üçün yeni variantlar axtarırdı. 1939-cu il iyunun 22-də geri qaytarılan cinayət işi ilə bağlı heç bir əlavə təhqiqat işi aparılmadan Hərbi Tribunalın göstərişi ilə istintaq bitmiş hesab olundu və baxılması üçün SSRİ XDİK Özəl Müşavirəsinə göndərildi. Özəl Müşavirədə Yusif bəy Ağasıbəylini əks-inqilabi-millətçi təşkilata üzv olmaqda və sovet hakimiyyətini devirmək məqsədilə silahlı üsyan hazırlanmasından xəbərdar olmaqda ittiham edərək 1937-ci ildən hesablanmaqla 3 illiyə islah-əmək düşərgəsində cəza çəkməyə məhkum etdilər.

1940-cı ildə həbsdən azad olunduqdan sonra Gəncəyə qayıdan Yusif bəy şəhərdəki İstilik Mərkəzində baş mühəndis işləməyə başladı. Fikirləşdi ki, yəqin, bundan sonra repressiya rejimi onu sakit buraxar. Amma Yusif bəyin fikirləşdiyi kimi olmadı. Hitlerçilərin keçmiş ittifaq üzərinə hücumundan sonra Yusif bəy yenidən sovet rejiminin zülmü ilə üzləşdi. Həm özünün Almaniyada təhsil aldığı, həm də həyat yoldaşı alman olduğu üçün yenidən təqiblərə məruz qaldı. 1942-ci ildə ailəsi ilə birlikdə onu Qazaxıstana sürgün etdilər. Bundan da ürəkləri soyumayan rejim 1944-cü ildə onları əvvəl Daşkəndə, sonra Tacikistanın Leninabad şəhərinə göndərdi. Rejim ailəyə burada da yaşamağa imkan vermədi. 1953-cü ildə yenidən onları Özbəkistana qaytardılar. Yusif bəy 1954-cü ilə qədər Namanqan şəhərindəki istilik mərkəzində baş mexanik işlədi. Bir müddətdən sonra onu həmin şəhərdəki Rezin məhsulları zavoduna direktor təyin etdilər.






Axır ki, gec də olsa haqq-ədalət öz yerini tapdı. Yusif bəy 1956-cı ildə günahsız olması haqqında bəraət aldı. 1960-cı ildə Gəncəyə döndü. Əvvəlcə Alüminium zavodunda, sonra isə İstilik Mərkəzində mühəndis işlədi.

Yusif bəy Ağasıbəyli 1980-ci il mayın 25-də, həyat yoldaşı Marqarita Ağasıbəyli isə 1986-cı ildə dünyalarını dəyişiblər.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*



# Mədəniyyət



● Səhnə xadimlərimiz

# Kiçik rolların böyük ifaçısı

## Fazil Salayev üçün ən böyük mükafat tamaşaçı sevgisi idi

**Elə aktyorlar var ki, yaradıcılıqları boyu adları afişalarda baş rolların ifaçıları kimi böyük hərflərlə yazılmır. Onların adları çəkildikləri filmlərin titrlərində nəzərə belə, çarpmır. Ancaq rejissorların həvalə etdikləri kiçik, epizodik rolları elə canlandırırlar ki, tamaşaçı bəzən baş roldan çox onları sevir və yaddaşına həkk edir.**

Aktyorun istedadı, məharəti nə oynadığı rolların böyüklü-yü-kiçikliyi, nə də aldığı yüksək fəxri adlarla, qazandığı mükafatlarla ölçülür. Çünki tamaşaçı aktyoru səhnədə, filmdə görəndə onun ad-sanını, titullarını düşünmür, yaratdığı obrazın təsirinə düşür. Odur ki, aktyoru tanıdan, sevdirən səhnədə və ekranda yaratdıqlarıdır. Fazil Salayev məhz belə aktyorlardan idi. O, səhnədə, filmdə baxışı, mimikası, hətta susmağı ilə unudulmaz obraz yaradırdı.

F.Salayev 95 il öncə - 1931-ci ilin sentyabrında Bakıda dünyaya gəlmişdi. Əslən Cənubi Azərbaycandan idi. Atası İdris Salayev dövrünün sayılıb-seçilən ziyalılarından olmuş, müxtəlif vəzifələrdə çalışmışdı.

Ailənin yeganə övladı olan Fazil kiçik yaşlarından qələm-kağıza meyil salmış, hələ məktəb yaşına çatmamış yazmağı öyrənmişdi. Orta məktəbdə yaxşı oxuyan Fazil uşaqlıqdan rəssamlığa həvəs göstərib, üstəlik, pianoda məharətlə musiqilər ifa edib.

Onun sənət yolu rəssamlıqla başlayıb. Fazil Salayev orta məktəbi bitirib Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə (hazırda Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci) daxil olub. Rəssamlıq Məktəbini başa vurandan sonra bir müddət müəllim işləyib, Yasamal rayonundakı məktəblərin birində rəsm dərsi keçib. Həm də "Azərbaycan" nəşriyyatında tərtibatçı-rəssam kimi çalışıb.

Teatra olan sevgisi və ali təhsil almaq arzusu onu 1957-ci ildə M.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutuna (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) aparıb. İnstitutu bitirdikdən sonra - 1961-ci ildə M.Əzizbəyov adına Milli Dram Teatrının truppasına qəbul edilib. Həmin teatrın səhnəsində "Əcəb işə düşdük"də Lütfiyar, "Ölülər"də Cəlal, "Görünməmiş toy"da artist Sərxan, "Canlı meyit"də musiqiçi, "Pəri cadu"da İkinci cin rollarını oynayıb.

1970-ci ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrında işləməyə başlayan F.Salayev həmin teatrın səhnəsinə "Arşın mal alan"da Vəli, "Əlli yaşında cavan"da Şulu, "Dağlar qoynunda"da Şakir, "Həmişəxanım"da Muxtar və başqa rollarla çıxıb. 1975-1978-ci illərdə isə Fazil Salayevin iş yeri Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyası olub. Kinorejissor Həsən Seyidbəyli 1963-cü ildə onu "Möcüzələr adası" filmində epizodik rola dəvət edib. 32 yaşlı aktyor həmin filmdə adaşı Fazilin obrazını canlandırıb. "Neft Daşları"nda çalışan neftçilərdən, onların gündəlik həyatından, qəhrəmanlığından bəhs edən bu film Fazil Salayevin yaradıcılığında yeni yol açıb.



Bir il sonra rejissor Ağarza Quliyev ekranlaşdırdığı "Ulduz" filmində müxbir rolunu ona həvalə edib. Sonralar "Sən niyə susursan?" (1966), "Şərikli çörək" (1969), "İyirmialtılar" (1966), "Bir cənub şəhərində" (1969), "Bizim Cəbiş müəllim" (1969), "Yeddi oğul istərəm..." (1970), "Axırıncı aşırım" (1971), "Ulduzlar sönmür" (1971), "Arzu" (1972), "Var olun, qızlar..." (1972), "Alma almaya bənzər" (1975), "Dərviş Parisi partladır" (1976), "Günlərin bir günü..." (1976), "Ürək... Ürək..." (1976), "Şir evdən getdi" (1977), "Araşdırın" (1978), "Arvadım mənim, uşaqlarım mənim" (1978), "Vulkana doğru" (1977) və başqa filmlərdə çəkilib. Onun yaratdığı rolların əksəriyyəti filmin ümumi süjetində bəlkə də böyük yer tutmur. Amma aktyor həmin kiçik rolları elə canlandırıb ki, ekran əsərinə baxan tamaşaçı həmin obrazları uzun müddət unutmur.

Fazil Salayev yumor və satiranın imkanlarından ustalıqla istifadə edən, qəhrəmanlarının komik hallarını tamaşaçıya məharətlə çatdıran aktyor idi. Ancaq onu, sadəcə, "komik aktyor" adlandırmaq olmaz. Çünki Fazil Salayevin qəhrəmanlarının gülüşünün arxasında çox vaxt insanın acizliyi, sadəlövhlüyü, çaşqınlığı, bəzən də cəmiyyət qarşısındakı müdafiəsizliyi dayanırdı. Fazil Salayev heç zaman süni gülüş yaratmağa, tamaşaçını zorla güldürməyə çalışmırdı. Öz təbiiliyi, səmimiyyəti ilə tamaşaçının qəlbinə yol taparaq onu ürəkdən güldürürdü.

Aktyor dramatik rolları da eyni peşəkarlıqla ifa edib. Fazil Salayev qəhrəmanlarının kədərini, qüssəsini ağlayıb-sızlamaqla göstərməyib. Müharibə illərinin ağır mənzərəsini əks etdirən "Şərikli çörək" filmində yaratdığı Qırçı Məhəmmədin daxili təlatümlərini, mənəvi və cismani ağrılarını aktyor sözlərlə deyil, baxışları ilə anladıb. Azərbaycan kinosunun "Qızıl fondu"na daxil edilmiş bu filmdəki ifası ilə Fazil Salayev təsdiq edib ki, xarakterindən asılı olmayaraq hər bir rolu ustalıqla canlandırmağı, tamaşaçını güldürdüyü kimi, ağlatmağı da bacarır.

"Mozalan" satirik kinojurnalının çoxsaylı süjetlərində oynadığı rollar da Fazil Salayevin aktyor kimi məharətindən xəbər verir. Onun qəhrəmanları "Mozalan"ın ən sevimli personajlarıdır. O illərin ən baxımlı "Komediyalar aləminə səyahət", "Səhər görüşləri" kimi əyləncəli-satirik televiziya verilişlərində də Fazil Salayev fərqli xarakterli, bir-birindən maraqlı rollar yaradıb.

Təəssüf ki, ölüm sənətkarı yaradıcılığının ən məhsuldar çağlarında sənətdən ayırdı. Fazil Salayev 1978-ci il iyunun 16-da dünyasını dəyişdi. Cəmi 46 il yaşasa da, yaratdığı obrazlar uzunömürlü oldu. Aktyorun oynadığı rollar bu gün də sevilə-sevilə baxılır, baxmayaraq ki, o, nə fəxri adla təltif edilib, nə də hər hansı mükafata layiq görülüb. Çünki haqqını almaq üçün qapılar döymək, kimlərəsə ağız açmaq Fazil Salayevin xarakterinə yad idi. Yad olmayan yalnız ona həvalə edilən rolları məharətlə oynayaraq tamaşaçıların sevgisini qazanmaq olmuşdu.



***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Sənət dünyası

# Rəssamlıqda oxusa da, musiqiyə könül verdi

**Azərbaycan musiqisinin inkişafında böyük xidmətlər göstərmiş sənət adamlarından biri də Xalq artisti, professor, vokal məktəbinin tanınmış nümayəndəsi Mobil Əhmədovdur. O, bütün ömrünü Azərbaycan musiqisinin, bütövlükdə xalqımızın zəngin mədəniyyətinin dünyaya yayılması və tanıdılması işinə həsr etmişdi.**



İfa tərzi, ürəyəyatımlı səsi ilə dinləyici və tamaşaçıların rəğbətini qazanmış Mobil Əhmədov 10 sentyabr 1931-ci ildə Gəncədə dünyaya göz açıb. Kiçik yaşlarından incəsənətə maraq göstərib. Bu maraq 1955-ci ildə onu Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbinə gətirib. Yalnız rəssamlıq deyil, mədəniyyətin başqa sahələri də onu özünə çəkib. O üzdən həmin zamanlar bir növ yol ayrıcında qalıb. Hansı sahəni - musiqini, yoxsa rəssamlığı seçəcəyini xeyli götür-qoy edib. Axır ki, bir ildən sonra seçimini edib, musiqini ürəyinə daha yaxın bilib.

Mobil Əhmədov Azərbaycan Dövlət Konservatoriyasına qəbul olaraq tanınmış müğənni Bülbülün sinfində oxumağa başlayıb. Gələcəyin böyük müğənnisi 1961-ci ildə təhsilini uğurla başa vurduqdan sonra bir neçə ay Azərbaycan Dövlət Radiosunun xorunda ifaçılıq edib.

Həmin ilin sentyabrında Mobil Əhmədovun bacarığını, peşəkarlığını, ən başlıcası isə səsini, ifa tərzini nəzərə alaraq Azərbaycan Dövlət Musiqili Komediya Teatrına (ADMKT) dəvət ediblər. Elə həmin vaxtdan da ömrünü bu sənət ocağına bağlayıb. Görkəmli aktyorlar Lütfəli Abdullayev, Bəşir Səfəroğlu, Nəsibə Zeynalova və başqaları ilə işləməyə başlayan M.Əhmədov bu teatrda həyatının ən gözəl anlarını yaşayıb, yaradıcılığında böyük uğurlar əldə edib. 40 ilə yaxın teatrın əksər tamaşalarında əsas partiyaları böyük məharət və sevgi ilə oxuyub. Bu hesaba musiqi aləmində tanınıb, bənzərsiz ifası ilə yaddaşlarda dərin iz salıb.

Xalq artisti Mobil Əhmədov ömrünün bu xoş illərini xatirələrinə köçürərək yazmışdı: "Adımı ilk dəfə Musiqili Komediya Teatrının afişalarında oxuyanda gözlərimə inansam da, fikrimdə reallığa çevirə bilmədim. Doğrudanmı mən, indiyədək çox-çox uzaqlardan baxdığım bu nəhəng aktyorlarla çiyin-çiyinə çıxış edəcəyəm?! kimi qəribə hisslərə qapılırdım".

Mobil Əhmədov yalnız müğənni deyil, müəllim-pedaqoq kimi də işləyib. O, Musiqi Akademiyasında, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Uşaq Filarmoniyasında, həmçinin, 22 və 6 nömrəli musiqi məktəblərində vokal sənətindən dərs deyib.

Amma Mobil Əhmədov hələ kiçik yaşlarından könül bağladığı rəssamlıqdan da uzaq düşməyib. Asudə vaxtlarında müxtəlif janrlarda əsərlər, həm də sənət dostlarının şarjlarını çəkib. "Pikassonu düşünərkən", "Süleyman Rüstəm", "Tələbə qız", "Mənim dostlarım", "Tənha qayıq", "Gəncə mənzərələri", "Gəncə çayı" rəsmlərini yaradıb. Musiqidə deyə bilmədiklərini rənglərin dili ilə ifadə edib.

Mobil Əhmədovun Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətləri dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. Görkəmli müğənni 1978-ci ildə Əməkdar artist, 2000-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb.

Mobil Əhmədov uzun sürən xəstəlikdən sonra 2006-cı il iyunun 3-də 75 yaşında vəfat edib. Dünyaya göz açdığı Gəncədə dəfn olunub.

Bir zamanlar Mobil Əhmədovun tələbəsi olmuş Əməkdar artist Ramil Qasımov müəllimini belə xatırlayır: "Ustadımın xatirəsi mənə hər zaman əziz və doğmadır. Yaradıcı nailiyyətlərimə görə ustadım Mobil Əhmədova borclu olduğumu hər zaman qeyd edirəm. "Ustadımın yolu ilə" filmində, zamanında onun Azərbaycan Musiqili Komediya Teatrında indiki Azərbaycan Dövlət Akademik Musiqili Teatrında, yaratdığı sənət incilərinin nümunələrini toplayaraq, onun ifa etdiyi üslubda yenidən özüm ifa etdim. Bu əsərlərin hər biri Azərbaycan klassik ənənələrinin zənginliyinə köklənir. Eyni zamanda filmi ərsəyə gətirməkdə məqsədim ustadıma ehtiram və hörmət əlamətidir".

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

● Ədəbi simalarımız

# Zamanının bənzərsizi - Fatma xanım Kəminə



**Dövrdaşı, görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərlinin yazdıqlarından onu belə tanıyırıq: "Fatma xanım həqiqətdə çox gözəl və zərif bir can idi. Zahiri gözəlliyinə müvafiq batini və mənəvi tərəfdən dəxi əxlaqi-həsənə sahibəsi olub, ziyadə xoşxülq, mülayimə və xoşrəftar bir nadireyi-zəmanə idi..."**

Zamanının bənzərsizi - Fatma xanım Kəminənin həyatının bütün çağlarına poeziya həmdəm, yoldaş olub. 1841-ci ildə Şuşada dünyaya gələn Fatma xanımın atası Mirzə Bəybaba bəy şair idi. O, "Fəna" təxəllüsü ilə şeirlər yazırdı. Mədrəsədə təhsil almış Mirzə Bəybaba bəy həm də mahir xəttat olub. O, Şuşa şairlərinin seçmə əsərlərinin əlyazma toplusunu tərtib edib, bir neçə kitabın üzünü köçürüb. Mirzə Bəybaba bəy xanın yanında katib işləyib.

Mir Möhsün Nəvvab "Təzkireyi-Nəvvab" kitabında yazmışdır: "Mirzə Fatma mərhum Mirzə Bəybaba Əlyarbəyzadə oğlu Tahirzadənin istəkli qızı olub. Qarabağın Şuşa əhalisindəndir". Mirzə Bəybaba bəy Cahan xanımın Fatma xanımdan başqa Mehdi bəy və Yəhya bəy adlı oğulları da olub.

Mütərəqqi fikirli ziyalılardan olan Mirzə Bəybaba bəy qızının təhsilli olmasına çalışıb. Fatma xanım mollaxanada oxuyub, fars dilini öyrənib. Dövrünün ziyalıları savadına və zəkasına görə böyük ehtiram göstərib, ona "Mirzə Fatma xanım", - deyə müraciət ediblər.

Kiçik yaşlarından ədəbiyyata maraq göstərən Fatma xanım atası Mirzə Bəybaba Fəna kimi şair təbiətli, poeziya vurğunu idi. Fatma xanım Kəminənin ilk sənət müəllimi də atası sayılır. Onu da atası Mirzə Bəybaba bəy kimi şeirləri tanıdıb, nüfuz qazandırıb. Fatma xanım Kəminənin adı dövrünün məşhur Azərbaycan şairləri sırasında çəkilib.

Ancaq Fatma xanımın sənət müəllimi, ustadı yalnız atası olmayıb. Azərbaycanın mədəniyyət beşiyi hesab edilən Şuşanın poeziya, musiqi mühiti ömrünün ilk çağlarından ruhunu pərvazlandırıb. Poeziyaya heyranlığı onu "Məclisi-üns" və "Məclisi-fəramuşan" ədəbi məclislərinə aparıb. Fəal iştirakçısı olduğu həmin ədəbi məclislərin və sənət dostlarının Fatma xanım Kəminənin əsərlərinin məzmun və formasının müəyyənləşməsində mühüm rolu olub. O öz qəzəllərində sənət dostları olan Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Mirzə Rəim Fəna və digər Qarabağ şairlərini minnətdarlıq hissi ilə yad edib.

Dövrünün əksər şairləri ilə həmsöhbət, sənət dostu, yoldaşı olub. Amma Xurşidbanu Natəvanla Fatma xanım Kəminə həm də yaxın rəfiqə, vəfalı dost, ürək sirdaşı, həmdərd idilər. Onlar 30 il xeyirdə-şərdə, şeir və musiqi məclislərində birlikdə iştirak edib, bir-birlərinə nəzirələr, qəzəl janrında məktublar yazıblar.

Xan qızı Xurşidbanu Natəvanın həyatının ən ağır günlərində - oğlu Abbas gənc yaşda vəfat edəndə Fatma xanım onun kədərinə şərik olub, o ağır dərdi, iztirabı belə qələmə alıb:

*Natəvanın gözünün nuru Abbas almadı kam,*
*Bircə an olmadı rahət, ömürü oldu tamam.*
*Çox təəssüf ki, pənah bürcünü Ay tərk elədi,*
*Möhnət üz verdi seyid nəslinə bir nəhs axşam.*

Xurşidbanu Natəvan öz nakam oğlunun itkisinə yana-yana şeirlər yazıb. O, "Ölürəm" rədifli qəzəlində dərdinə belə yas tutub:

*Varımdı sinədə dərdü qəmi-nəhan ölürəm,*
*Fəda olum sənə, gəl, eylə imtahan ölürəm.*

Onun sənət və ürək dostu Fatma xanım Kəminə isə qəlbi yaralı Xan qızına deyib:

*Mərizi-eşqə əlac eyləməz təbib, ölmə!*
*Bu dərdə carə edər visləti-həbib, ölmə!*
*Visalə talib olan aşiqə bəla yetişir,*
*Fəraqə səbr elə, sən munca bişəkib, ölmə!*

Qəzəllərini klassik Şərq poeziyasının ənənəvi mövzularında qələmə alan Fatma xanım Kəminə dünyaşöhrətli Azərbaycan şairi Məhəmməd Füzuli lirikasının vurğunu olub.

O, əsərlərini doğma Azərbaycan dilində və fars dilində qələmə alırdı. Bədii təsvir vasitələrindən məharətlə istifadə edən müəllif gözəlliyi və məhəbbəti tərənnüm edirdi:

*Əcəb sevdadı bu, sevdayə düşdüm,*
*Rəhi-eşqin tutub qovğayə düşdüm.*
*Nə dünyada gəzib kamə irişdim,*
*Nə fikri-yar ol üqbayə düşdüm.*

Klassik ədəbi irsə meyil yaradıcılığının əsas dəst-xəti olsa da, şair şifahi xalq ədəbiyyatına mənən bağlı olub. Əsərlərində yeri gəldikcə, folklor nümunələrindən də bəhrələnib, onlardan istifadə edib.

Bizə Fatma xanım Kəminəni şair kimi tanıdan əsasən günümüzə gəlib çatan klassik şəkildə yazılmış əsərləridir. Amma o, müasirləri kimi bir çox aşığın şeirlərinə nəzirələr də yazmışdır.

XIX əsr Azərbaycan, xüsusilə Qarabağ ədəbiyyatında qadın şairlərin mövqeyinin möhkəmlənməsində mühüm rol oynayan sənətkarlardan olan Fatma xanım Kəminə klassik poeziya ənənələrini mənimsəməklə yanaşı, özünəməxsus poetik üslub formalaşdırıb. Onun yaradıcılığında məhəbbət, mənəviyyat, ədalət tərənnüm olunurdu.

Müasirlərinin yazdıqlarına əsaslanaraq deyə bilərik ki, Fatma xanım zəngin yaradıcılıq yolu keçib. Əfsus ki, dövrümüzə onun əsərlərinin az hissəsi yetişib. Ancaq qalanlar da Fatma xanım Kəminənin istedadlı, özünəməxsus şair olmasını söyləməyə əsas verir. Çünki hətta bir misra da şairlik məharətinin təcəssümü ola bilir. Bu baxımdan, günümüzə çatan əsərlərinin belə poetik gücü Fatma xanım Kəminənin adını Azərbaycan ədəbiyyatında XIX əsrin istedadlı şairlərindən biri olaraq tanıtmağa yetir.

XIX əsr təzkirələrində Fatma xanım Kəminənin həyat və yaradıcılığı barədə az da olsa, məlumat mövcuddur. "Təzkireyi-Nəvvab" kitabına Fatma xanım Kəminənin şeirlərini də daxil etmiş Mir Möhsün Nəvvab yazıb ki, Fatma xanım 400-ə yaxın şeirin müəllifidir. Fatma xanım Kəminənin adı Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" adlı kitabında və başqa mənbələrdə də qeyd olunub və yaradıcılığı barədə qısa məlumat verilib.

Şairin divanı olduğu barədə də məlumatlar var. "Riyazül-aşiqin" adlı əsərində Fatma xanım Kəminəni Məhsəti, Nigar xanım, Nurcahan bəyim kimi şairlərə tən tutan şair, təzkirəçi Məhəmməd ağa Müctəhidzadə onun divanı olduğunu bildirənlərə nəinki haqq qazandırıb, həmin divanı gördüyünü bildirib. Şuşa şairlərindən İsgəndər Rüstəmbəyov isə qeyd edib ki, hələ 1883-cü ildə Fatma xanım Kəminə öz divanını "oxuyub feyziyab olmaq üçün bəylərə göndərmişdir". Bəylər onun divanını oxuyublar. Fatma xanıma fikirlərini bəyan etməyi şair Süleyman bəyin öhdəsinə buraxıblar. Süleyman bəy bu münasibətlə qəzəlində yazıb:

*Ey şairə, ərbabi-süxən, ismi Kəminə,*
*Fəxrüşşüərasan, sənə yox burda qərinə.*

Müasirləri Fatma xanımı Şuşada böyük nüfuza malik, qətiyyətli, kişilərin iştirak etdiyi məclisdə üzüaçıq oturan, yeri gələndə, öz fikirlərini söyləyib, arxasında mərd-mərdanə dayanan qadın kimi yad ediblər.

"Azərbaycan ədəbiyyatı" kitabında Fatma xanımın şəxsiyyəti və yaradıcılığı barədə yüksək fikirlər bildirən Firidun bəy Köçərli onu "Qarabağın üçüncü şaireyi-möhtərəməsi" adlandırıb.

Fatma xanım Kəminənin atası kimi, digər qohumları da Şuşada sayılıb-seçilib, nüfuz sahibi olublar. Xalq yazıçısı, ədəbiyyatşünas Əzizə Cəfərzadə yazıb: "Onlardan bir neçə hərbçi zabitlər yetişmişdirsə də, əksəriyyəti ziyalıdır. Bu ziyalılar zabitlər arasında hətta inqilabçı kimi də tanınmışdılar. Kəminənin qayınlarından Hacı bəy Sultanov Türkmənistanda, Fərəc bəy Sultanov Qafqazda azadlıq uğrunda mübarizə aparan insanlar kimi tanınmışlar. Həyat yoldaşı Sadıq bəy Mirzeynal oğlu isə Füzuli rayonunun Saracıq kəndindən idi. Onların Əşrəf bəy və Rəşid bəy adlı iki oğlu, Tutu, Humay və Qumru adlı üç qızı olub. Bu nəslə mənsub olan övladların çoxu öz işləri və əməlləri ilə həmişə seçilən məşhur simalar kimi tanınıb".

1898-ci ilin sentyabrında Şuşada vəfat edən şair Mir Həsən qəbiristanlığında torpağa tapşırılıb. Onun ölümü Qarabağ ədəbi mühitində böyük itki kimi qarşılanıb. Firidun bəy Köçərli Qarabağın öz hüznünü belə ifadə edib: "...onun vəfatı cümlə-şüəranü üzrəfayi-Qarabağda böyük bir yas oldu".

Onun ədəbi irsi Azərbaycan ədəbiyyatının zəngin poeziya ənənələrinin dəyərli nümunələrindən biri kimi bu gün də əhəmiyyətini qoruyur. Əsərlərinin böyük bir hissəsi günümüzə gəlib çatmasa da, zamanın sınağından keçmiş hər bir misrası Fatma xanım Kəminənin poeziya dünyası, istedadı və sənətə bağlılığı haqqında dəyərli məlumatlar verir.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Gənclər kitabxanasında "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş elektron məlumat bazası hazırlanıb

**Prezident İlham Əliyevin 22 dekabr 2025-ci il tarixli sərəncamı ilə ölkəmizdə 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilib. Sərəncamdan irəli gələn tədbirləri həyata keçirmək məqsədilə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında elektron məlumat bazası hazırlanaraq istifadəçilərə təqdim edilir.**




Kitabxanadan AZƏRTAC-a bildirilib ki, elektron resurs şəhərsalma və memarlıq sahəsində Azərbaycanın zəngin tarixi irsinin, milli memarlıq məktəbinin, müasir şəhərsalma proseslərinin və bu istiqamətdə həyata keçirilən quruculuq işlərinin geniş auditoriyaya çatdırılması məqsədilə hazırlanıb.

Hazırlanan elektron məlumat bazasında mövzu ilə əlaqədar müxtəlif istiqamətləri əhatə edən zəngin informasiya və elektron resurslar sistemləşdirilib. Bazanın "Rəsmi sənədlər", "Xronologiya", "Görkəmli şəxslərin fikirləri", "Qlobal şəhərsalma gündəliyi", "Şəhərsalma Forumu-2026", "Müasir memarlıq abidələri", "Mədəni irs nümunələri", "Tarix və mədəniyyət abidələri", "Müasir şəhərsalma", "Ümumdünya irs obyektləri" və digər bölmələrində mövzuya dair materiallar təqdim olunur.

# Sosial şəbəkələrdəki ideal həyat illüziyası



**Sosial şəbəkələrin həyatımıza təsiri artıq yalnız ünsiyyət və informasiya mübadiləsi ilə məhdudlaşmır. Səyahətlər, bahalı alış-verişlər, uğurlu karyera, xoşbəxt ailə görüntüləri, ideal bədən quruluşu və dəbdəbəli həyat tərzi sosial media lentlərində bir-birini əvəz edir. Telefon ekranına sığan "ideal həyatlar" bəzən insanın özünü yetərsiz görməsinə kifayət edir. Başqalarının uğurlarını, imkanlarını və xoşbəxt anlarını öz gündəlik həyatı ilə müqayisə edən insan zamanla sahib olduqlarını yetərsiz görməyə, öz nailiyyətlərini kiçiltməyə başlayır. Xüsusilə "hamı məndən daha yaxşı yaşayır", "hamı irəliləyir, mən isə geri qalmışam" düşüncəsi psixoloji rifaha və özünüqiymətləndirməyə təsirsiz ötüşmür. Bəs sosial şəbəkələrdə yaradılan "ideal həyat" illüziyası insan psixologiyasına necə təsir edir? Davamlı müqayisə hansı psixoloji problemlərə yol aça bilər və özümüzü bu təsirdən necə qorumalıyıq?**

## Virtual müqayisənin psixoloji yükü

Mövzu ilə bağlı "Azərbaycan"a açıqlama verən **Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri, psixoloq Elnur RÜSTƏMOV** bildirib ki, sosial şəbəkələrdə gördüyümüz həyat çox vaxt reallığın özü deyil, onun xüsusi olaraq seçilmiş, redaktə edilmiş və estetik şəkildə təqdim olunan hissəsidir. İnsanlar, bir qayda olaraq, həyatlarının uğurlu, xoşbəxt və diqqətçəkən məqamlarını paylaşırlar. Uğursuzluqlar, ailədaxili münaqişələr, maddi çətinliklər, yorğunluq, narahatlıq və gündəlik həyatın adi tərəfləri isə görünməz qalır. Əsas problem insanın başqasının seçilmiş və bəzədilmiş görüntüsünü öz həyatının bütün reallığı ilə müqayisə etməsindədir. Bu isə əvvəlcədən qeyri-bərabər müqayisədir. Çünki sosial şəbəkədə görünən nəticənin arxasında hansı proseslərin, itkilərin, borcların, münasibət problemlərinin və ya psixoloji gərginliyin dayandığını bilmirik.

Sosial şəbəkələr isə müqayisə dairəsini hədsiz dərəcədə genişləndirib. İnsan artıq özünü yalnız tanıdığı şəxslərlə deyil, məşhurlarla, yüksək gəlirli insanlarla, peşəkar şəkildə hazırlanmış görüntülərlə və dünyanın müxtəlif ölkələrində yaşayan şəxslərin seçilmiş həyat tərzi ilə müqayisə edir. Bu vəziyyət uzun müddət davam etdikdə isə bir sıra psixoloji problemlər yaranır. Belə hallarda özünəinam zəifləyir, həsəd, məyusluq, utanc və günahkarlıq hissləri güclənir, davamlı narahatlıq və daxili gərginlik yaranır, həyatdan məmnunluq azalır, yuxu rejimi pozulur. Bəzi hallarda insan real münasibətlərdən uzaqlaşaraq sosial təcridə meyil göstərir. Sosial müqayisə hər zaman mənfi hadisə deyil. Başqasının uğuru insan üçün nümunə, motivasiya və inkişaf istiqaməti də ola bilər. Burada əsas məsələ müqayisənin hansı nəticəyə gətirib çıxarmasıdır. Əgər insan "O bacarıbsa, mən də öz imkanlarıma uyğun addımlar ata bilərəm" deyə düşünürsə, müqayisə inkişafetdirici rol oynayır. Əksinə, "Onda var, məndə yoxdur, deməli, mən dəyərsizəm" düşüncəsi yaranırsa, müqayisə dağıdıcı xarakter alır.



Mütəxəssisin fikrincə, belə müqayisə davamlı xarakter aldıqda insanın özünə münasibəti tədricən dəyişə bilər: "O, sahib olduqlarını kifayət qədər dəyərli hesab etməməyə başlayır. Nəticədə "Mən kifayət qədər uğurlu deyiləm", "Mənim həyatım maraqsızdır", "Hamı irəliləyir, mən isə yerimdə qalmışam" kimi düşüncələr formalaşır. Bu düşüncələr özünəinamın azalmasına, zahiri görünüşdən narazılığa, nailiyyətlərin kiçildilməsinə və şəxsi dəyərin başqalarının reaksiyası ilə ölçülməsinə gətirib çıxara bilir. Bəzən də insan özünü real keyfiyyətlərinə, qabiliyyətlərinə və dəyərlərinə görə deyil, paylaşımının topladığı bəyənmə və şərhlərin sayına əsasən qiymətləndirməyə başlayır. Belə olduqda özünüqiymətləndirmə daxili dayaqlardan uzaqlaşaraq xarici təsdiqdən asılı vəziyyətə düşür. Paylaşım gözlənilən diqqəti almadıqda məyusluq, narahatlıq, özündən şübhələnmə hissi yarana bilər. Sosial şəbəkələrin təsiri hər kəsdə eyni olmur. Özünüqiymətləndirməsi sabit, həyati məqsədləri müəyyən və real münasibətləri sağlam olan insan gördüyü məzmunu daha tənqidi qiymətləndirə bilir. Özünəinamı zəif, emosional dəstəyə ehtiyacı yüksək və həyatında qeyri-müəyyənlik yaşayan şəxslər isə "ideal həyat" görüntülərinin təsirinə daha həssas ola bilirlər".

İnsanın özünü başqaları ilə müqayisə etməsi təbii psixoloji mexanizmdir. Psixoloqun sözlərinə görə, insan öz mövqeyini, imkanlarını və inkişaf səviyyəsini müəyyənləşdirmək üçün ətrafındakı şəxsləri meyar kimi qəbul edir. Əvvəllər bu müqayisə daha çox ailə üzvləri, dostlar, iş yoldaşları və yaxın sosial çevrə ilə aparılırdı.

"Tez-tez müqayisə aparmaq avtomatik olaraq psixoloji pozuntunun mövcudluğu demək deyil. Problem bu davranışın insanın əhvali-ruhiyyəsinə, yuxu rejiminə, münasibətlərinə, əmək qabiliyyətinə və gündəlik fəaliyyətinə davamlı şəkildə mənfi təsir göstərdiyi zaman yaranır. Eyni yaşda olmaq eyni vaxtda ailə qurmağı, karyera qurmağı, ev almağı və ya müəyyən status qazanmağı tələb etmir. "Geri qalmışam" hissinin başqa bir səbəbi də əldən nəyisə qaçırmaq qorxusudur. İnsan düşünür ki, digərləri daha maraqlı yaşayır, daha çox imkan əldə edir və o isə bu prosesdən kənarda qalır. Bu hiss telefonun davamlı yoxlanılmasına, real həyatda diqqətin dağılmasına və insanın yaşadığı anı qiymətləndirə bilməməsinə səbəb ola bilər. Davamlı olaraq başqalarının xoşbəxtliyini izləyən şəxs tədricən öz həyatının müsbət tərəflərini görməməyə başlayır. Sahib olduqlarına alışır, onları adi və əhəmiyyətsiz hesab edir, diqqətini isə çatışmayanlara yönəldir. Nəticədə obyektiv olaraq həyatında yaxşı məqamlar olsa belə, özünü narazı və uğursuz hiss edir", - deyə Elnur Rüstəmov vurğulayıb.

## Sosial şəbəkələrin ən həssas auditoriyası

Sosial müqayisənin təsirinə ən çox yeniyetmələr və gənclər məruz qalırlar. Yeniyetməlik şəxsiyyətin, mənlik təsəvvürünün, bədən obrazının və sosial mövqenin formalaşdığı həssas dövrdür. Psixoloqun sözlərinə görə, bu yaşda həmyaşıdların rəyi, qəbul olunmaq ehtiyacı və xarici görünüşə münasibət xüsusi əhəmiyyət daşıyır: yeniyetmənin sosial şəbəkədə gördüyü həyat tərzi və populyarlıq göstəriciləri görünüşdən narazılıq, sosial həyəcan, özünəqapanma və özünüqiymətləndirmənin aşağı düşməsi ilə nəticələnə bilər. Gənclər də risk qrupuna daxildir. Təhsil, iş, karyera, evlilik və maddi müstəqilliklə bağlı sosial gözləntilər məhz bu dövrdə güclənir. İnsan həmyaşıdlarının nailiyyətlərini izlədikcə öz həyatının sürətini yetərsiz hesab edir. Lakin bu məsələ yalnız yeniyetmə və gənclərlə məhdudlaşmır. Ortayaşlı insanlarda müqayisə daha çox karyera, gəlir, ailə həyatı, övladların uğuru və sosial status üzərindən aparılır. Hətta yaşlı insanlarda da tənhalıq, ailədən uzaqlıq və başqalarının fəal həyatını izləmək psixoloji narahatlıq yarada bilər".

Mütəxəssis bildirib ki, sosial şəbəkələrdən tamamilə imtina etmək əksər insanlar üçün nə real, nə də zəruri yanaşmadır: "Əsas məsələ ondan şüurlu, məqsədli və ölçülü istifadə etməkdir. İlk növbədə insan sosial şəbəkədə gördüyü hər görüntünün reallığın tam təsviri olmadığını qəbul etməlidir. Paylaşım həyatın özü deyil, onun seçilmiş hissəsidir. Bir neçə saniyəlik xoşbəxt görüntünün arxasında həmin şəxsin hansı çətinliklərlə qarşılaşdığını bilmək olmur. Bu fərqi dərk etmək müqayisənin emosional təsirini azaldır. İkinci mühüm addım sosial şəbəkədə keçirilən vaxta sərhəd qoymaqdır. Xüsusilə səhər oyanan kimi və gecə yatmazdan əvvəl telefondan istifadə insanın diqqətinə, əhvali-ruhiyyəsinə və yuxu keyfiyyətinə mənfi təsir göstərə bilər. Gün ərzində sosial media üçün konkret vaxt müəyyənləşdirmək, lazımsız bildirişləri söndürmək və yatmazdan əvvəl telefondan uzaqlaşmaq vacibdir. İnsan izlədiyi məzmunu da seçməlidir. Heç kim davamlı olaraq özünü pis, yetərsiz və narazı hiss etdirən hesabları izləmək məcburiyyətində deyil. Belə səhifələri izləmədən çıxarmaq və ya paylaşımlarını məhdudlaşdırmaq psixoloji sağlamlığın qorunması baxımından düzgün addımdır. Əvəzində maarifləndirici və peşəkar inkişafı dəstəkləyən məzmunlara üstünlük verilə bilər. İnsanın özünü başqaları ilə deyil, əvvəlki vəziyyəti ilə müqayisəsi daha sağlamdır. "Başqaları haradadır?" sualının əvəzinə, "Mən bir il əvvəl harada idim, indi hansı irəliləyişləri etmişəm?" sualı verilməlidir. Hər bir insanın inkişaf yolu, tempi və imkanları fərqlidir. Şəxsi məqsədlər də sosial şəbəkədə görünən həyat tərzinə deyil, insanın öz dəyərlərinə və real imkanlarına əsaslanmalıdır".

Real sosial münasibətləri qorumağın mühüm amil olduğunu deyən Elnur Rüstəmov qeyd edib ki, ailə üzvləri və dostlarla canlı ünsiyyət, fiziki fəallıq, mütaliə, təbiətdə vaxt keçirmək, hobbilər və gündəlik fəaliyyətlər insanın psixoloji tarazlığını möhkəmləndirir. Ekranda başqalarının həyatını izləmək əvəzinə, öz həyatında iştirak etmək lazımdır. Psixoloqun fikrincə, valideynlər yeniyetmələrin sosial media istifadəsinə yalnız qadağa və cəza ilə yanaşmamalıdırlar. Övladla açıq ünsiyyət qurmaq, gördüyü məzmunu onunla müzakirə etmək, ideal görüntülərin necə yaradıldığını izah etmək və ona sağlam özünüqiymətləndirmə qazandırmaq daha təsirli yanaşmadır. Böyüklər öz davranışları ilə də nümunə olmalıdırlar. Valideyn özü daim telefondadırsa, övladından fərqli davranış gözləmək çətinləşir.

"İnsan sosial şəbəkələrdən istifadə etdikdən sonra öz emosional vəziyyətini müşahidə etməlidir. Əgər davamlı kədər, gərginlik, əsəbilik, yuxu pozuntusu, bədənindən narazılıq, özünü dəyərsiz hiss etmə və gündəlik fəaliyyətə marağın azalması müşahidə olunursa, bu əlamətlərə etinasız yanaşmaq olmaz. Həmin vəziyyət uzun müddət davam edirsə və həyat keyfiyyətinə təsir göstərirsə, peşəkar psixoloji yardım almaq məqsədəuyğundur. Sosial platforma vasitədir və onun insan həyatındakı rolunu istifadə forması müəyyən edir. O, düzgün istifadə edildikdə məlumat, ünsiyyət və inkişaf imkanı yaradır. Lakin insan öz dəyərini başqalarının nümayiş etdirdiyi həyat, bəyənmə sayı və virtual təsdiq üzərindən müəyyənləşdirməyə başladıqda psixoloji təzyiq mənbəyinə çevrilir. Sağlam yanaşma sosial platformalarında başqalarının həyatını izləyərkən öz həyatımızı, münasibətlərimizi və real ehtiyaclarımızı diqqətdən kənarda qoymamaqdır", - deyə mütəxəssis vurğulayıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# "Azərenerji" ilə Azərbaycan Mühəndislik Akademiyası enerji sektorunda birgə tədbirlər keçirir







**"Azərenerji" ASC ilə Azərbaycan Mühəndislik Akademiyası elmi-texniki əməkdaşlığın genişləndirilməsi və enerji sektorunda innovativ texnologiyaların tətbiqi məqsədilə iki mühüm layihə həyata keçiriləcək. Layihələr Azərbaycan Mühəndislik Akademiyasının prezidenti akademik Arif Paşayev və "Azərenerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev tərəfindən imzalanmış əməkdaşlıq müqaviləsi əsasında icra olunur.**

Layihələr çərçivəsində "İstilik-elektrik stansiyalarında ətraf hava mühitinin keyfiyyət indeksini təmin edən parametrlərə nəzarət sisteminin işlənilməsi və 2 ədəd sınaq nümunəsinin hazırlanması" və "Yüksəkgərginlikli transformatorların soyutma yağına nəzarət sisteminin işlənilməsi və 2 ədəd sınaq nümunəsinin hazırlanması" nəzərdə tutulub.

Bununla əlaqədar sentyabrın 5-də Şüvəlan qəsəbəsində yerləşən "Şimal" Elektrik Stansiyasında tədbir keçirilib. Tədbirin məhz sentyabrın 5-də təşkil olunması təsadüfi deyil. Belə ki, "Şimal-2" Elektrik Stansiyası 2019-cu il sentyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istismara verilib və tədbir də həmin əlamətdar hadisənin ildönümündə gerçəkləşib.

Tədbirdə "Azərenerji" ASC-ni Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutunun rəhbəri, akademik Arif Həşimov, Tədris Mərkəzinin rəisi Hikmət Əliyev və "Şimal" İstilik-Elektrik Stansiyasının direktoru Pirəli Əlili təmsil ediblər. Azərbaycan Mühəndislik Akademiyasından isə vitse-prezident, akademik Əhəd Canəhmədov, departament rəhbəri akademik Kamal Əsgərov, akademiyanın müxbir üzvü Ənvər İsayev və digər nümayəndələr iştirak ediblər.

Tədbirdə layihələrin məqsədi, texniki xüsusiyyətləri, icra istiqamətləri və gözlənilən nəticələri barədə müzakirələr aparılıb.

Müzakirələr zamanı qeyd olunub ki, "Azərenerji" yalnız ölkənin elektrik enerjisi ilə etibarlı təminatını həyata keçirmir, eyni zamanda enerji təhlükəsizliyi sahəsində mühüm və strateji layihələr həyata keçirir. Bu layihələr Azərbaycanın müasir, dayanıqlı, rəqəmsal və ekoloji cəhətdən daha səmərəli enerji sisteminin formalaşdırılmasına mühüm töhfə verir.

Tədbir iştirakçıları elektrik stansiyasının enerji blokları, texniki avadanlıqları, SCADA idarəetmə sistemi və digər sahələrlə tanış olublar.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

# Birinci sinfə başlayacaq uşaqlara məktəb ləvazimatları təqdim olundu



Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Birliyi tərəfindən "Kiçik əllərə böyük ümidlər daşıyırıq" layihəsi bu il də həyata keçirilib. Yeni tədris ilinin başlanması və Bilik Günü münasibətilə keçirilən layihənin əsas məqsədi uşaqların təhsilə ilk addımlarını dəstəkləmək və ailələrə məktəbə hazırlıq prosesində sosial yardım göstərməkdir.

Layihə çərçivəsində birinci sinfə başlayacaq uşaqlar üçün sentyabrın 4-də Bakı Musiqi Akademiyasının Opera Studiyasında gənc aktyorların iştirakı ilə "Zamanda səyahət" adlı tamaşa göstərilib.

Daha sonra həmkarlar ittifaqı üzvlərinin birinci sinfə qədəm qoyan övladlarına məktəb çantaları və zəruri məktəb ləvazimatları təqdim olunub.

Layihədə "Azərbaycan" qəzetinin əməkdaşları İsmayıl Qocayev və Təhminə Verdiyeva da iştirak ediblər. Onların birinci sinfə qədəm qoyan övladlarına məktəb ləvazimatları təqdim olunub.

*"Azərbaycan"*

# Bu gün arabir yağış yağacaq, qısamüddətli leysan olacaq

**Azərbaycanda sentyabrın 8-də gözlənilən hava şəraiti açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Yarımadanın ayrı-ayrı yerlərində qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Gündüz tədricən kəsiləcək. Arabir güclənən şimal-qərb küləyi səhər şimal-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 18-20°, gündüz 22-25° isti olacaq. Atmosfer təzyiqi 764 millimetr civə sütunu, nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, gecə yağıntıların bir qədər güclənəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Gündüz yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 16-20°, gündüz 25-28° isti, dağlarda gecə 8-13°, gündüz 15-20° isti olacaq.

# Macarıstanda ağcaqanadlar təhlükəli Qərbi Nil virusunu yayır



**Macarıstanda Qərbi Nil virusuna yoluxma hadisəsi qeydə alınıb.**

AZƏRTAC xəbər verir ki, Milli İctimai Səhiyyə və Əczaçılıq Mərkəzinin laboratoriya testləri infeksiyanı təsdiqləyib, aparılan araşdırma isə xəstənin xəstələnməzdən əvvəl xaricə səfər etmədiyini, yoluxmanın ölkə daxilində baş verdiyini üzə çıxarıb.

Qeyd olunur ki, virus əsasən quşlar və ağcaqanadlar arasında dövr edir, insan və atlar isə "dalanda qalmış sahiblər" hesab olunur. Yoluxma əksər hallarda simptomsuz keçir, lakin nadir hallarda virus əsəb sistemini zədələyərək ensefalit, meningit və hətta ölümlə nəticələnə bilər.

Avropa Xəstəliklərə Nəzarət Mərkəzinin məlumatına görə, 2025-ci ildə 14 Avropa ölkəsində 1112 yoluxma və 97 ölüm halı qeydə alınıb, ən ağır vəziyyət isə İtaliyada müşahidə edilib.

## ALLAH RƏHMƏT ELƏSİN!

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İqtisadiyyat şöbəsinin müdir müavini

**RUSLAN ŞAHVƏLİ OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayev və xidmətin kollektivi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin baş idarə rəisi general-mayor Anar İsmayılova atası

**MÜSLÜM İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3318
Sifariş 1148

Qiyməti 60 qəpik